

# HEYDƏR ƏLİYEV VƏ QARABAĞ

ZƏHRA MURADOVA

BAKI-2023

**ZƏHRA MURADOVA**

# HEYDƏR ƏLİYEV VƏ QARABAĞ

**BAKI – 2023**

***Kitab Ümummili Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur***


Elmi redaktor: **Havva Məmmədova,**
Tarix elmlər doktoru, professor

Məsləhətçilər: **Vasif Quliyev,**
Azərbaycan yazıçılar və jurnalistlər birliklərinin üzvü,
"Şuşa" qəzetinin baş redaktoru
**Vəli İlyasov,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Rəyçi: **Mahirə İbadova,**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Texniki redaktor: **Könül Mikayılova,**
Azərbaycan Respublikası Təhsil İnstitutu, elmi işçi


***Bu kitab Azərbaycanın Ümummilli Lideri, xalqımızın böyük oğlu Heydər Əliyev hakimiyyətinin birinci və ikinci hissəsində Qarabağ məsələsi ilə bağlı fəaliyyətindən bəhs edir. Mövzu ilə əlaqədar maraqlı faktlar və məlumatlar öz əksini tapmışdır. Əsər sadə dildə yazılaraq, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***


**DOI https://doi.org/10.36719/2023/191**

## EL BİLİR Kİ, SƏN MƏNİMSƏN...

*Mənim həyatımın məqsədi müstəqil Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam.*

*Heydər Əliyev*

Ömrünün altmış iki ilini canından da çox sevdiyi Azərbaycanın inkişafına və rifahına sərf etmiş ümummilli liderimiz Heydər Əliyevin hərtərəfli fəaliyyəti indiki və gələcək nəsillər üçün parlaq bir örnəkdir. Ölməz şairimiz Səməd Vurğunun məşhur "Azərbaycan" şeirini necə kövrək hisslərlə əzbər söyləməsi hamımızın gözü qarşısında indi də can- lanır.

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən,**
**Anam, doğma Vətənimsən,**
**Ayrılarmı könül candan,**
**Azərbaycan, Azərbaycan!**

Şeirdən təkcə bu bəndi söyləməsi göstərdi ki, o, Azərbaycanı öz canı qədər sevir və dünyadan

gedəndə də öz ana torpağından ayrılmadı, onu yenə də ucaltdı... Azərbaycan xalqının dahi rəhbəri həyatı və fəaliyyəti boyu bu sevgi ilə yaşadı və mübarizə apardı...

Fəaliyyəti cild-cild kitablara sığmayan dahi rəhbərimizin vaxtilə atdığı bütün addımların öyrənilməsi, yaddaşımızda və tariximizdə yaşadılması son dərəcə vacib bir məsələdir. Çünki keçmişini bilməyən gələcəyin çətin dolaylarında hara ge- dəcəyini də bilməz. Vaxtilə Cavanşirin, Babəkin, Şah babalarımız Şah İsmayılın və Nadir Şah Əfşarın açdıqları, Ulu Öndərimiz Heydər Əliyevin qoruyub saxladığı böyük yolla gələcəyə gedirik. Ona görə də biz Heydər Əliyev kimi fəxrimiz olan bu böyük dövlət xadimimizin fikirlərinin, həyata keçirdiyi tədbirlərin, apardığı siyasətin dərin mənasını xalqımıza çatdırmalıyıq. Bu, son nəfəsinə qədər xalqımıza, dövlətimizə xidmət göstərmiş müdrik dövlət başçımızın müqəddəs ruhu qarşısında bizim mənəvi borcumuzdur.

Xatırlayaq ki, Ulu Öndərimiz hakimiyyətə ikinci dəfə o zaman gəldi ki, Ermənistan və onun havadarlarının hərtərəfli köməyi və hərbi yardımları ilə Azərbaycan ərazilərinin 20 faizini işğal etmişdi. Yuxarı Qarabağ və ətraf yeddi rayondan 790000, Ermənistandan isə 250000 nəfərdən artıq insan qaçqın və məcburi köçkün olmuşdur. Ümumiyyətlə,



bir milyondan artıq azərbaycanlı ağır vəziyyətdə rayonlarda və Bakı şəhərində məskunlaşdırılmışdılar. Bu vəziyyətdə gənc müstəqil dövlətin daxilində də qorxulu bir süni gərginlik yaradılmışdı. Müstəqilliyimizi gözü götürməyən bəzi dövlətlər və xarici dairələr şəhərlərimizdə, o cümlədən paytaxt Bakıda terror aktları törədir, Surət Hüseynovu, Rəhim Qazıyevi, Əlikram Hümbətovu, Rövşən Cavadovu və başqalarını silahlandıraraq mövcud hakimiyyətə qarşı qiyam qaldırmağa təhrik edirdilər. Qısaca desək, yenicə əldə olunmuş müstəqilliyin məhv edilməsinə bircə addım qalmışdı. Azərbaycana rəhbərlik edənlər düşmənlərə adekvat cavab verə bilmir, acizlik və qorxaqlıq göstərir, vəziyyətdən

məqbul çıxış yolu tapmağı bacarmırdılar. Bu səbəbdən də hakimiyyət eşalonunda və iqtisadiyyat sahəsində böhran getdikcə dərinləşir, ölkəni dərin bataqlığa çəkirdi. Bir-birini əvəz edən Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və Əbülfəz Əliyev nə daxili, nə də xarici düşmənləri yerinə oturda bilmirdilər. Azərbaycanda qəsdən dolaşıq salınmış düyünləri ancaq böyük dövlət xadimi, dünya şöhrətli diplomat və siyasətçi Heydər Əliyev aça bilərdi. Təəssüf ki, hakimiyyət hərisləri onun nəinki hakimiyyətə, heç Bakı şəhərinə belə gəlməsinə imkan vermirdilər. Xalqın təkidli tələbləri ilə 1993-cü ilin iyununda ikinci dəfə hakimiyyətə gələndən sonra ölkəmizi sarmış bütün "bağları" özünəməxsus səbirlə, təmkinlə və son dərəcə düzgün düşünülmüş siyasətlə qırıb atdı. Ölkədə sözün əsl mənasında at oynadan bütün qanunsuz silahlı birləşmələri ləğv etdi, hakimiyyətə silahlı çevrilişlə gəlmək ənənə- lərini aradan qaldırdı, Ermənistanı atəşkəs rejiminə məcbur etdi. Dahi rəhbər bununla da Azərbaycanın xilaskarı missiyasını yerinə yetirdi.

Yaşlı və orta yaşlı nəsillərin xatirindədir ki, Vətəninin hər qarışını sevən Heydər Əliyevin Qarabağ sevgisi Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində işləyərkən özünü daha bariz şəkildə göstərirdi. Anadan olmasının 100 illiyinə həsr etdiyimiz bu kitabda Ümummilli Liderimizin

Qarabağla bağlı fəaliyyətindən bəhs edəcəyik. Bu şərəfli fəaliyyət bizə çox aydın göstərəcəkdir ki, unudulmaz rəhbərimiz həyatının bütün mərhələlərində Azərbaycana misilsiz xidmətlər göstərib. Hətta Moskvada xalqımızın düşmənlərinin təzyiqi ilə yüksək vəzifələrdən istefa verəndən sonra bir müddət orada qalmalı olsa da, ürəyi daim Azərbaycanla birgə döyünüb.

1990-cı il yanvarın 20-də Sovet qoşunlarının Bakıda dəhşətli qırğın törətməsi bütün Azərbaycan xalqına şok yaşatdı. Mixail Qorbaçovun məqsədi Azərbaycan xalqını qorxutmaq, qazandığı müstəqil- liyi məhv edib onu yenidən imperiya boyunduruğuna girməyə məcbur etməkdi. Ancaq o, görünür, Azərbaycan xalqını yaxşı tanımamışdı. Qətliamın ertəsi günü, yanvarın 21-də Heydər Əliyevin heç bir təhlükədən qorxub-çəkinmədən ailəsi ilə birgə Moskvadakı səfirliyimizə gələrək xalqımıza başsağ- lığı verməsi və Bakıda törədilən dəhşətli faciədə şəxsən Mixail Qorbaçov başda olmaqla SSRİ hakimiyyətini ifşa etməsi fikrimizi təsdiq edir. O günlərdə belə cəsarət göstərən ikinci bir insan olmadı.

**Müəllifdən**

# QARABAĞDA MİLLƏTÇİLİK NECƏ BAŞ QALDIRDI…

*“60-70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşki- latçısıyam”.*

*Heydər Əliyev*

Ümummilli lider Heydər Əliyevin fəaliyyəti geniş və çoxşaxəlidir. Bu fəaliyyət istiqamətlərindən biri Qarabağla əlaqədardır. Bu kitabda Ulu Öndərin yalnız Qarabağla bağlı fəaliyyətindən bəhs olu- nacaqdır. Zənnimizcə bu kitabda əks etdirilən fakt və məlumatlar geniş oxucu kütləsində xüsusi maraq doğuracaq. Səbəbi də budur ki, böyük rəhbərimiz Heydər Əliyev şəxsi həyatı, gördüyü işlər, şahidi və ya iştirakçısı olduğu hadisələr, həyata keçirdiyi tədbirlər barədə geniş danışmağı xoşlamırdı. Sanki onların hamısını xalq və dövlət qarşısında özünün vətəndaşlıq borcu hesab edirdi. Nadir hallarda, əgər

vacib sayırdısa, yalnız o zaman çox qısa şəkildə onlara toxunurdu.

Biz bu kitabda əsas mövzuya keçməzdən əvvəl Qarabağ probleminin yaranması tarixindən qısaca da olsa oxuculara məlumat verməyi lazım bildik. Çünki bunları bilmədən Qarabağ münaqişəsinin səbəbini anlamaq çətin olardı.

Artıq bildiyimiz kimi, müstəbid Rusiya çarı I Pyotrun təməlini qoyduğu ermənipərəst siyasəti ondan sonra gələn bütün rus çarları tərəfindən davam etdirildi. Nəhayət, I Pavelin hakimiyyəti illərində Azərbaycana hücum qətiləşdirildi və XIX əsrin lap başlanğıcında yarıerməni, yarıgürcü general Pavel Sisianovun komandanlığı altında 15 minlik qoşun gəlib Gürcüstanla Azərbaycan sərhədlərində hazır vəziyyətdə hücum üçün əlverişli məqam gözlədilər. General Sisianov Gəncə hakimi Cavad xana hədələyici tonda məktub yazaraq təslim olmağı, şəhərin qapılarını açmağı tələb etdi. Lakin Gəncə hakiminin təslim olmaq fikri yox idi. Cavad xan düşünürdü ki, belə ağır gündə ətrafdakı xanları köməyə çağırsa öz qoşunları ilə ona birləşəcəklər. Bu ümidlə o, Azərbaycan xanlarını düşmənə qarşı birləşməyə çağırsa da baş tutmadı. Bəzi xanlar bir- birləri ilə apardıqları ədavətləri yada salaraq barışmadılar və birləşmədilər. Onlar Sisianovun qoşunlarını öz ərazilərində əzəcəklərini bildirərək

Cavad xanı müharibə meydanında tək qoydular. Beləliklə, yaxşı silahlandırılmış rus qoşunları ermənilərin kəşfiyyat xarakterli məlumatlarından da istifadə edərək hücuma keçdilər və şəhəri işğal etdilər. Cavad xan oğlanları ilə birgə şəhərin müdafiəsindəki amansız vuruşmalarda həlak oldu.

Azərbaycan torpağına daxil olan rus qoşunları təbii ki, Gəncə ilə kifayətlənməyərək digər xanlıqları da işğal etməyə başladılar. Hər yerdə şəraiti bilən, müdafiə sədləri barədə məlumatları olan erməni keşişləri və xəbərgirləri rus qoşunlarına bələdçilik edərək müdafiənin zəif yerlərini onlara göstərirdilər. Məhz çuğulçuların həmin xəbərləri əsasında işğalçılar İrəvan qalasını da ələ keçirdilər. Əsgərləri ilə bərabər igidliklə döyüşən İrəvan hakimi Hüseynqulu xan və qardaşı Həsən xan qalanın müdafiəsində öldürüldülər. Rus işğalçılarına 20 il müqavimət göstərən, düşmən qoşunlarına ciddi tələfat verən İrəvan qalası nəhayət, süqut etdi. İrəvanın işğalı rus çarını o qədər sevindirdi ki, “İrəvanın alınmasına görə” medalını təsis etdirdi. Çarın fərmanı ilə o medal cəmi bir neçə rus generalına və döyüşdə fərqlənən əsgər və zabitlərə, eyni zamanda rus komandanlığına qiymətli casusluq məlumatı gətirən bir neçə erməni keşişinə təqdim edilmişdi.



***İrəvanın alınmasına görə medal***

Hər işi əvvəlcədən planlaşdıran rus hökuməti İranda və Türkiyədə yaşayan erməni ailələrini köçürüb İrəvan şəhəri ətrafında və Qarabağda məskunlaşdırmağa başladı. Çar hökumətinin qayğısı olaraq köçkün erməni ailələrinə yol xərci, torpaq və pulsuz mal-qara verilirdi. 1840-cıı ildə ilk dəfə olaraq İrəvan ətrafı "erməni vilayəti" adlandırıldı. Rus çarlarının sonrakı "fəaliyyətləri" nəticəsində ermənilər bu yerlərdə möhkəmləndilər. Erməniprəst bolşevik hakimiyyəti isə Azərbaycana təzyiq edərək İrəvan şəhərini Ermənistan adlandırılan qurama dövlətə paytaxt etdi. Bütün bu hadisələrdən sonra

Sovet hökumətinin onların arxasında möhkəm durduğunu görən ermənilər Azərbaycandan yeni ərazilər qoparmaq həvəsinə düşdülər. Bunu guya əsaslandırmaq üçün özlərindən tarix uydurmağa başladılar. Həmin saxta tarixdə göstərdilər ki, guya Azərbaycanın böyük bir hissəsi, Türkiyənin Van gölü ətrafı vilayətlər tarixdə mövcud olmamış "böyük Ermənistan"ın əraziləridir. Ancaq hələlik Qarabağı Azərbaycandan qoparmağı ön plana çəkdilər. Ermənilərin hər cür ağılsız hərəkətlərinə dəstək verən Sovet hökuməti onların bu arzularına da "yox" demədi və bu istiqamətdə onlara yardımçı oldu. Bolşevik hakimiyyəti azərbaycanlıların etirazlarına baxmayaraq Qarabağa erməni muxta- riyyəti veriməsini davamlı təzyiqlərlə həll etdi. Əslində bu, gələcəkdə Qarabağın Ermənistana birləşdirilməsi üçün süni surətdə yaradılmış bəhanə idi. Bununla da nə vaxtsa Qarabağın Ermənistan birləşdirilməsi üçün ermənilərin əlinə ilk fürsət verilmiş oldu. Cəmi 28 il sonra, 1948-ci ildə Moskvada yüksək vəzifələrdə əyləşmiş ermənilərin təhriki ilə Sovet dövlətinin başçısı İosif Stalinin tapşırığı ilə 250 mindən artıq azərbaycanlı öz dədə- baba torpaqlarından deportasiya olundular. Bu çirkin işdə Moskvada yüksək vəzifə tutan Anastas Mikoyan və başqaları mühüm rol oynadılar.



***Ermənistandan deportasiya olunan azərbaycanlılar***



Ata-baba yurdlarından zorla didərgin salınanların Qazaxıstanın boş səhralarına köçürülməsi nəzərdə tutulsa da, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırovun tələbi və xahişi ilə fikir dəyişdi və Qərbi azərbaycanlılar Azərbaycanın aran rayonlarına deportasiya edildilər. Köçürülənlərin böyük bir qismi köçün birinci, ikinci illərində aranın qaynar iqliminə tab gətirməyərək müxtəlif ağır yoluxuci xəstəliklərə tutularaq vəfat etdilər. Azərbaycana köçürülənlərin yaşadıqları kəndlərə xaricdən gətirilən erməni ailələri yerləşdirilsə də kəndlərin bir çoxu boş qaldı. Məlumat üçün deyək ki, həmin kəndlər hələ də boş qalmaqdadır. Məqamı gələndə bu mövzuya yenidən qayıdacağıq.

## ŞOVİNİSTLƏRİN HƏRƏKƏTƏ GƏLMƏSİ

*Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix və insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar.*

*Heydər Əliyev*

Ermənilərin torpaq iştahaları azalmaq bilmirdi. Onlar Azərbaycanın zəif mövqeyindən sui istifadə

edərək yeni ərazilər ələ keçirməyə həvəsləndilər. Göründüyü kimi, dövlətçiliyə Rusiya hakimiyyətlərinin əvəzsiz yardımları ilə nail olmuş ermənilər irəliyə yeni addımlar atmağı planlaşdırdılar. Əslində bu planların da müəllifi ermənipərəst Sovet hökumətinin özü idi. Ermənilər "araba kölgəsində" yatan köpəklər kimi bu "kölgədən" maksimum səviyyədə istifadə etməyə çalışırdılar.

1960-cı illərdə daşnakların "yetişdirmələri" olan millətçilər və şovinistlər nəsli yenidən aranı qarışdırmağa, Qarabağın Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi tələbini irəli sürməyə başladılar.

Ərazilərimizdə möhkəmlənən ermənilər əsasən XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında Ermənistan dövləti qurduqlarını bildirən faktları gizlətməyə çalışırdılar. Təzəcə cızmaqara etdikləri tarixlərində və düzəltdikləri saxta xəritələrdə isə Azərbaycanın digər ərazilərinin və Türkiyənin bir çox vilayətlərinin "böyük Ermənistan"a aid olduğu iddia edilirdi. O vaxtdan başlayaraq bu mövzuda kim həqiqəti danışıbsa, yollarının üstünə çıxıbsa, hər hansı üsulla ya susdurublar, ya da terror vasitəsi ilə məhv ediblər.

Azərbaycanın görkəmli dövlət xadimi və yazıçısı Nəriman Nərimanovu ləkələyib məhv etmək mümkün olmasa da partiya ədəbiyyatında onun

ermənilər tərəfindən zəhərlənməsi və qəfil ölümü barədə məlumatlar var. Məhz Nərimanov Qarabağ məsələsində həlledici rol oynayaraq vilayətin Ermənistana birləşdirilməsinin qarşısını almışdı. Bolşevik Əliheydər Qarayevlə Nərimanovun Qarabağın taleyi bərədə məşhur söz dueli buna sübutdur. Gərgin keçən müzakirədə Qarayev təklif edirdi ki, gəlin, Qarabağı verək Ermənistana. Onda Nərimanov ona qəzəblə cavab verərək təhqir etmişdi. Bununla da Qarabağın Ermənistana birləşdirilməsi məsələsi bitmişdi. Bundan əsəbiləşən Sovet rəhbərləri başda Anastas Mikoyan olmaqla Nərimanovun "Bahadır və Sona" əsərini qadağan ədəbiyyatı sırasına saldırmış, müəllifi az qala "xalq düşməni" çıxarmışdılar. Nəhayət, Moskvada 1925-ci ildə hökumətin iclasında iştirak edən Nəriman Nərimanov fasilədə yeməkdən zəhərlənərək müəmmalı surətdə vəfat etdi. Böyük dövlət adamının qəfil vəfatının əsl səbəbləri isə araşdırılmadı.

Eyni aqibət gözəl yazıçımız Əyyub Abbasovun da başına gətirildi. İstedadlı yazıçı iki cildlik "Zəngəzur" romanına görə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinə çağırılaraq həbslə təhdid edildi. "KQB"-nin dəhşətli cəza üsullarını yaxşı bilən Əyyub Abbasov gizli təqib olunduğunu bildiyi üçün dərin sarsıntı keçirdi və geniş infarktdan vaxtsız dünyasını dəyişdi. Yazıçının ölümünə görə

kimsə cəzalandırılmadı, hətta xəbərdarlıq da edilmədi. Cəlladların tüğyan etdikləri Sovet cəza aparatında belə humanizm yox idi. Romanda Ermənistanın qədim Azərbaycan torpağı olması barədə işarələr vardı. Hakimiyyətin güc nazirlik- lərində işləyən ermənilər və senzorlar belə məsələdə heç vaxt, heç kimə güzəştə getmirdilər.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldiyi ilk ildə Nəriman Nərimanovun Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətləri nəzərə alaraq anadan olmasının 100 illiyi ərəfəsində böyük dövlət xadimi və görkəmli yazıçının heykəlinin ucaldılması üçün Sovet dövlətinin ali rəhbərliyinə dəfələrlə müraciət etdi. O zaman buna qarşı çıxanlar da oldu. Onlar Nərimanovu millətçilikdə təqsirləndirirdilər. Ancaq həmişə siyasətində və fikirlərində ardıcıl olan Heydər Əliyev "əkslərin" güclü müqavimətini qıra- raq, əks arqumentlərlə onların ittihamlarını darma- dağın edərək Bakı şəhərinin hündür bir yerində Nərimanovun əzəmətli heykəlinin ucaldılmasına nail oldu.

Hələ Azərbaycanda hakimiyyətə gəlməzdən əvvəl xalqın dahi rəhbəri Heydər Əliyev ermənilərin Azərbaycan torpaqlarını qoparıb Ermənistana birləşdirmək niyyətlərini bilmiş və ona qarşı vəzifəsinin verdiyi səlahiyyətlər çərçivəsində fəal mübarizə aparmışdır. O, şəxsi həyatına təhlükə

olduğunu bilsə də, cəsarət nümayiş etdirmiş, ağıllı fikir və planları ilə onların mənfur niyyətlərini beşiyində boğmuşdur. Belə hadisələrdən biri 1967-ci ildə, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komi- təsinin sədri vəzifəsinə təyin olunandan bir neçə ay sonra baş vermişdi.

Həmin ilin əvvəllərindən başlayaraq o zamankı Dağlıq Qarabağda, əsasən də Xan kəndi şəhəri (ermənilər Stepanakert deyirdilər) əsassız ərazi iddiaları irəli sürən qatı millətçilərin yuvasına çevrilmişdi.

Bu da səbəbsiz deyildi və dərinə işləmiş kökləri vardı. O zaman xarici ölkələrdə və Ermənistanda ortaya çıxmış bir sıra erməni ziyalıları Qarabağın Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi, mahiyyətcə ərazimizin birdəfəlik qoparılması məsələsini özlərinin milli, tarixi vəzifəsi kimi qaldırmağı planlaşdırmışdılar. Bu məqsədlə onlar Azərbaycanın ermənilər yaşayan rayonlarına gedir, əhalinin beynini zəhərli təbliğatları ilə doldurur, azərbaycanlılara qarşı dərin nifrət oyadır, gələcək hadisələrə hazırlayırdılar. Lənətlənmiş şair və yazıçılar, başda Sero Xanzadyan, Silva Kaputikyan, Zori Balayan öz cızmaqaralarında millətlərarası ədavəti daha da alovlandırırdılar.

Bu baxımdan Zori Balayanın "Ocaq" əsəri türklərə və azərbaycanlılara qarşı yönəldilən kin və nifrətin



*Xan kəndi şəhərinin mənzərəsi*



zirvəsinə yüksəlmişdi. Bu kitab o qədər populyarlaşmışdı ki, hər bir erməni ailəsində vardı. Hətta ərə gedən qızlara cehiz kimi də verilirdi. Bundan başqa, Qarabağın işğal edilməsi məqsədilə fond yaradılmış, hər bir erməni ailəsinin bu fonda müəyyən qədər pul ödənilməsi təşkil olunmuşdu. Onlar illərlə bu işləri davam etdirsələr də Azərbaycan xüsusi xidmət orqanları bundan xəbər tuta bilməmişdilər. Yəni məxfiliyə son dərəcə ciddi əməl olunurdu.

1988-ci ildə Sumqayıtda yaşayan bəzi erməni ailələri həmin fonda pul verməkdən imtina etdiklərinə görə daşnaklar onlardan dəhşətli intiqam aldılar. Başda Eduard Qriqoryan olmaqla narkotik qəbul etmiş bir dəstə adam fevralın 28-də həmin ailələrə hücum edərək müxtəlif vəhşi üsullarla onları öldürmüşdülər. SSRİ-nin xüsusi xidmət orqanları isə buradakı erməni izlərini itirməyə çalışmış, qatı cinayətləri azərbaycanlıların ayağına yazmışdılar. Bunlar hələ çox sonralar olacaqdı.

İndi isə 1967-ci ildir və Azərbaycanda ictimai-siyasi şərait sakit idi. Lakin bu sabitlik nisbi idi və millətçi ermənilər əlaltdan gizli fəaliyyətdə idilər. Hər zaman Sovet dövlətinin dəstəyindən sui-istifadə edərək öz ərazilərini genişləndirməyə, "böyük Ermənistan" kimi sərsəm bir ideyanı gerçəkləşdirməyə çalışırdılar. 1918-ci ildən "dişlərində şirə" qalmışdı. O zaman başda Anastas Mikoyan, Qriqori Orconikidze və başqaları olmaqla

Naxçıvanla Qarabağı Azərbaycandan ayırıb yenicə təşkil olunmuş Ermənistan Sovet Sosialist Respublikasına birləşdirmək planları irəli sürülsə də Azərbaycan tərəfinin güclü müqavimətindən sonra dayandırılmışdı. Ancaq ermənilər bu planı unutmadılar və ondan əl çəkmək fikrində deyildilər.

1960-cı ildə SSRİ Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olan Anastas Mikoyan Sovet dövlətinin baçşısı Nikita Xruşşovun qəbulunda olub və Qarabağın Ermənistana birləşdirilməsini xahiş edib. Nikita Xruşşovun siyasi fəaliyyətinə nəzər salarkən belə qənaətə gəlmək olar ki, o öz hakimiyyəti dövründə Azərbaycana qarşı həmişə ədalətli mövqe nümayiş etdirib. Təkcə bu faktı qeyd etmək yerinə düşər ki, ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı təkliflərini Xruşşov qətiyyətlə rədd edib. Anastas Mikoyanla yaxın dostluq münasibətlərinə baxmayaraq, Xruşşov bu məsələdə tarixi gerçəkliklərə üstünlük verərək ədalətsizliyə yol verməyib. Ancaq belə cavab təbii ki, Mikoyanı təmin etməyib.

Beləliklə, Xruşşovdan lazımi cavab ala bilməyən Mikoyan məsələni təkrar qaldırmaq üçün üç il də gözləyib. Düşünüb ki, bu xahişi Xruşşovun kefinin kök çağında bir daha qaldıra bilər. Nəhayət, 1964-cü ilin yanvar ayında Mikoyan Sovet İttifaqının rəhbərinə yenidən müraciət edib. Bu dəfə Nikita

Xruşşov Qarabağ məsələsi ilə bağlı Mikoyanın cavabını qətiyyətlə verib: “Mən bu gün hazıram ki, Dağlıq Qarabağda yaşayan ermeniləri Ermənistana bir sutka ərzində köçürmək üçün ora on iki min hərbi yük maşını göndərim”. Bununla da Xruşşov Dağlıq Qarabağın Ermənistanın tabeliyinə verilməsi məsələsinə münasibətini tam ortaya qoyub.

Həyasızlıqda tayı-bərabəri olmayan ermənilər bununla kifayətlənməyərək separatçı fəaliyyətlərini davam etdiriblər. İnanıblar ki, nə vaxtsa Sovet hökumətinə rəhbərlik edənlərdən birini ələ alacaq və öz niyyətlərini həyata keçirəcəklər. Bu məqsədlə onlar öz yollarına davam ediblər.

1965-ci ildə Ermənistanda uydurma "erməni genosidi"nin 50 illiyi böyük izdihamlarla qeyd ediləndən dərhal sonra millətlərarası münaqişələrə rəvac verildi. Qeyd edilməlidir ki, “erməni genosidi” Türkiyəyə düşmən nəzəri ilə baxan Sovet ideoloqları tərəfindən süni surətdə yaradılaraq ortaya atılmış bir məsələ idi. Əgər 1915-ci ildə ermənilərin soyqırımı olmuşdusa onda nə üçün səslərini çıxarmamışdılar? Deməli, əgər olsaydı erməni kimi çığırqan bir millət çoxdan onu bütün dünyaya yayardılar. Sovet ideoloqlarının məqsədi bununla Qarabağın Ermənistana verilməsi yolunda haylara "yaşıl işıq" yandırırdı.

Həmin il Sovet dövlətinin rəhbərliyinə Leonid Brejnev gəldi. Yeni Baş katibin gəlişi ilə hakimiy-

yətdə silsilə kadr dəyişiklikləri, yeni kadrların təyinatı oldu. General Yevgeni Sviqun Azərbaycan SSR DTK-nın sədri vəzifəsindən azad olunaraq SSRİ DTK-nın sədri Yuri Andropovun birinci müavini vəzifəsinə aparıldı. General-mayor Heydər Əliyev Azərbaycan SSR DTK-nın sədri təyin edildi.

Bu ərəfədə ermənilər Xan kəndidə (Stepanakertdə) çoxdan işləyib hazırladıqları millətlərarası münaqişə ssenarisini işə saldılar. Əslində bu münaqişənin başlanması 80-ci illərə hesablanmışdı. Ancaq ermənilər tələskənliyə yol verərək vaxtından əvvəl, 1967-ci ildə başladılar. Həmin ilin əvvəlindən başlayaraq bölgədə, əsasən də Xan kəndidə iğtişaş salmaq, aranı qarışdırmaq üçün əsaslı bəhanə əldə etmək üçün hərəkətə keçdilər. Millətçilərin birinci məqsədi Xan kəndini azərbaycanlılardan təmizləmək, erməni əhalisinin tam üstünlüyünə nail olmaq idi. Həmin ərəfədə Dağlıq Qarabağda silsilə ağır cinayətlər törədilir, lakin cinayətkarlar tapılmırdı. Bu işlərdə vilayətin ermənilərdən ibarət hüquq-mühafizə orqanlarının böyük "xidmətləri" vardı.

Azərbaycanlı əhali üstünlük təşkil etdiyinə görə həmin cinayətlərin guya yerli azərbaycanlılar tərəfindən törədildiyi barədə yalan məlumatlar yayılırdı. Erməni milisləri və prokurorluq işçiləri ermənilər tərəfindən törədilən cinayətlərin azərbaycanlıların üstünə atılmasında mühüm rol oynayırdılar. Bununla da məqsəd

Sovet hökumətinin diqqətini bura cəlb etmək və göstərmək ki, baxın, azərbaycanlılar bizə necə zülm edir, biz bunlarla birgə yaşaya bilmərik. Təbii ki, quraşdırılmış oyunların arxasında hansı niyyətlərin durması Azərbaycandan son dərəcə məxfi qaydada gizlədilmişdi.

1967-ci ildə Xocavənd (ermənilər Martuni adlandırmışdılar) rayonunun Kuropatkino kəndində bütün respublika üçün qəribə görünən bir hadisə baş verdi. Bu kənddə uzun illərdi ki, azərbaycanlılarla ermənilər birgə yaşayırdılar. Daha doğrusu, ermə- nilər bu kəndə sonradan köçürülüb gətirilmişdilər. Ona görə də erməni və azərbaycanlı uşaqları kənddəki opta məktəbdə birgə təhsil alırdılar və arada heç bir narazılıq yaranmırdı. Kəndin kolxoz sədri erməni idi və onun yeganə oğlu həmin məktəbin ikinci sinfində oxuyurdu.

Günlərin birində uşaq məktəbdən evə qayıtmadı. Valideynləri, qonum-qonşular nə qədər axtarsalar da onu tapa bilmədilər. Ertəsi gün oğlanın cəsədini yolun kənarından tapdılar. Hamını fikir götürmüşdü: Bu uşağın nə günahı ola bilər ki, onu öldürsünlər? Yaxud, valideynlərinin günahı varsa, qisasını uşaqdan niyə alırlar? Özü də belə qəddarlıqla. Çox "axtarışlardan" sonra erməni milisi cinayətkarı aşkar edə bilmədi. Əvəzində məktəbin direktoru Ərşad Məmmədov, müəllimlərdən Ələmşad Məmmədov və

Zöhrab Məmmədov şübhəli şəxs qismində tutulub həbsə atıldılar. Erməni milislər ölüm işini onların boyunlarına qoymaq üçün hər üçünə hər gün həbsxanada əzab və dözülməz işgəncələr verir, təhqir edirdilər.

Təhqiqat işinin uzanmasını istəməyən vilayət prokurorluğu isə "işi" qısa müddətdə başdansovdu təhqiq edərək Ali Məhkəməyə göndərdi. Ali Məh- kəmə isə işə yerində baxılması üçün Xan kəndiyə qaytardı. Məhkəmə prosesi Azərbaycan SSR Ali Məhkəməsinin üzvlərindən birinin sədarəti altında keçirildi. Məhkəmə prosesinin keçirildiyi vaxtı əvvəlcədən öyrənən ermənilər hər yerdən axışıb Xan kəndiyə toplaşdılar. Hətta İrəvandan, Ermənistanın rayonlarından belə ermənilər tökülüşüb Xan kəndiyə yığışdılar. Bunlar açıq göstərirdi ki, baş verənlər əvvəlcədən təşkil olunub və hansısa bir mərkəzdən idarə olunur. Beləliklə, Xan kəndidəki məhkəməyə təsir göstərmək, bununla da ölüm hadisəsində heç bir günahı olmayan azərbaycanlıların ən ağır cəzalara məhkum edilməsi üçün əhalinin məhkəmə binasının ətrafında ajiotaj yaratması planı həmin gizli mərkəzin planı idi.

Düşmənçilik hissləri ilə yüklənmiş kütlələr həm məhkəmə binasının yaxınlığında, həm də küçə və meydanlarda millətçi şüarlar səsləndirir, “Ərşada ölüm” deyə bağırırdılar. Bu səhnəyə baxanlar

vahiməyə düşürdülər. Qəzəb seli ətraflardan şəhərin mərkəzinə axırdı. Təbii ki, bu cür dəhşətli səhnə içəridə təhqiqat aparan məhkəmə prosesinə öz təsirini göstərirdi. İğtişaşçılar "Ərşada ölüm!" deyə vəhşicəsinə bağırırdılar. Hakimlər həqiqəti müəyyən etmədən, əsl müqəssiri aşkar etmədən prosesi başa çatdıraraq tez-tələsik qərar verməyə məcbur qaldılar. Alayarımçıq məhkəmənin ədalətsiz hökmünə görə Ərşad Məmmədov ən ağır cəzaya-güllələnməyə məhkum edildi. Hökm çıxaran hakimlər məhkəmə başa çatandan dərhal sonra öz xidməti maşınlarına oturub oradan getdilər. Hökmə əsasən, müəllim Ələmşah Məmmədov 15 illik həbsə göndərildi, yalnız Zöhrab Məmmədova bəraət verildi. Onları dustaq maşınına otuzdurub şəhərdəki həbsxanaya apardılar.

Lakin yolda avtomobildəki milislər fikirlərini dəyişib maşını Sovet ordusunun Xan kəndidə dislokasiya olunmuş və məlum 366-cı motoatıcı alayın yerləşdiyi əraziyə sürdülər. Orada alayın darvazası önündə maşını saxladılar, milislər maşından düşüb aralandılar. Bir anda buraya toplaşan ermənilər avtomat silahlardan və tapançalardan güllə yağdıraraq maşındakı dustaqları öldürdülər. Bununla ürəyi soyumayan vəhşi kütlə maşını aşıraraq içindəki ölmüş dustaqları dartıb oradan çıxardılar, onları bir daha güllə yağışına

tutub tanınmaz hala saldılar. Sonra Ərşad Məmmədovun meyidini yaxınlıqdakı həyətlərdən birinə sürüdülər. Orada böyük bir tonqal çatdılar. Cəsədi tonqalın üstünə atdılar. Həyətin sahibi Aleksan benzin gətirdi. Onu meyidin və tonqalın üstünə tökdü və kibrit çıxarıb tonqala od vurdu.

Ermənilər tərəfindən törədilən bu dəhşətli hadisə Azərbaycanda və eləcə də bütün SSRİ-də yayıldı. Ermənilərə də bu lazım idi ki, qoy Sovet hökumətinin rəhbərləri bilsinlər ki, azərbaycanlılarla birgə yaşamaq mümkün deyil. Özlüyündə isə bu qanlı qətl hadisəsi SSRİ-də nadir cinayət hadisələrindən biri idi. Təbii ki, SSRİ hökuməti bundan dərin narahatçılıq hissi keçirdi və Azərbaycan rəhbər- liyindən bu hadisənin törədilməsinin səbəbini və günahkarların tapılıb cəzalandırılmasını tələb etdi. Hadisə ilə bağlı olaraq hökumət üzvlərindən ibarət komissiya yaradıldı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəli Axundov, Azərbaycan SSR Ali Sovetinin sədri Məmməd İsgəndərov, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ənvər Əlixanov və digər hökumət üzvlərindən ibarət böyük bir heyət Şuşa şəhərinə gəldilər. Orada hökumət üzvlərindən ibarət xüsusi fövqəladə qərargah yaradıldı. Bundan da əlavə Moskvadan və Bakıdan gələn istintaq qrupları işə başladı. Azərbaycan hökumətinin üzvlərindən yalnız

bir nəfər– Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri general Heydər Əliyev Xan kəndi şəhərinə gəldi və DTK-nın vilayət idarəsində özünə qərargah yaradıb orada oturdu. Şübhəsiz ki, bu, çox təhlükəli idi, azərbaycanlı DTK sədrinin həyatına hər an qəsd oluna bilərdi. Ancaq qorxu hissi Heydər Əliyevə tamamilə yad bir hiss idi. Bunu ermənilər də görür və nə qədər aqressiv olsalar da çəkinirdilər. Əvvəlki "qəhrəmanlıqlarından" əsər-əlamət qalma- mışdı, yenə "yazıq" cildlərinə girmişdilər. Bu, onların ata-baba ənənələrindən biri idi. Özündən güclü görəndə "quzu" cildinə bürünər, zəif görəndə canavara dönərdilər.

## QORXMAZ GENERAL

*Mən öz üzərimə böyük məsuliyyət götürmüşəm. Mən bütün imkanlardan istifadə edib həqiqəti üzə cıxaracağıma əminəm.*

*Heydər Əliyev*

General Heydər Əliyevin üzərinə çox çətin və olduqca mürəkkəb bir iş düşmüşdü. Erməni müstən- tiqlərin və prokurorların qəsdən düyünə salınmış cinayət işinin açılması böyük dəyanət, ən başlıcası,

son dərəcə yüksək peşəkarlıq və səriştə tələb edirdi. Nə gözəl ki, ən mürəkkəb cinayətlərin açılması üçün lazım olan bütün komponentlərin hamısı təcrübəli çekistdə vardı. Onu aldatmaq, səhv istiqamətə yönəltmək, iradəsindən və düzgün yoldan çəkindirmək mümkün deyildi.

Xan kəndidəki həmin qanlı olayların canlı şahidlərindən biri olan, o ərəfədə Dağlıq Qarabağ Muxtar Vilayəti Dövlət Təhlükəsizliyi İdarəsinin sədr müavini vəzifəsində işləmiş Əfrail Hüseynov qan qoxusu gələn xatirələrində baş verənləri belə şərh edir ki, general Heydər Əliyevin çevikliyi, ağıllı mühakiməsi və cinayətin səbəblərini dərindən araşdırması və qiymətləndirməsi erməni millətçilərinin planlarını alt-üst etdi. İfşa olunduqlarını hiss edən separatçı daşnaklar qarşılarında duran maneənin əzəmətini və keçilməzliyini görüncə yavaşımağa, geri çəkilməyə başladılar.

Əfrail Hüseynov xatirələrində yazır ki, "Respub- lika DTK-nın Bakıdan gəlmiş xüsusi əməliyyat qrupunda yeganə azərbaycanlı, qrupun rəhbəri general Heydər Əliyev idi.

Qrupun işə başladığı günün ertəsi səhər saat 7 radələrində general-mayor Heydər Əliyev əməliyyat müşavirəsi keçirdi. Müşavirədə bütün ətraf rayonların DTK zabitləri iştirak edirdilər. Qrup rəhbərinin lakonik, məntiqli və təmkinli çıxışını

çətinliklə sezilən bir narahatlıq müşaiyət edirdi. Bu narahatlığı yalnız azərbaycanlı duya bilərdi.

Mən onu gözəl başa düşürdüm. 1967-ci il... Milli münaqişə zəminində qətl hadisəsi... DTK-nın sədri kimi ciddi və məsul bir vəzifə... Damarlarında axan türk qanı... Amma Heydər Əliyevin həmin günlərdə özünü necə təmkinli aparması, erməni və rus zabitləri ilə apardığı ciddi və dərin müzakirələr inanın ki, canlı bir həyat məktəbi idi. Əməliyyatçıla- ra müvafiq tapşırıqlar verən qrup rəhbəri bunların dərhal icra olunması üçün tədbirlər görülməsini əmr etdi. Növbəti əməliyyat müşavirəsinin vaxtı dəqiqləşdirildi və qrup üzvlərindən ayrılarkən Heydər Əliyev nəzərlərini bir anlıq mənim üzərimdə saxladı. Bu ani baxış mənə çox mətləbləri anlatdı. Anladım ki, son dərəcə ehtiyatlı, diqqətli olmalı, hər addımımı yüz ölçüb bir biçməliyəm. Qrup rəhbərinin tapşırığı ilə aparılan araşdırmalar ona arayış şəklində növbəti müşavirədə təqdim edilməli idi. Həmin gün kabinetimdə oturub qətl hadisəsinin təfsilatı, o cümlədən digər hallarla bağlı məndə olan əməliyyat məlumatlarının arayışını hazırlayırdım. İş yükünün ağırlığına və vaxtın məhdudluğuna görə general mənə ikinci müşavirədə iştirak etməməyə icazə verdi.

Müşavirə işə başlamışdı. Təxminən bir saatdan sonra iş otağımın qapısı açıldı, Heydər Əliyev içəri



daxil oldu. Cəld hərbi qaydada ayağa qalxdım. İşarə etdi ki, yerimdə əyləşim. Görünür, rəsmiyyət məqamı deyilmiş. General fikirli və çox qayğılı görünürdü. Vəziyyəti başa düşürdüm. Yırtıcı cana- varların, vəhşi qatillərin və onların havadarlarının arasında tək qalmışdıq. Mən onda Heydər Əliyevə DTK-nın sədri, hörmətli generalımız kimi yox, namuslu bir azərbaycanlı, əsl vətəndaş, günahsız insanların qanının yerdə qalması ilə barışmaq istəməyən bir insan kimi ümid bəsləyirdim..."

Həmin ağır günlərdə bütün azərbaycanlılar ədalətin bərpa olunması üçün ümidlərini Heydər

Əliyevə bağlamışdılar. Heydər Əliyev isə qorxmaz- lığı, bacarığı və vətənpərvərliyi ilə bu ümidləri doğrultdu. Məhz onun fəaliyyəti və qətiyyəti sayə- sində qısa müddət ərzində gurultulu Xan kəndi hadisələrinin baş vermə səbəbləri və əsl cinayətkarlar aşkar olunub ifşa edildilər. İstintaqla sübut olundu ki, erməni məktəblisini Edik Bağdasaryan adlı birisi qətlə yetirib. Ondan başqa cinayət hadisələrində və iğtişaşlar salınmasında təqsirkar olan təşkilatçılar tutulub istintaqa təhvil verildilər. 39 nəfər həbs olunanlar arasından 5 nəfər ən ağır cəzaya – güllə- lənməyə, qalanları isə müxtəlif müddətlərə azad- lıqdan məhrumetmə cəzasına məhkum edildilər. Bununla haqq-ədalət öz yerini tutdu.

Reaksiyanın özləri üçün ağır nəticələrə gətirib çıxardığını görən millətçi ermənilər öz fəaliyyət- lərini tamamilə gizli plana keçirdilər. Yalnız 1988-ci ildə SSRİ rəhbəri Mixail Qorbaçovun dəstəyinə arxalanan erməni ideoloqları çirkin fəaliyyətlərini dirçəltdilər.

**Tarix elmlər doktoru, professor Cəbi Bəhrəmovun araşdırmalarından əldə etdiyi belə bir faktı, arxiv sənədini biz də bu kitabda yerləşdirməkdə məqsə- dimiz həmin hadisələrin ümumi mənzərəsini daha geniş açıqlamaqdır.**

**Азәрбајҹан Коммунист Партијасы.**
**МӘРКӘЗИ КОМИТӘ**
**Коммунистическая Партия Азербайджана.**
**ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ**

**СОВ.СЕКРЕТНО**

F-1 оп-54, Д-51, коробка-9
ARPİİ SSARXİVİ

## ПРОТОКОЛ № 49

### Заседания Бюро Центрального Комитета Компартии Азербайджана

от 11 июля 1967 года

Председательствовал тов.Ахундов В.Ю.

Присутствовали:

Члены Бюро ЦК т.т. Алиханов Э.Н., Искендеров М.А., Кязимов Г.Х.

Кандидаты в члены Бюро ЦК т.т. Кадыров А.М., Мелкумян Г.А.

Заведующий Сектором Отдела организационно-партийной работы ЦК КПСС т.Старченко Ю.М.

Инструктор Отдела административных органов ЦК КПСС т.Клочков В.В.

Члены ЦК КП Азербайджана т.т.Ализаде М.А., Ибрагимов А.Г., Кирсанов Я.М., Мамедов Г.А., Оганджанян М.Г.

Кандидат в члены ЦК КП Азербайджана т.Алиев Г.А.

Заместители заведующих отделами ЦК КП Азербайджана т.т. Алиева Ф.Г., Глущенко И.В.

Члены Коллегии Прокуратуры СССР т. Кудрявцев П.И.

Член Верховного суда СССР т. Казнин Г.В.

Зам. нач. отдела УУР ГУМ МООП СССР т. Ерохин А.Ф.

Зам. нач. Службы КГБ СССР т. Нордман Э.Б.

Первый секретарь Степанакертского горкома КП Азербайджана

т .Галстян Г.А.

Прокурор НКАО т. Петрсян

Начальник УООП НКАО т.Погосян

Инспектор отдела оргпартработы ЦК КП Азербайджана т.Киндис Е.А.

I. О крупных беспорядках, имевших место в г.Степанакерте.

(Т.т.Мелкумян, Оганджанян, Галстян, Петросян, Погосян, Мамедов, Ализаде, Ибрагимов, Алиев, Алиханов, Искендеров, Кязимов, Кадыров, Старченко, Ахундов).

3-го июля 1967 года в г.Степанакерте, при рассмотрении Верхов¬ным судом республики дела об убийстве восьмилетнего мальчика, про¬изошли крупные беспорядки, закончившиеся самосудом над двумя осуж¬дёнными и одним оправданным. Все трое были убиты.

Предварительное расследование показало, что в самосуде участвовали родственники убитого, а также хулиганствующие элементы, из числа находившихся на процессе жителей города.

Бюро ЦК КП Азербайджана считает, что подобного рода бесчинства стали возможными, прежде всего в результате крайней безответственности, проявленной в деле охраны общественного порядка во время проведения судебных заседаний. Административные и партийные органы области, располагая данными о создавшейся в связи с проведением судебного процесса напряжённой обстановке, наметили соответствующие мероприятия по предупреждению нежелательных проявлений, но прак¬тически мало что сделали для их осуществления.

Больше того, когда начались беспорядки, значительная часть сотрудников милиции проявила растерянность, а некоторые из них показали себя трусами. Именно в результате бездействия милиции не были решительным образом пресечены самочинные действия группы лиц, завершившиеся самосудом, и ни один из его участников не был задержан на месте преступления.

Прокуратура и Министерство охраны общественного порядка республики не придали должного значения делу о вышеуказанном убийстве, не обеспечили контроля за ходом следствия, осуществлением оперативных мероприятий и за подготовкой к

процессу. Областной и Верховный суд республики судебный процесс организовали и провели плохо.

В результате неудовлетворительного проведения следствия и судебного процесса среди местного населения открыто высказывалось не-довольство деятельностью административных органов, проявлялись нездоровые настроения. Созданию вокруг процесса напряжённой обстановки способствовало и то, что за последнее время в городе отдельными лицами распространялись анонимные письма провока-ционного характера.

Бюро ЦК КП Азербайджана отмечает, что нездоровые проявления не получали должного отпора и осуждения со стороны Нагорно-Карабахского обкома, Степанакертского горкома и райкомов партии области.

Бюро обкома партии не проявляет партийной принципиальности и высокой требовательности при решении кадровых вопросов, либерально, примиренчески относится к отдельным коммунистам, в том числе и к руководящим работникам, высказывающим неправильные взгляды, наносящие вред делу интернационального воспитания трудящихся, мало уделяет внимания воспитанию комсомольцев и молодёжи.

Бюро ЦК КП Азербайджана считает, что персональную ответственность за события, имевшие место в г.Степанакерте, несут руководители

Областного управления милиции т.т.Погосян и Абрамян, прокурор области т.Петросян, секретари Нагорно-Карабахского обкома партии т.т.Мелкумян и Арутюнян, секретари Степанакертского горкома партии т.т.Галстян и Мовсесян, председатель Нагорно-Карабахского облисполкома т.Оганджанян и его заместитель т.Багдасарян.

Совершенно нетерпимым является и то, что прокурор республики т.Мамедов, председатель Верховного суда т.Ибрагимов, министр охраны общественного порядка республики т.Ализаде, зная, что при проведении следствия, и в особенности во время судебного процесса вокруг вышеназванного уголовного дела создаётся нездоровая обстановка, не придали этому должного политического значения и своевременно не информировали об этом ЦК КП Азербайджана.

Бюро ЦК КП Азербайджана постановляет:

I. За серьёзные недостатки в подборе и расстановке кадров проявление либерального отношения к отдельным коммунистам, в том числе и к руководящим работникам, высказывающим неправильные взгляды, наносящие вред делу интернационального воспитания трудящихся, а также слабый контроль за работой областного управления охраны общественного порядка, прокуратуры и суда, безответственно относящихся к расследованию и проведению судебного процесса к серьёзному уголовному делу, вследствие чего произошли крупные беспорядки и был

учинён самосуд, – секретарю Нагорно-Карабахского обкома партии т.Мелкумяну Г.А. и председателю облисполкома т.Оганджаняну М.Г. объявить выговор.

2. Министру охраны общественного порядка республики т.Али-заде М.А., прокурору республики т.Мамедову Г.А., председателю Верховного суда Азербайджанской ССР т.Ибрагимову А.Г. за плохую организацию оперативной работы и непринятие достаточных мер к обеспечению общественного порядка при проведении судебных заседаний, отсутствие контроля за ходом следствия и судебного процесса по вышеназванному уголовному делу, что и привело к возникновению крупных беспорядков в г.Степанакерте, – объявить выговор.

3. За безответственное отношение к делу и проявленную трусость при исполнении служебных обязанностей заместителя начальника областного управления охраны общественного порядка исполкома Областного Совета Нагорно-Карабахской области т.Абрамяна с работы снять.

Обязать т.т.Ализаде М.А. и Мамедова Г.А. рассмотреть вопрос об ответственности других подчинённых им работников, виновных в неисполнении своего служебного долга, и строго их наказать.

4. Прокуратуре, КГБ и МООП республики обеспечить точное расследование и привлечение к уголовной ответственности лиц, виновных в создании

беспорядков и свершений убийств г.Степанакерте 3 июля 1967 года.

5. Отметить, что бюро Нагорно-Карабахского обкома партии не сделало необходимых выводов из постановления ЦК КП Азербайджана от 6 сентября 1966 года и неоднократных указаний о проведении идейно-политической и воспитательной работы среди населения, проявило нерешительность и либерализм в борьбе с потомками отдельных антиобщественных элементов распространять провокационные слухи и измышления, наносящие ущерб интернациональному воспитанию трудящихся.

Обязать бюро обкома КП Азербайджана принять меры к устранению отмеченных недостатков, коренным образом улучшить работу партийных организаций области по идейно-политическому воспитанию трудящихся, правильному подбору и расстановке кадров, повысить ответственность всех коммунистов за соблюдение партий и государственной дисциплины, усилить контроль за работой административных органов.

Твёрдо и последовательно проводя в жизнь ленинскую национальную политику, постоянно воспитывая трудящихся в духе пролетарского интернационализма и дружбы народов СССР, обком, горком, райкомы КП Азербайджана, первичные партийные организации области обязаны смело и решительно давать отпор любым националистическим проявлениям, вести беспощадную борьбу, не взирая

на лица, с распространителями провокационных слухов.

6. Обязать отделы организационно-партийной работы и пропаганды и агитации ЦК КП Азербайджана совместно с обкомом партии разработать мероприятия по усилению организационно-партийной и массово-политической работы на предприятиях, в колхозах, учреждениях и учебных заведениях области, оказать необходимую помощь в их практическом осуществлении.

7. Поручить Отделу административных органов ЦК КП Азербайджана, Прокуратуре, Министерству охраны общественного порядка, Комитету госбезопасности, Верховному суду республики усилить контроль за деятельностью административных органов Нагорно-Карабахской автономной области.

8. Нагорно-Карабахскому обкому партии 1 октября 1967 г. доложить ЦК КП Азербайджана о проделанной работе по выполнению настоящего постановления.

9. Поручить отделу организационно-партийной работы ЦК Азербайджана организовать в четвёртом квартале с.г. комплексную проверку работы Нагорно-Карабахской обкома партии.

10. Настоящее постановление разослать Нахичеванскому обкома, горкомам и райкомам КП Азербайджана.

## AZƏRBAYCANIN YENİ RƏHBƏRİ

*Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır.*

*Heydər Əliyev*

Ermənilərin xəyanətkar hərəkətlərindən artıq xəbərdar olan Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təyin olunandan sonra DQMV-də müəyyən sosial məsələlərin həllini və bununla yanaşı kadr dəyişikliyini vacib hesab etdi. 1967-ci il hadisələri resbublika rəhbərinin yaddaşında möhkəm qalmışdı və bunun bir daha təkrar olunmayacağına əmin deyildi. Odur ki, zəruri qabaqlayıcı tədbirləri həyata keçirmək lazım gəlirdi. Araqarışdıranlara elə bir zərbə vurulmalı idi ki, bir daha özlərinə gələ bilməsinlər. Nəhayət, o zərbənin kimə, harada və necə vurulacağını da müəyyənləşdirdi.

O vaxtlarda Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyində və Nazirlər Sovetində məsul vəzifələr- də çalışmış Nadir Hüseynbəyov hadisələri belə xatırlayır: "Heydər Əliyev heç bir ay yox idi ki, Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində işləyirdi. Xəbər gətirdilər ki, Heydər Əliyev məni qəbula dəvət edib. Bu, mənim üçün gözlənilməz idi.

Söhbətimizin əsasını Azərbaycanla Ermənistan arasında olan sərhəd, guya, "mübahisəli torpaq məsələləri" təşkil edirdi. Görüşümüz iki saata yaxın davam etdi. Mən özümlə 1903-cü ildə nəşr edilmiş xəritəni də gətirmişdim. Möhtərəm Heydər Əliyev həmin xəritəyə diqqətlə baxdı, onu 1969-cu ildəki mövcud xəritə ilə müqayisə etdi. Heyrət onu bürüdü: “Aman Allah, heç olmazsa, bu millətə sənin rəhmin gəlsin. Gör, nə qədər torpağını əlindən alıblar”, – dedi. Görüşümüzdən iki gün keçmişdi. Azərbaycan KP MK-dan mənə dedilər ki, Heydər Əliyev qatarla Ağstafaya gedir. Mənim də onunla birlikdə Ağstafaya getməyimi tapşırıb və bildirib ki, özüm ilə bir sıra sənədləri, o cümlədən, 1903-cü ilin torpaq xəritəsini də götürüm...

Qazax rayon Partiya Komitəsinin birinci katibi Barat Qaravəliyev bizi qarşıladı. Qazaxa, oradan da Azərbaycanla Ermənistanın sərhədinə getdik. Sərhəddə Ermənistan KP MK-nın birinci katibi Anton Koçinyanın rəhbərlik etdiyi nümayəndə heyəti bizi gözləyirdi. Heydər Əliyev məndə olan bütün sənədləri və 1903-cü il xəritəsini aldı, mənə dedi ki, Qazax rayon Partiya Komitəsində məni gözləyin. Möhtərəm Heydər Əliyev onu qarşılayanlarla Dilicana yola düşdü. Təxminən üç saatdan sonra Heydər Əliyev Qazax Rayon Partiya Komitəsinə gəldi. Hamımızla görüşdü. Məndən



***Az.KPMK-nin 1-ci katibi H.Əliyev***

aldığı sənədləri qaytardı və dedi ki, 1903-cü ilin xəritəsini Ermənistan KP MK-nın birinci katibi Koçinyana bağışladım və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 may 1969-cu il tarixli qeyri-qanuni qərarını müzakirə etdik. Koçinyanla ümumi razılığa gəldik ki, heç bir sərhəd və mübahisəli məsələyə bundan sonra baxılmayacaq".

Maraqlıdır ki, 1969-cu ilin avqustunda keçirilmiş bu görüş və onun nəticələri Ermənistanda necə qarşılanmışdı? Həmin dövrdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədr müavini vəzifəsində çalışan Həbib Həsənov məsələni belə şərh edib: "Ermənistanda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə görüşə müstəsna əhəmiyyət

verilirdi. Əslində, bu görüş ermənilər tərəfindən bir növ kəşfiyyat xarakteri daşıyırdı. Heydər Əliyev Ermənistan rəsmiləri üçün sirli şəxsiyyət idi. Koçinyan görüşdən İrəvana qayıdan kimi, Ermənistan KP Mərkəzi Komitəsinin bürosu toplandı. Koçinyan qayğılı və dalğın görünürdü. Mən həmin büroda iştirak edən yeganə azərbaycanlı idim. O, Heydər Əliyevlə görüşü barədə çox qısa məlumat verdi. Yerdən bir neçə nəfər Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 may 1969-cu il tarixli qərarının icrasına nə vaxt başlanacağı barədə suallar verərkən Koçinyan bildirdi ki, Ermənistanı və erməniləri sevən hər birinizdən xahiş edirəm ki, nə qədər Heydər Əliyev adlı adam var, heç bir sərhəd məsələsi və mübahisəli torpaq, ərazi iddiası qaldırmayın. Bunu birdəfəlik yaddan çıxarın. Elə bil ermənilərin üstünə qaynar su töküldü. Hamı sual dolu baxışla bir-birinə baxdı. Koçinyan dilxor, bir qədər də əsəbi halda iclası yekunlaşdırdı".

# HEYDƏR ƏLİYEVİN İDARƏÇ İLİK MƏKTƏBİ

*Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə, ən böyük məmləkət qədər güclü olar.*

*Heydər Əliyev*

Bundan sonra arxayınlaşmayan Heydər Əliyev digər lazımi addımların atılmasını təxirə salmadı. İlk növbədə erməni millətindən olan, lakin sınanmış kommunistlər vilayətdə rəhbər vəzifələrə gətirilməli idilər ki, sonrakı addımları atmaq asan olsun. Ona görə də 1973-cü ilin payızında DQMV Partiya Komitəsinin birinci katibi vəzifəsinə Bakının Kirov Rayon Partiya Komitəsinin birinci katibi Boris Kevorkovun təyin olunmasını qərara aldı. Bu məqsədlə 1973-cü il oktyabrın 12-də Xan kəndidə VPK-nin plenumu çağırıldı. Plenumun qərarına əsasən Qurgen Melkumyan işində yol verdiyi nöqsanlara görə DQMV Partiya Komitəsinin birinci katibi və büro üzvlüyündən azad edildi. Onun yerinə Boris Kevorkov seçildi.

Düşünmək olardı ki, bundan sonra bölgədə ekstremist ünsürlərin əl-ayağı yığışdırılacaq, xoşagəlməz hallara bir daha yol verilməyəcək, həyat

öz axarına düşəcəkdir. Vilayətin yeni rəhbərliyinin ilk vaxtlar göstərdiyi canfəşanlıqdan sonra bu fikir inandırıcı göründü. Boris Kevorkov bu vəzifədə hamıdan çox, düz on beş il işlədi. Lakin o da qanı millətçiliklə zəhərlənmiş erməni mafiyasının cəngindən çıxa bilmədi. Əsasən İrəvandan vaxtaşırı gizli tapşırıqlarla Xan kəndinə göndərilən millətçi- lərin qarşısını ya ala bilmədi, ya da almaq istəmədi. Fakt o idi ki, emissarlar vilayətin erməni əhalisi arasında azərbaycanlılara qarşı ədavət toxumu səpir, Azərbaycan ərazilərinin "böyük Ermənistan"ın ərazisi olması kimi sərsəm təbliğat aparırdılar. Onlar bu təbliğatla əvvəlcə azərbaycanlılara nifrəti formalaşdırmağı, sonra əlverişli şərait yaranan kimi hücuma keçməyi, qonşuların ərazilərini işğal edərək Ermənistanın coğrafiyasını genişləndirməyi planlaşdırırdılar.

Ancaq düşüncəsiz liderciklər anlamırdılar ki, bu, başqalarına faciələr gətirməklə bərabər, öz xalqını fəlakətə sürükləmək deməkdir. Covet hökumətinin təmənnasız dəstəklərinə o qədər aludə olmuşdular ki, bir gün tarixin təkərinin dönəcəyinə, arxalandıq- ları imperiyanın dağılmasını ağıllarına belə gətirə bilmirdilər. Ancaq ermənilər anlamırdılar ki, onların separatizmi və qonşu respublikalara, o cümlədən Azərbaycana ərazi iddiaları söykəndikləri Sovet imperiyasının sonunu gətirir. "Böyük Ermənistan"

iştahası onları o dərəcədə cəlb etmişdi ki, başqa heç nəyi görmək və eşitmək istəmirdilər. Düşünürdülər ki, belə fürsət bir də nə vaxt ələ düşəcək onu kimsə bilməz. Ancaq fakt o idi ki, Sovet imperiyasının prezidenti hazırda ermənilərin xidmətindədir. Raisa Qorbaçovaya ötürülən bahalı brilyantlar və qaş-daş onun ərini də ovsunlamışdı. Mixail ermənilərin hər addımını özü planlaşdırır və ermənilərə necə hərəkət etməyi öyrədirdi. Bir sözlə, Qorbaçov özünü imperator kimi yox, quldur dəstəsinin xidmətçisi kimi aparırdı. Ona görə də yüz il fürsət gözləmiş ermənilər tarixin bu fürsətini qətiyyən qaçırmaq fikrində deyildilər.

Sübhəsiz ki, Boris Kevorkovun da ermənilərin Azərbaycan ərazilərini qoparmaq fikirlərindən və bu istiqamətdə durmadan çalışmalarından xəbəri vardı. Ancaq onun bu məsələyə razılığı olsa da bir çox səbəblərdən necə deyərlər, özünü gizlədirdi. Təbii ki, partiyada yüksək mənsəb tutan erməni belə hərəkət etməli idi. O da bir çox vəzifəli ermənilər kimi guya özünü heç nədən xəbərsiz kimi aparır, özünə gələcək günahsızlıq mövqeyi qazanırdı. Qısaca desək, hiyləgər erməni gedişi.

Azərbaycanın dövlət təhlükəsizliyi orqanlarında uzun illər müxtəlif vəzifələrdə işləmiş İlhüseyn Hüseynov o illəri belə xarakterizə edirdi: "1970-ci illər artıq onunla səciyyəvi idi ki, erməni millətçiləri

"Qarabağ ərazisinin tarixən Ermənistana məxsus olması" məsələsini açıq şəkildə qabardırdılar. Bu fəaliyyətdə əsas rol İrəvanın millətçi dairələri tərəfindən istiqamətləndirilən vilayət ziyalıları və gənclərinin bir hissəsinə məxsus idi". Erməni əhali arasında aparılan təbliğat nə qədər məxfi saxlansa da Azərbaycan DTK-sı bundan xəbər tutur və ekstremist əhval-ruhiyyəli şəxsləri aşkar edə bilirdi.

1972-1974-cü illərdə vilayətin ərazisində zərərli millətçilik təbliğatı aparan 35 nəfər erməni saxlanılaraq onlarla profilaktik iş aparılmış və onların bir qisminə ciddi xəbərdarlıq edilmişdi. Ancaq artıq qanları şovinizmlə zəhərlənmiş erməniləri dayandırmaq mümkün deyildi və onlar öz işlərini israrla davam etdirirdilər. Həmişə zamanın nəbzini tutmağa çalışan millətçiləri mühüm siyasi dəyişikliklər dövründə SSRİ və ya Ermənistanın tarixindəki əlamətdar günlər ərəfəsində Azərbaycanla sərhədlərin yenidən nəzərdən keçirilməsi, bəzi ərazilərin Azərbaycandan alınıb Ermənistana verilməsi məsələsini qaldırırdılar.

Belə tarixi hadisələrdən biri 1972-ci ildə böyük təntənə ilə keçiriləcək SSRİ-nin yaranmasının 50 illiyi qeyd ediləcək bayram tədbirləri idi. Erməni ideoloqları, Moskvada yüksək vəzifələr tutmuş erməni əsillilər və fanat ermənilər həm bu bayrama, həm də 1973-cü ildə DQMV-nin 50-ci ildönümünə ciddi hazırlıq gördülər

və hər ikisində də SSRİ rəhbərliyinə müraciət etdilər. Bu barədə Sovet İttifaqı KP Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsinin müdiri olan K. Brutens öz memuarlarında yazırdı ki, "1972-ci ildə Mixail Suslovun məzuniyyətdə olduğu və katibliyin işinin A.Kirilenko tərəfindən aparıldığı bir vaxtda məqamdan isifadə edən Ermənistan rəhbərliyi Qarabağın Ermənistanla birləşdirilməsi təşəbbüsünü rəsmən irəli sürdü. Katibliyin qərarı ilə Azərbaycan və Ermənistan rəhbərlərinə qoyulmuş məsələni birgə araşdırmaq və onun həllini təklif etmək tapşırıldı. Hər iki tərəfdən "dördlük" (MK-ların birinci və ikinci katibləri, Nazirlər Sovetlərinin və Ali Sovetlərin Rəyasət Heyətlərinin sədrlərindən ibarət) qrupunun rəhbərləri bir həftəsonu iki günlük (respublikalardan hər birinin ərazisində bir gün olmaqla) görüş keçirdilər, lakin heç bir razılığa gəlmədilər. Gözlənildiyi kimi, Azərbaycan nümayəndə heyəti İrəvanın təklifini qətiyyətlə rədd etdi. Nəhayət, tərəflər erməni tərəfinin təzyiqi ilə yenidən, lakin bu dəfə katibliyin qərarını heç olmasa, nəzərə alaraq birlikdə hər hansı kağız parçasının hazırlanması üçün daha dar tərkibdə görüşməyə dair razılığa gəldilər. Lakin planlaşdırılan görüş baş tutmadı. Azərbaycan rəhbərləri Mineralnı Vodıda istirahət etməkdə olan Suslovun yanına getdilər, o isə Moskvaya qayıdan

kimi Brejnevin Yerevana "öz müraciətini geri götürmək" göstərişi verməsinə nail oldu. Erməni tərəfi bu göstərişə əməl etdi."

Lakin ermənilər bununla barışmadılar və 1972-ci ildə İrəvandan Sov. İKP MK-nın Baş katibi Leonid Brejnevə erməni ziyalıları adından yeni məktub göndərdilər. Başdan-ayağa cəfəngiyyatla dolu olan həmin məktubda yazılmışdı ki, "Ermənistan SSR və Dağlıq Qarabağın ayrı-ayrılıqda mövcudluğu mümkün deyil." Tarixi saxtalaşdırmaqda mahir olan ermənilər məsələ ilə əlaqədar geniş arayış verərək bütün günahları "Bakı Sovetinin 1 dekabr 1920-ci il tarixli ədalətli qərarlarını" və "Azərbaycan SSR və Ermənistan SSR hökumətlərinin Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında 1921-ci il tarixli iyun sazişini" guya ləğv etmiş Zinovyev, Bağırov və Beriyanın üzərinə qoyurdular. Bu böhtanla ermənilər məkrli gediş etməyi planlaşdırmışdılar. Çünki burada incə bir məqam vardı və onlar da məhz bundan istifadə etməyi qərarlaşdırmışdılar. Təbii ki, bu cür şəxsiyyətlərin təqsirkar seçilməsi rəmzi məna daşıyacaqdı.

Belə ki, antipartiyaçı Qriqori Zinovyev Stalin repressiyalarının qurbanları arasında olsa da, 1956- cı ildə keçirilən Sov.İKP-nin XX qurultayından sonra bəraət almamışdı. Mircəfər Bağırov və Lavrenti Beriya isə əksinə, Stalin repressiyalarının

başlıca təşkilatçıları hesab olunurdular. Bu minvalla "bolşeviklərin milli siyasətdə buraxdıqları bütün səhvləri" adları xalqın düşmənləri siyahısında olan siyasi xadimlərin üzərinə atmaq qaragüruhçu ermənilərin işinə yarayırdı. Onlar bu cür əsassız kompromatlarla öz yollarında olan hər kəsi məhv etməyə və ya sadəcə olaraq sıradan çıxarıb neytrallaşdırmağa çalışırdılar. Erməni inadkarlığı özünü burada da açıq büruzə verirdi. Onlar başqalarını günahlandırmaqla dolayısı ilə öz iddialarına və hərəkətlərinə haqq qazandırmaq üçün əllərindən gələn hər şeyi edirdilər. Bu minvalla guya "bolşeviklərin milli məsələdə buraxdıqları bütün səhvləri" adları xalq düşmənləri sırasında olan siyasi xadimlərin və dövlətdə yüksək vəzifə tutanların üzərinə atmaq ermənilər üçün səmərəli olacaqdı. Bəli, ermənilər öz məqsədlərinə çatmaq üçün şeytanla da dost olmaqdan çəkinmirdilər.

Təəccüblüsü isə o idi ki, ermənilər yarasa kimi gün işığına çıxmır, bütün bu işləri əlaltdan kimlərinsə vasitəsi ilə həyata keçirməyə çalışırdılar. Yəni, öz adları heç bir yerdə görünmür, yazış- malarda iştirak etmir, iclaslarda iştirakçılar arasında olmurdular. Bu, ümumiyyətlə, ermənilərin ata- babalarından qalma xarakterik hiyləgərlikdir ki, bunun da arxasında həmişə xəyanət dururdu. Məsələn, Rusiya çarları dünyanın müxtəlif

guşələrində sərgərdan həyat sürən ermənilərə dövlət qurmaq üçün Azərbaycana hərbi yürüşlər etmiş, dəfələrlə müharibə etdikdən sonra İrəvan qalasını ələ keçirmiş və oraya erməniləri daşıyaraq onlar üçün dövlət qurmuşdur. Bunun üçün Rusiya İranla böyük müharibələr etmiş, böyük itkilər vermişdir. Onlar Sovet hakimiyyəti tərəfindən də əzizlənir və daim müdafiə olunurdular. Lakin II Dünya müharibəsinin şiddətli məqamında erməni generalları və polkovnikləri Himlerlə gizli danışıqlar apararaq III Reyxin hərbi nazirliyində yüksək vəzifələrə təyin olunmalarını istədilər. Əvəzində Rusiyaya qarşı erməni ordusu yaradaraq döyüşə-cəklərini vəd verdilər. Onlar həmçinin, alman qoşunları Qafqaza yaxınlaşan kimi Ermənistanda Sovet hakimiyyəti əleyhinə üsyan təşkil edəcəklərini bildirdilər. Himler onların təkliflərini kanslar Adolf Hitlerə çatdırdı.

Lakin Hitler Himmlerə bildirdi ki, ermənilərə inanmaq olmaz, onlar öz ağalarına üç dəfə xəyanət ediblər. Şübhə yoxdur ki, dördüncü dəfə də xəyanət edəcəklər. Beləliklə, general Njdü və general Dronun hiylələri keçmədi. 1945-ci ildə Sovet döyüşçüləri tərəfindən Berlində əsir alınan general Njde istintaqda bu xəyanəti boynuna almadı. Özünü elə apardı ki, guya bundan heç xəbəri belə yoxdur.




*Yuxarı Qarabağın təbiəti*



Tarixdə ermənilərin belə xəyanətləri saysız-hesabsızdır. Onlar indi də bu üsuldan istifadə edirdilər. Ancaq bizim atalar sözümüz var: "Düz əyrini kəsər." Mərkəzi Komitə müdafiə nazirliyi və digər nazirlikləri ermənilərlə dolu olan Sovet hökuməti ermənilərə planlar tökür və yerinə yetirilməsində isə hər cür kömək göstərirdi. 1970-ci illərdə də belə idi. Hökumətə qarşı ərköyünlük edən

ermənilər Qarabağ məsələsində israr edib iddialarını davam etdirməkdən əl çəkmirdilər.

Erməni ideoloqları belə hesab edirdilər ki, "respublika sərhədlərinin cüzi dəyişdirilməsi", yəni Yuxarı Qarabağın Ermənistana verilməsi dostluq və qardaşlıq əlaqələrinə mane olmayacaq, çünki "Sovet hakimiyyətinin 50 ili ərzində xalqlarımız beynəlmiləlçilik ruhunda tərbiyə olunmuşdur." Bu, əslində həm Azərbaycana, həm də Moskvaya atılan badalaq idi. Onlar sərsəm fikirlərini əsaslandırmaq üçün qəbulolunmaz bir "faktı" misal gətirirdilər. SSRİ Ali Soveti Rəyasət Heyətinin Özbəkistan SSR ilə Qırğızıstan SSR, Özbəkistan SSR və Tacikistan SSR arasında sərhədlərin qismən dəyişdirilməsi haqqında yanvar və fevral 1972-ci il fərmanları əsas kimi göstərilirdi. Məktubun sonunda SSRİ-nin yaranmasının 50 illiyi ərəfəsində Qarabağın Ermənistana birləşdirilməsi məsələsinin həll edilməsi xahiş olunurdu.

Bu ərəfədə Kremlin poçtu DQMV "ictimaiy- yətinin" bu məsələnin həllini xahiş edən müraciətləri ilə dolmuşdu. Müraciətlərin hamısı Sovet dövlətinin rəhbəri Leonid Brejnevə ünvanlanmışdı. Öyrədilmiş ermənilər diplomatik ustalıqla yazırdılar ki, ermənilər əsrlər boyu rus xalqı ilə dost və qardaş münasibətləri saxlayır, sonra türklərə və müsəlman- lara inanmadıqlarını da vurğulayandan sonra "sarı

simə" vurur, "Qarabağ məsələsi"ni yada salırdılar. Müraciət müəllifləri ənənəyə sadiq qalaraq yenə də vilayətdə vəziyyətin dözülməzliyindən, Azərbaycanın ermənilərə mənfi yanaşmalarından, vilayətin sosial-iqtisadi durumunun ağırlığından və s. gileylənirdilər.

Ancaq bunların heç bir əsası yox idi, sadəcə şantaj xarakteri daşıyırdı. Böhtançılar timsahvari göz yaşları axıdaraq yazırdılar ki, "Moskvanın inamın- dan və qarışmama mövqeyindən istifadə edən respublika rəhbərliyi hər vəchlə Qarabağın nəinki ərazisini, həm də hüquqi imkanlarını azaltmağa çalışır. Qarabağda qalmış qeyri-münbit torpaqlar yavaş- yavaş, lakin planlı şəkildə parçalanaraq Azərbaycanın qonşu rayonlarının geniş düzənliklərinə qatılır. Hətta böyük və kiçik çaylar da Qarabağın torpaqlarını suvarmaq üçün istifadə oluna bilməz. Vilayətin su ehtiyatlarının yalnız kiçik bir hissəsi onun torpaqlarını sulaya bilər."

"Sadə zəhmətkeşlər" hətta vilayətin erməni rəhbərlərini də bu məsələlərə göz yummaqda günahlandırırdılar. Bu "rütbəsiz diplomatlar" vilayətin həyatdan geri qalması, Azərbaycanın onun iqtisadiyyatının inkişafına az pul ayırması, erməni əhalinin hüquqlarının kobud surətdə pozulması, azərbaycanlıların süni surətdə say üstünlüyünün yaradılması və digər həqiqətdən uzaq məsələləri xüsusilə qabarıq şəkildə əks etdirirdilər. Bu faktlar

fasiləsiz qaydada SSRİ-nin rəhbərliyinə göndərilirdi. Təbii ki, bunların hamısının arxasında ermənilərin məkrli niyyətləri dayanırdı.

Ermənilərin bütün bu oyunlarına Azərbaycan rəhbəri təmkinlə və əsaslandırılmış şəkildə cavab verir, iddiaçıları məyus edirdi. Heydər Əliyev rusiyalı jurnalist Andrey Karaulova verdiyi müsahibəsində deyirdi: "Təəssüf ki, bu vilayətdə vəziyyət gərginləşdikdən sonra belə bir fikir yaranmışdı ki, münaqişənin səbəbi Dağlıq Qarabağın sosial-iqtisadi cəhətdən geriləməsi və respublikanın keçmiş rəhbərliyi tərəfindən DQMV-nin problemlərinə, onun əhalisinə guya düzgün münasibət göstərilməməsi idi."

DQMV sosial-iqtisadi göstəricilərinə görə Azərbaycan və Ermənistanın respublika üzrə orta göstəricilərindən üstün idi. Vilayətin iqtisadiyyatı məhz 70-80-ci illərdə daha yaxşı inkişaf edib. Onun mərkəzinə qədər dəmir yolu, Strpanakertdə (Xan kəndidə) gözəl vağzal, yeni hava limanı tikilmişdir. Biz Stepanakert, Bakı və İrəvan arasında müntəzəm uçuşlar təşkil etmişik. Mən Dəmirçiyana zəng etdim və biz razılığa gəldik ki, reysləri Azərbaycanın "Aeroflot" və Ermənistanın "Aeroflot" şirkətləri həyata keçirəcəklər. Gördüyünüz kimi, biz bütün bu məsələləri xırdalığına kimi düşünürdük. İri müəssisələr yaradılıb: ayaqqabı fabriki, elektrotexnika zavodu, elektron sənaye kondensatorları, kənd təsərrüfatı maşın-



***A.Karaulovla H.Əliyevin müsahibəsi***

qayırma zavodları və s. Kənd təsərrüfatı sahəsində də əhəmiyyətli tədbirlər görülüb. Elektrik stansiyası və suvarma kanalları olan iki böyük su anbarı tikilmişdir ki, bu da iki rayonun su təchizatını xeyli yaxşılaşdırdı. 70-ci illərin əvvəllərində 50-60 min ton təşkil edən üzüm istehsalı 1980-ci illərdə 120-130 min tona qədər yüksəldi. Heyvandarlıq məhsulları istehsalı təxminən iki dəfə artdı. 170 min nəfərlik əhalisi olan kiçik bir vilayət üçün bu, az deyil. Sosial-mədəni sahələrdə də çox işlər görülmüşdür.

Stepanakertdə (Xan kəndidə) pedaqoji institut yaratmışıq. Bu cür kiçik bir vilayətdə bu instituta bəlkə də ehtiyac yoxdur, amma biz yaradıcı

ziyalıların arzusunu yerinə yetirmişik. Tədris erməni dilində aparılırdı. Bayaq da dediyim kimi, yaşayış evləri, məktəblər, poliklinikalar tikilmiş, dramatik teatr yenidən qurulmuş və yeni avadanlıqlarla təchiz edilmişdi. Böyük siyasi maarif evi tikmişik, tikinti zamanı mən şəxsən orada olmuşam. Yeni abidələr ucaldılıb... Bir çox incəsənət xadimlərinə Azərbaycanın Xalq və Əməkdar artistləri adı verilib. Hər il DQMV-dən olan gənclərin Azərbaycanın ali məktəblərinə müsabiqədənkənar qəbulu aparılırdı.

Şuşa şəhərində böyük kilsə fəaliyyət göstərirdi. Kilsə 1918-ci ildə dağıdılmışdı. Biz Ermənistandan ustalar dəvət edərək onu tamamilə bərpa etdik. DQMV-nin Ermənistanla mədəni əlaqələri xeyli fəallaşıb və biz buna töhfə vermişik. Muxtar vilayətə tez-tez Ermənistan nazirliklərinin və qurumlarının rəhbərləri, teatr və konsert qrupları, mədəniyyət xadimləri, alimlər gəlirdilər. Hər hansı bir məhdu- diyyət iddiası əsassızdır".

Müsahibədən də göründüyü kimi Azərbaycan rəhbərliyi düzgün xətt yeridərək ermənilərin əllərinə bəhanə vermirdi. Ona görə də narazılıq yarada biləcək amillərin qarşısı vaxtında alınırdı. Heydər Əliyevin Dağlıq Qarabağa hər səfəri muxtar vilayətin ictimai həyatında əlamətdar bir hadisəyə çevrilirdi. Həmin səfərlər vilayətdə yeni sənaye və sosial obyektlərin, avtomobil və ya dəmir yollarının

istifadəyə verilməsi ilə müşayiət olunurdu. Təbii ki, həyata keçirilən belə tədbirlər ermənilər üçün yaxşı yaşamaq və işləmək üçün lazımi şərait yaradırdı. Ancaq onlara nə qədər rahat həyat şəraiti yaradılsa da, ermənilərin narazılığının sahili görünmürdü. Sanki bu narazılıqla "etməlidirlər, bizim ata- babamıza borcları var" deyirdilər.

1973-cü ilin oktyabr ayında Heydər Əliyev Sov. İKP mərkəzi Komitəsinin, SSRİ Nazirlər Sovetinin, Ümumittifaq Mərkəzi Həmkarlar İttifaqları Şurası və Ümumittifaq Lenin Kommunist Gənclər İttifaq Mərkəzi Komitəsinin Keçici Qırmızı Bayrağının DQMV-yə təqdim edilməsi münasibətilə Stepanakertə (Xan kəndiyə) gəldi. Bundan bir ay sonra Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev DQMV Partiya Komitəsinin və Vilayət Xalq Deputatları Sovetinin muxtar vilayətin 50 illik yubileyi münasibətilə keçirilən təntənəli iclasda çıxış etdi. Həmin yubiley münasibətilə DQMV Lenin və Xalqlar Dostluğu ordeni ilə təltif olundu. Heydər Əliyevin bu cür fəaliyyətindən ermənilər kimi, yerli qaragüruhcular da narazılıq edir, onu ermənilərə xüsusi qayğı göstərməkdə ittiham edirdilər. Bu, sonradan açıq şəkildə bildirildi.

Milli Məclisin 23 fevral 2001-ci il tarixli iclasında çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev həmin ədalətsiz ittihamlara belə cavab verdi: "Bunu açıq etiraf etmək lazımdır ki, mən respublikaya

rəhbərlik edəndə biz Dağlıq Qarabağda daha əlverişli iqtisadi şərait yaradırdıq, onun iqtisadiy- yatının inkişafına üstünlük verirdik. Çünki tez-tez guya Azərbaycanda Dağlıq Qarabağın sıxışdırıl- dığına və oradakı ermənilərin inkişaf edə bilməmə- lərinə dair məsələ qaldırılırdı. Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün biz o vaxt, yenə də deyirəm, Dağlıq Qarabağa çox diqqət yetirirdik. Mən bu gün də etiraf edirəm ki, bunu Dağlıq Qarabağa, ermənilərə bu məsələni qaldırmağa imkan verməmək üçün edirdim."

Millətçi ermənilər 1975-ci ildə də "yuxarıya" şikayətlər yazmaqda davam edirdilər. Martın 21-də DQMV Partiya Komitəsinin plenumu keçirildi. Plenumun işi sonradan Ermənistan və SSRİ rəh- bərlərinə göndərilən məktublarla kəskin tənqid edilirdi. Məktubların müəllifləri vilayət rəhbərliyinin istefasını tələb edirdilər. Çünki həmin rəhbərlik şovinistlərin əl-ayaq açmasına imkan vermirdi. VPK-nin birinci katibi Boris Kevorkovun plenum- dakı çıxışı araqarışdıranların hiddətinə səbəb olmuşdu. Kevorkov həmin çıxışında millətçi şovinistlərin hərəkətlərini kəskin tənqid etmış, ən pisi isə onların adlarını çəkməsi oldu. Buna görə şovinistlər Kevorkovdan qisas almaq üçün Moskva- ya şikayət ərizələri yazmağa başladılar.

Həmin plenumda məruzəçi Boris Kevorkov çıxışının birinci hissəsində cari məsələlərdən sonra əsas hissəyə keçdi. O, əqidəsi düz olmayan bəzi şəxslərin erməni gənclərini və yeniyetmələrini "Sovet xalqlarının" dostluğuna ləkə salan hərəkətlərə təhrik etmə cəhdlərini pislədi. Belə adamların əməllərinin xaricdəki daşnak mərkəz- lərinin ideoloji-siyasi göstərişləri, imperializmin ideoloji xidmətlərinin məqsədləri ilə uyğun gəldiyini təəssüflə vurğuladı. Birinci katib "millətçi qalıqların istənilən, hətta ən kiçik təzahürlərinə belə prinsipial cavab verməyə", "milli məhdudluğun, səciyyəvi olmayan milli müstəsnalığın, təkəbbürün təzahür- lərinə qarşı dözümsüzlük" şəraiti yaratmağa çağırmışdı. Bundan başqa millətçi mövhumatçıları da pisləyən Kevorkov onları "Baqrat Ulubabyan (DQMV Yazıçılar İttisaqının sədri)" və onunla həmrəy olan bəzi geridə qalmış, əqidə, ideya etibarı ilə formalaşmamış adamların Dağlıq Qarabağ məsələsini milli eqoizm və milli məhdudluğun pis tərəfindən təfsir etmək cəhdləri" kimi qiymətlən- dirmişdir. 1965-1967-ci illərdə ermənilərin Qara- bağa dair iddialarını isə "ideya etibarilə formalaş- mamış ayrı-ayrı şəxslərin Dağlıq Qarabağın yerinin harada olacağı məsələsini gündəmə gətirmək cəhdləri" kimi izah etdi.



***Heydər Əliyev və Boris Kevorkovun Şuşada görüşü***

Bununla kifayətlənməyən Kevorkov Qarabağın Sovet hakimiyyətindən əvvəlki tarixinə nəzər salaraq bildirdi ki, "daşnaklar Dağlıq Qarabağın daşnak Ermənistanına birləşdirilməsinə cidd-cəhdlə çalışır, bu istiqamətdə qızğın fəaliyyət göstərirdilər." O, öz fikrini əsaslandırmaq üçün faktlara müraciət etdi. Bildirdi ki, Anastas Mikoyan 1919-cu il may ayının 22-də Sovet hökumətinin başçısı Vladimir Leninə bu barədə müraciət edib. Kevorkov eyni zamanda Qarabağın o vaxtı rəhbərlərindən biri olmuş A. Karakozovun Azərbaycan Kommunist Partiyası Bürosuna etdiyi məruzəsindən də sitat gətirdi.

Birinci katib qətiyyətlə deyib: "Azərbaycan SSR- in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə imperialistlər və onların daşnak agentləri tərəfindən dəfələrlə antixalq məqsədlər üçün istifadə edilən bədnam "Qarabağ məsələsi" birdəfəlik həll olunub. Kevorkov özünün haqlı olduğunu sübut etmək üçün SSRİ Xalq Komissarları Sovetinin nümayəndəsi, sonralar Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi olmuş Levon Mirzoyanın çıxışından sitat gətirib. Sitatda deyilirdi ki, "Qarabağ iqtisadi, mənəvi və siyasi, habelə milli nöqteyi-nəzərdən Azərbaycanla və onun paytaxtı Bakı ilə sıx bağlıdır."

Kevorkovun fikrinə görə, ikinci mötəbər fakt Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 5 iyul 1921-ci il tarixli qərarıdır. Plenumda kəskin çıxış edən Kevorkov milli təfriqə salanların rəhbərləri olan şair Boqdan Canyanın, vilayət mədəniyyət idarəsinin rəisi Jan Andriyanın, muzeyin direktoru Ş.Mıkrtıçyanın, statistika idarə- sinin rəisi Zaxaryanın, vilayət qəzetinin baş redaktoru A. Avanesyanın və başqalarının ünvanına sərt fikirlər səsləndirdi və onların vəzifələrindən azad olunmasını elan etdi. Yol verdikləri ağır nöqsanlara görə bəziləri hətta partiya sıralarından qovulmaq kimi cəzaya layiq görüldülər.

Əlbəttə, Boris Kevorkov tamamilə haqlı idi, o, bu "işlərin" ermənilərə baha başa gələcəyini hiss edirdi. Ona görə də dərin təşviş keçirirdi. O, tələbələrin antitürk, antiazərbaycan təbliğatının gələcəkdə dəhşətli nəticələrə səbəb olacağını təxmin edirdi. Zaman göstərdi ki, o, öz təxminində heç də yanılmamışdı.

Kevorkov institut və texnikum tələbələrinin iclaslarda və müxtəlif yığıncaqlarda "Qarabağ fəryadı" şeirini dinləyərkən bərk narahat olur, bunu dayandırmaq üçün yollar arayırdı. 1921-ci ildə Osmanlı Türkiyəsinin daxili işlər naziri Tələt Paşanı güllələyib qətlə yetirməsi ilə tanınan qatı daşnak Soqomon Teyliryanla əlaqədar məhkəmə materiallarının gənc nəsil arasında yayılmasını pisləyən Kevorkov millətçilərin qarşısını almağa çalışsa da gec idi.

1967-ci ildə məktəb direktoru Ərşad Məmmə- dovun günahı olmadan ermənilər tərəfindən öldürülməsini və yandırılmasını vəhşilik adlandıran vilayət rəhbəri 1971-ci ildə Xan kəndidə "Qarabağ" mehmanxanasının qarşısında qumbara partladılma- sını millətçilərin ağılsız hərəkəti kimi qiymətlən- dirdi. Onun günahkar hesab etdiyi rəhbər vəzifəli şəxslərin sırasında DQMV Partiya Komitəsinin keçmiş birinci katibi Qriqori Melkumyan və ideoloji işlər üzrə katib N. Arutyunyan da vardı.

Təkcə bu deyil, bir çox faktlar onu göstərirdi ki, erməni əhalinin heç də hamısı daşnak ruhlu millətçilərlə razı və şərik deyildi. Azərbaycanlılarla səmimi dostluğu, hətta qohumluğu olan sadə ermənilər araqarışdıranlara qoşulmaq istəmir, onları lənətləyirdilər. Artıq qanları çoxdan zəhərlənmiş, şovinizm xəstəliyinə tutulmuş erməniləri dayandırmaq mümkün deyildi.

Ancaq birinci katibin qəzəbli çıxışından sonra vilayətdə ictimai-siyasi ab-hava qızışdı. Belə ki, Kevorkovun 23 mart 1975-ci il tarixində rus dilində çıxan "Sovetskiy Karabax" qəzetinin səhifələrində dərc edilmiş çıxışı Qarabağdakı daşnak araqarış- dıranlara yenidən haray-həşir qaldırmaq üçün fürsət verdi. Millətçilər birinci katibə qarşı narazılıq kampaniyasına başladılar. Təbii ki, kütləyə istiqamət verənlər vardı. Onların arasında erməni şair və yazıçıları, Silva Kaputikyan, L.Qurunts və baçqaları xüsusi canfəşanlıq edir, vəziyyətin daha da gərginləşməsinə, hadisələrin öz məcrasından çıxmasına, Moskvaya da çatmasına çalışırdılar.

Bütün pozucu işlərə baxmayaraq ermənilər Moskvaya, SSRİ rəhbəri Leonid Brejnevin ünvanına yazdıqları məktublarında Qarabağın Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi məsələsini yenidən qaldırmağa cəsarət etmədilər. Ancaq onlar plenumdakı kəskin və ifşaedici çıxışına görə

Kevorkovdan bərk incik düşdülər. Ermənilləri sarsıdan o idi ki, Kevorkov 1915-ci ildə Osmanlı Türkiyəsinin vilayətlərində baş vermiş hadisələrin 60-cı ildönümü ərəfəsində uydurma "erməni soyqırımı"ndan danışaraq demişdi: "Bir neçə il bundan əvvəl Stepanakert (Xan kəndi) şəhərində gənclərin bir qismi arasında Soqomon Teyliryanla bağlı məhkəmə prosesi haqqında materiallar qeyri-qanuni şəkildə yayılırdı. Yeri gəlmişkən, həmin materiallar vilayət prokurorluğunun yazı makinasında, onun keçmiş rəhbərlərinin burnunun dibində çap olunmuşdu. Soqomon Teyliryanın şəxsiyyətinə bu maraq haradan idi? Sən demə, o, daşnak terrorçusu olaraq Berlində “mladotürk” (Gənc Türklər) hərəkatının başçılarından biri olan Tələt paşanı güllələyib... Lakin gəlin, əslində daşnak terrorçularının “qəhrəmanlığı”nın təbliğatçılarına çevrilən şəxslərin fəaliyyətinin nə dərəcədə qanunauyğun olduğunu aydınlaşdıraq... ”

Ermənilərə çox bərk təsir edən o idi ki, Kevorkov erməni ola-ola Teyliryan haqqında aşağılayıcı ifadələr işlətməkdən başqa Tələt paşa barədə yumşaq ifadələr söyləmişdi. O, Tələt paşanı kəskin ittiham etmək əvəzinə yalnız “xoşagəlməz adam” adlandırmışdı. Bundan bir qədər sonra “Pravda” qəzetinin 29 may 1975-ci il nömrəsində Kevorkovun həmin çıxışının yüksək qiymətləndirilməsi millətçilərin qəzəbini daha da coşdurdu.

Həmin çıxış haqqında Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev də öz münasibətini bildirdi: "... Millətçilər yenidən baş qaldırıblar və DQMV-nin Partiya Komitəsinə, ilk növbədə, Kevorkova qarşı müxtəlif təxribatlara başlayıblar. Moskvaya, digər regionlara teleqramlar göndərilməyə başlandı, vəziyyət gərginləşdi. İki aydan sonra biz Moskvada Dəmirçiyanla görüşdük və onunla dörd saat söhbət etdik. Mən onun diqqətinə çatdırdım ki, əgər DQMV-də problem varsa, onların hamısı vilayət rəhbərliyi və Azərbaycan rəhbərliyi tərəfindən həll olunmalıdır. Ayrı-ayrı şəxslərin Qarabağın işinə qarışması isə bizim qarşılıqlı münasibətlərimizə zərər verə bilər, biz isə buna imkan verə bilmərik... Vəziyyət yenidən sabitləşdi."

Ancaq bu, şərti sabitlik idi. Ermənilər müvəqqəti olaraq sakitləşmişdilər. Lakin kiçik bir qığılcım vəziyyəti yenidən qızışdırdı. Praqada 32 dildə çap olunan və dünyanın 145 ölkəsinə yayılan "Sülh və sosializm problemləri" jurnalının 1977-ci ildə nəşr edilən 6-cı nömrəsində Boris Kevorkovun "Biz millətlərin qardaşlığını görmüşük" sərlövhəli müsahibəsi işıq üzü görəndən dərhal sonra yenidən ara qarışdı, Kevorkov öz ermənilərinin tənqid hədəfinə çevrildi.

Müsahibəni yazanlar – Hindistan Kommunist Partiyası Milli Şurasının üzvü Sarada Mitra və İraq Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü Adel Xaba milli münasibətlərin inkişafı proseslərini öyrənmək üçün Moskvadan Azərbaycana ezam olunmuşdular. Onlar DQMV Partiya Komitəsinin birinci katibi Boris Kevorkovla görüşərək ona Dağlıq Qarabağın Ermənistan SSR-dən nazik torpaq zolağı ilə ayrılmasına baxmayaraq nə üçün Ermənistanın deyil, Azərbaycan SSR-in tərkibinə daxil olması barədə təxribati xarakter daşıyan sual verdilər. Lakin sayıqlığını itirməyən Kevorkov onlara belə cavab verdi: “Muxtar vilayət Ermənistan SSR-ə yaxın olsa da, onları uca dağlar ayırır. Dağlıq Qarabağ erməniləri Azərbaycanın tərkibində dövlətçiliyə nail olublar və bu aqibəti könüllü olaraq seçiblər. Bu diyar Azərbaycanın tərkibində çiçəklənib... Amma millətçilər “qoy mən pis yaşayım, amma Ermənistana bağlı olum” deyə bilərlər.

Jurnal qatı daşnak yazıçı Sero Xanzadyanın əlinə keçən kimi bundan bir bəhanə kimi istifadə etdi. O, Sovet dövlətinin rəhbəri Leonid Brejnevə təxribat xarakterli böyük bir məktub göndərdi. Xanzadyana elə gəlirdi ki, SSRİ-nin yeni Konstitusiyasının qəbul olunmasına hazırlıq aparıldığı zamanda bu müraciət öz effektini verə bilər, yəni, Dağlıq Qarabağ



***SSRİ rəhbəri Leonid Brejnev***

Ermənistana birləşdirilər. Xülyalarla yaşayan yazıçı Boris Kevorkovun məlum çıxışını "Sosialist Ermənistanının uğurlarını və nailiyyətlərini pisləmək, onları gözdən salmaq cəhdi" kimi qələmə verdi. O, utanmadan Kevorkovun çıxışındakı sözləri təhrif edərək guya xoşagəlməz bir rəng verməyə çalışdı. Təxribatçı yazar məktubunun sonunda "erməni xəstəliyi"ni büruzə verərək məktubunu belə bitirdi: "Əziz Leonid İliç! İlk dəfə deyil ki, həll edilməmiş Qarabağ problemi iki xalq arasında dostluğun möhkəmlənməsinə mane olur. Bütün ümidimiz onadır ki, Siz, nəhayət, yarım əsrdən

çoxdur ki, ədalətsizliyin özünü təcəssüm etdirən bu məsələni həll edəcəksiniz. Bizim vahid, qüdrətli dövlətimizin hüdudları daxilində olan, əhalisinin 80 faizindən çoxu erməni olan, erməni məktəblərinin olduğu erməni vilayəti Ermənistan SSR-in tərkibində olmalıdır. Bu məsələnin ədalətli həlli dünya xalqları tərəfindən Leninin milli siyasətinin yeni təntənəsi kimi qiymətləndiriləcəkdir."

Müraciət Sero Xanzadyanın gözlədiyi effekti vermədi, əksinə, ona mənfi reaksiya göstərildi. Yazıçının əllaməliyinə və təxribatçı fikirlərinə görə Ermənistan KP Mərkəzi Komitəsinin birinci katibi Karen Dəmirçiyan Kremlə çağırıldı və cavab verməli oldu.

Bir az geri qayıdaraq yada salaq ki, 1940-cı illərin sonunda ciddi etirazlarla qarşılaşan və Mircəfər Bağırovdan üzr istəməyə məcbur olmuş bədnam yazıçı Marietta Şaginyan 1975-ci ildə Bakıya gəldi. Burada onu unutmamışdılar. Bilirdilər ki, milli məsələni qızışdıranlardan biridir. Onun Mircəfər Bağırovdan üzr istəməsinə səbəb isə 1946-cı ildə İrəvanda "Armengiz" nəşriyyatında çap olunmuş "Sovet Zaqafqaziyası" kitabında Qarabağın azərbaycanlı əhalisinə böhtan atması, guya onların geridəqalmış, avam və kobud xüsusiyyətlərə malik olduqlarını vurğulamışdı. Bundan da pisi Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı zəngin faktları təhrif etməsi idi.

Həmin Şaginyan əvvəlcə Kirovabadda (Gəncədə), sonra Qarabağın ermənilər məskunlaşmış rayonlarında yerli ziyalılarla görüşlər keçirərək əhalinin yaşayış tərzi və rayonların inkişafı barədə kifayət qədər geniş məlumatlar almışdı. Bunlardan sonra Şaginyan Bakıya gəldi. Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev onu qəbul etdi. Qəbulda Şaginyan müşahidələrini Azərbaycan rəhbəri ilə bölüşərək ermənilərin həyat tərzindən razı qaldığını bildirdi və onların "yağ içində pendir kimi üzdüklərini" etiraf etməli oldu. Lakin erməni ermənidir, o, sözarası bildirdi ki, erməni ziyalıları arasında köhnə fikirlərində qalanlar var, yəni onlar Dağlıq Qarabağın Ermənistana verilməsində hələ də israrlıdırlar. Əslində, "miatsum" ideyasının müəlliflərindən biri də elə Marietta Şaginyanın özü idi.

Ermənilər Qarabağ məsələsini acı bağırsaq kimi uzadır, dəfələrlə buna mənfi cavablar alsalar da, inadlarını davam etdirir, bunun nə vaxtsa baş tutacağına inanırdılar. Artıq 1977-ci il idi. Həmin ildə ölkədə SSRİ-nin üçüncü, tarixi ədəbiyyatlarda "Brejnev Konstitusiyası" adlandırılan ali qanun-vericilik aktının qəbul edilməsinə sürətli hazırlıq görülürdü. Erməni elitası bu siyasi hadisədən istifadə etməyə qərar verdi.

Həmin il iyul ayının 5-də tanınmış yazıçı-şair Silva Kaputikyanın, DQMV Partiya Komitəsinin keçmiş katibi T.Qriqoryanın, professor Q.Yepiskoposovun,

İttifaq əhəmiyyətli fərdi təqaüdçü S.Akopyanın və başqalarının imzaladıqları məktub Moskvaya, Konstitusiya Komissiyasına göndərildi. Məktubda Dağlıq Qarabağ və Naxçıvanın Ermənistana verilməsi xahiş olunurdu. Məktubu yazanlar tarixi, coğrafiyanı saxtalaşdıraraq Ermənistanın xeyirinə düzəlişlər etməkdən belə çəkinməmişdilər. Hiss olunurdu onlar hər cür alçaqlığa hazırdırlar, təki istəkləri həyata keçsin. Sənəddə demaqoqcasına göstərilirdi ki, 1920-ci ildə Ermənistanla Azərbaycan arasında sərhədlər düzgün müəyyənləşdirilməyib. Guya bolşevik hökuməti Ermənistanın bir çox ərazilərini ondan zorla alaraq Azərbaycana verib. Özlərini isə "torpaqları əllərindən alınmış ermənilər" adlandırırdılar. Məktub saxta fakt və dəlillərlə əsaslandırılmışdı. Tarixi faktları tamamilə saxtalaşdıranlar sübut etməyə can atırdılar ki, "əzəli erməni torpaqları" olan Naxçıvan, Qarabağ, Şəmkir, Gədəbəy, Daşkəsən, Xanlar (Göygöl) və Şaumyan (Goranboy) rayonları "Türk qoşunları tərəfindən işğal edilərək" Azərbaycan ərazisinə qatılıb.

Şivən qoparan iddiaçılar Bakı Sovetinin 1 dekabr 1920-ci il tarixli Bəyannaməsini misal gətirirdilər. Əvvəldən qeyd edək ki, Bakı Sovetinin başında Stepan Şaumyan dururdu, digər mühüm postları da ermənilər tuturdu. Bir sözlə, Azərbaycanın taleyi bir qrup erməninin əlində idi. Onların qəbul etdikləri həmin Bəyannamə faktik surətdə bolşeviklərin

Ermənistanla Azərbaycan arasında mübahisəli ərazilər məsələsinin həllinə dair yol xəritəsi idi. Sənəddə Zəngəzur və Naxçıvanın Ermənistana veril- məsini təklif edirdi. Daha sonra Dağlıq Qarabağda yaşayan ermənilərə öz müqəddəratlarını təyin etmə hüququ verilməlidir. Təkcə bunlardan aydın olur ki, sənəd Şaumyançıların üstün olduğu şəraitdə tərtib olunub.

Məktub müəllifləri fikir irəli sürürdülər ki, Şaumyanın həmin proqramının qarşısını Türkiyə alıb. Bununla da Bakı Sovetinin məlum Bəyan- naməsi tarixin arxivinə atılıb. Ancaq burada da onlar saxtakarlığa yol verdilər. Çünki həqiqəti deməli olsalar, onda etiraf etməli idilər ki, ermənilərin yersiz ərazi iddialarının qarşısını türklər deyil, Rusiyanın Qafqazdakı emissarları Sergey Kirov və Qriqori Orconikidze alıb. Özü də təkcə Ermənistanla Azərbaycan arasında deyil, Türkiyə və İranla da sərhədlərin qəti müəyyənləşdirilməsində Kreml həlledici yer tutub. Yəni, hər şey ermənilərin özlərinin mənafelərinə uyğunlaşdırılmaqla qəbul oluna bilməz. Çünki ermənilərə qalsa, onlar özlərini dünyanın ilk sakinləri və İsa Məsihin övladları sayır, İsa peyğəmbərin erməni olduğunu, Qarabağdakı alban kilsələrini İsanın həvarilərindən birinin tikdirdiyini və s. saysız-hesabsız sərsəm fikirlər

yaymaqdan qətiyyən utanc hissi keçirmirlər. Bu hiss onlarda yerli-dibli yoxdur. Nə isə...

Haqqında danışdığımız məktuba əlavə olunmuş qısa arayışda Sovet İKP partiya-təşkilat şöbəsinin bölmə müdiri A.Sannikov bildirirdi ki, məktub müəlliflərindən biri olan S.Akopyanla şöbənin təlimatçısı Qromıko söhbət etmiş və avqustun 11-də bu barədə Sovet İKP Mərkəzi Komitəsinin katibi İ.Kapitonova məruzə etmişdir.

İyirmi iki ildən sonra, 1999-cu il noyabrın 10-da Prezident Sarayında Azərbaycan Yazıçılarının bir qrupunu qəbul edən Heydər Əliyev həmin hadisəni belə xatırlayıdı: "1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya Komissiyası təyin olunmuşdu, onun sədri Brejnev idi, biz isə komissiyanın üzvləri idik. Mən Azərbaycanın nümayəndəsi idim. Komissiya vaxtaşırı müzakirələr keçirirdi. Müzakirələri o vaxt Mərkəzi Komitənin katibi, akademik Ponomaryov aparırdı.

Bir dəfə mən Komissiyanın işində iştirak etmək üçün Moskvaya getmişdim və gördüm ki, "Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənis- tana vermək lazımdır" kimi çoxsaylı ərizələr daxil olub. Görürəm, Ponomaryov deyir ki, bu məsələni Komissiyanın müzakirəsinə çıxarmaq lazımdır, ermənilər ona da təsir etmişdilər. Başa düşür-

sünüzmü ki, bu məsələnin Komissiyanın müzaki- rəsinə çıxarılması faktının özü nə deməkdir?

Mən hələ Komissiyanın iclasından bir gün əvvəl buna qəti etiraz etdim, amma gördüm ki, yox... Mən yenidən mərhum Brejnevin yanına getdim. Ona dedim ki, bu nədir? Belə bir şey olmamalıdır! O, Ponomaryova zəng vurub dedi: “Bunu gündəlikdən çıxart!”

Ancaq qəzəb və iddia ilə yüklənmiş ermənilər durmaq-dayanmaq bilmirdilər. Bu hadisədən sonra onlar SSRİ Nazirlər Sovetinə kütləvi müraciətlər təşkil etdilər. Çox şübhəsiz ki, Moskvada bütün rəhbər vəzifələrdə işləyən ermənilər və ermənipərəstlər onları yönləndirir, harada nə kömək lazım olurdusa onu dərhal edirdilər. Ancaq bu müraciətlər də müsbət sonluqla nəticələnmədi. Çünki Azərbaycandan bunun əleyhinə müraciətlər gəlmişdi. SSRİ Ali Soveti lehinə və əleyhinə olan fikirləri götür-qoy edərək məsələnin gündəlikdən çıxarılmasını doğru hesab etdi.

Qeyd edilməlidir ki, bolşevik hakimiyyəti də özündən əvvəlki hakimiyyətlər kimi azərbaycan- lıları, türk-müsəlmanları İttifaq dövlətinin ali rəhbərliyinə yaxın buraxmırdı. Birlik, bərabərlik şüarı qaldırılsa da açıq görünürdü ki, Sovet liderləri milli ayrı-seçkiliyə yol verirlər. 1970-80-ci illərdə siyasi hadisələrə təsir edə bilən yeganə şəxs Heydər

Əliyev idi. Partiya və sovet orqanlarının orta səviyyəli vəzifələrində ermənilər çoxluq təşkil edirdilər. Onlar hələ çarların dövründən əzizlənir, ali mənsəblərə təyin olunurdular. Sovet hakimiyyəti illərində isə erməni alimlərin, rəhbər vəzifəlilərin sıraları daha da genişlənmişdi. Məhz bu səbəblərə görə ermənilər SSRİ-də həyatın bütün sahələrinə nüfuz edə bilirdilər.

Hər zaman sayıq və diqqətli olan Heydər Əliyev yuxarıda bəhs etdiyimiz məsələni öyrənən kimi akademik İqrar Əliyevi yanına çağırtdırdı. Akademik sonralar xatırlayırdı ki, qəbul zamanı Heydər Əliyev ona demişdi: "Ermənilər Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini qaldırıblar. Bu məsələ ilə bağlı tutarlı arayış hazırlamaq lazımdır."

Məlum idi ki, İqrar Əliyev müharibədən sonra Mircəfər Bağırovun tapşırığı ilə belə məzmunda arayış hazırlamışdı. İndi həmin arayışın Mərkəzi Komitənin məxfi arxivindən axtarılıb tapılması vacib idi. Çünki o sənəddə lazımı faktlar əksini tapmışdı. Heydər Əliyevin tapşırığı ilə həmin arayış ertəsi gün İqrar Əliyevə verildi. Akademik bir ay müddətində arayışı işləyib hazırladı və Mərkəzi Komitəyə təqdim etdi. Alim sonralar demişdi ki, həmin arayışla Heydər Əliyev ermənilərin Azərbaycan xalqına qarşı hazırladıqları

növbəti təxribatın qarşısını alıb və onların niyyətini puça çıxarıb.

İllər, onilliklər keçir, boş və sərsəm iddialarından əl çəkməyən ermənilər bu istiqamətdə işlərini davam etdirir və düşünürdülər ki, nə vaxtsa onların arzularını reallaşdıracaq bir Sovet rəhbəri tapılacaq. Belə bir rəhbər Mixail Qorbaçov oldu. Onun azərbaycanlılarla qətiyyən arası yox idi. Hələ hakimiyyət başına gəlməzdən əvvəl Heydər Əliyevin potensialı onu qıcıqlandırırdı, Heydər Əliyevi özünə ən güclü rəqib hesab edirdi. Əslində, bu, elə belə idi. SSRİ rəhbərliyinə ən layiqli namizəd Heydər Əliyev idi. Lakin İosif Stalindən sonra bu posta başqa millətin nümayəndəsinin yolu tam bağlanmış oldu. Buna görə də Mixail Qorbaçov SSRİ rəhbəri oldu. Ancaq Heydər Əliyevlə iki toqquşmadan sonra tamamilə onun düşməninə çevrildi.

Hadisələr belə olmuşdu... Birinci hadisə 1985-ci ildə baş verdi. O zaman hakimiyyətə yenicə gəlmiş təkəbbürlü Mixail Qorbaçov ölkədə alkoqolizmin qarşısının alınması üçün Siyasi Büronun iclasında təklif irəli sürdü ki, alkoqolizmin qarşısının alınması üçün spirtli içkilərin istehsalını məhdudlaşdırmaq lazımdır. Bunun üçün də üzüm plantasiyaları məhv edilməlidir. Kimsə etiraza cəsarət etməsə də Heydər Əliyev buna kəskin reaksiya verdi. Bildirdi ki, milyon hektarlarla üzümlüyün məhv olunması çıxış

yolu deyil, əksinə, bu addım ölkəyə irimiqyaslı ziyan vuracaq, zəhmət adamları işsiz qalacaq, bu sahənin infrastrukturu sıradan çıxacaq. Orada Heydər Əliyev güclü arqumentlərlə Qorbaçovun bütün fikir və planlarını alt-üst etdi. Təbii ki, bu, sonralar münasibətlərdə öz təsirini göstərdi.

Üzümlüklərin məhv edilməsi kampaniyasının məqsədlərinə gurultulu çıxışlarda humanist rəng verilsə də, onun nəticələri cəmiyyətdə daha böyük bəlalara yol açdı, ictimai-iqtisadi həyatda yaranan xaosun daha artmasına zəmin yaratdı. Qorbaçovun planının nəticələri reallıqda səsləndirilən məq- sədlərə deyil, ölkənin dağılmasına, təsərrüfatın ritminin pozulmasına xidmət etdi. Baxmayaraq ki, bu həqiqət kampaniyanın başlandığı gündən hər kəsə aydın oldu, lakin onun qarşısının alınmasına heç bir cəhd göstərilmədi. Əksinə, onun əleyhdarları sərt cəzalandırıldı. Bununla iqtisadiyyatda neqativ proseslərin artması və genişlənməsi üçün münbit şərait yaradıldı. Ölkədə qeyri-qanuni kölgə iqtisadiyyatı tüğyan etməyə başladı.

Üzümçülük və şərabçılıq təsərrüfatlarının kütləvi surətdə məhv edilməsi ağılsız yenidənqurmanın SSRİ xalqlarına vurduğu ən böyük iqtisadi zərbələrdən biri oldu. Bununla da Sovet hakimiyyətinin dağılmasına start verildi. Sonra baş



***H.Əliyev Moskvada Siyasi Büroda***

verənlər göstərdi ki, Heydər Əliyev öz fikirlərində tamamilə haqlı imiş.

– Spirtli içkilər istehsalının azalması təsərrüfatın bu istiqamətinin zəifləməsinə səbəb oldu, Bu da işsizlik, məşğulluq məsələlərində özünü göstərdi.

– Ölkənin üzümçülük təsərrüfatına, o cümlədən Azərbaycanın kənd təsərrüfatı potensialına öldürücü zərbə vuruldu. Ən ağırı isə o idi ki, aparılan kampaniya əvvəlcədən bəyan edilən məqsədlərin heç birinə gətirib çıxarmadı. Bu kampaniya xalqa

üzümçülük-şərabçılıq təsərrüfatının məhv edilməsindən başqa bir şey vermədi. Milyonlarla insan öz daimi iş yerlərini itirdilər, işsizlik problemi yarandı, ailələr çətin duruma düşdülər.

Sovet dövləti üzüm məhsulları və şərabçılıqda təkcə 1986-cı ildə 12 milyard manat, 1987-ci ildə isə 7 milyard manat itirdi ki, SSRİ yaranandan bu qədər irimiqyaslı ziyan görməmişdi.

Heydər Əliyevlə Mixail Qorbaçov arasında ikinci ixtilaf bir il sonra baş verdi. O ərəfədə SSRİ-də alman faşizmi üzərində qələbənin ildönümünə qızğın hazırlıq işləri aparılırdı. Lakin 1986-cı il aprelin 26-da Ukraynada Çernobil Atom Elektrik Stansiyasında güclü partlayış oldu. Bu, ABŞ-ın II Dünya müharibəsindən sonra Yaponiyanın iki şəhərinə-Xirosima və Naqasakiyə atdığı atom bombasının törətdiyi faciədən dəfələrlə böyük faciə idi. Qorbaçov Siyasi Büronun iclasında təklif irəli sürdü ki, hələlik faciə barədə SSRİ xalqlarına məlumat verilməsin. 9 May qələbə bayramı qeyd olunandan sonra məlumat verilər. Onda Siyasi Büronun üzvü Heydər Əliyev Qorbaçovun bu fikrinə qarşı çıxaraq tələb etdi ki, faciə gizlədilməməli, xalqa dərhal məlumat verilməlidir. Heydər Əliyevin belə qətiyyətli tələbi Qorbaçovun xoşuna gəlmədi və onsuz da aralarında olan soyuq münasibət bir qədər də soyudu.

1986-cı il Alma-ata şəhərindəki faciədən sonra münasibətlər kəskinləşdi. Həmin vaxt Qazaxıstan

KP Mərkəzi Komitəsinin birinci katibi Dinməhəm- məd Kunayevin pensiyaya çıxmasından sonra Qorbaçovun rəyi ilə bu vəzifəyə Ulyanovsk Vilayət Partiya Komitəsinin birinci katibi Gennadi Kolbin namizəd göstərildi. Lakin qazax xalqı öz millətindən olan birini rəhbər görmək istəyirdi. Qazaxların psixologiyasını bilən Heydər Əliyev bu məsələnin düzgün həlli üçün Qorbaçovun yanına gedərək ona səhv yolda, Gennadi Kolbinin oraya rəhbər gön- dərilməsinin əleyhinə olduğunu söylədi. Bildirdi ki, Kolbin öz vilayətində daha yaxşı fəaliyyət göstərə bilər. Əks təqdirdə, gözlənilməz hadisələr baş verə bilər.

Diqqətlə dinləyən Qorbaçov narazı və əsəbi tonda yalnız iki kəlmə dedi: "Ladno, posmotrim" ("Yaxşı, baxarıq"). Açıq görünürdü ki, Heydər Əliyevin ona məsləhət verməsi, ən düzgün yolu göstərməsi siyasi avantüraya uymuş imperiya rəhbərini özündən çıxarır, hərəkətlərinə nəzarəti itirir. Özünün qəbul etdiyi sərsəm qərarlar bunu sübut etdi.

Lakin Qorbaçov inadını yeridərək milliyətcə rus olan Gennadi Kolbini Qazaxstana rəhbər göndərdi. Qazaxlar ayağa qalxaraq üsyan etdilər. Sovet ordu hissələri Alma-ataya daxil olaraq qanlı qırğın törətdi, 200 nəfərdən artıq qazax öldürüldü, yüz- lərləsi isə yaralandılar. Kolbin qazax xalqına vədlər versə də qəbul olunmadı və bir aydan sonra

Qorbaçov məcbur qalıb Nursultan Nazabayevi Qazaxıstan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təsdiq etdi.

Bunların hamısı hələ sonra olacaqdı.

Hələ 1980-ci il idi. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin və respublika Nazirlər Sovetinin orqanı olan "Sovetakan Hayastan" qəzeti redaksiyasının bir qrup əməkdaşı Dağlıq Qarabağ Muxtar Vilayətinə ekskursiyaya gəlmişdi. Qonaqların xahişi ilə Boris Kevorkov onları qəbul edərək vilayətin sosial-iqtisadi həyatında baş verən müsbət dəyişikliklər barədə geniş məlumat verdi. Jurnalist qonaqlar vilayətin son illərdəki uğurlarını gördükcə çaşqınlıq içində bir-birlərinə baxırdılar. Yəni, onlar hər şeyin Zori Balayanın, Baqrat Ulubabyanın, Leonid Quruntsun pislədikləri kimi deyildi, inkişaf göz qabağında idi. Hesabatlardan öyrəndilər ki, guya Qarabağın azalması haqqında uydurulan xəbərlər tamamilə yalandır və əsl həqiqətdən çox uzaqdır. Jurnalistlərin Xan kəndi, Şuşa, Ağdərə və Martuni rayonlarına səfərlərində rayonların sosial-iqtisadi inkişafı onları razı saldı.

Qarabağda gördükləri mədəni inkişaf bəzi şəxs- lərin jurnalistlərə verdikləri məlumatların kökündən səhv olduğunu ortaya qoydu. Aydın oldu ki, həmin qaragüruhçular hər şeyi pis kimi qələmə verməyə və düzəltdikləri saxta ittihamlarda Azərbaycan rəhbərliyinin fəaliyyətini danmağa, qaralamağa və



kiçiltməyə çalışırlar. Bu, Azərbaycana qarşı nə vaxtsa hücuma keçməyə hazırlıq hesab olunurdu. Kənarda dolaşıb Qarabağı qarışdırmaq niyyətində olanlar istər Ermənistanda, istərsə də xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğatlar aparır, hər yerdə azərbaycanlıların qaniçən, vəhşi obrazını yaradırdılar.

Ümummilli lider Heydər Əliyev həm Qarabağ münaqişəsinin başlanğıcında, həm də davam etdiyi illərdə bildirirdi ki, bu məsələ DQMV erməniləri tərəfindən qaldırılmır. Onların Azərbaycandan narazı qalmalarına heç bir əsas yoxdur. Azərbaycan rəhbəri "The Waşinqton Post" qəzetinin Moskva

müxbiri Devid Remniklə söhbətində bildirmişdi: "Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində çalışdığım 14 il ərzində mən hər il, bəzən ildə bir neçə dəfə Dağlıq Qarabağda olurdum və bu muxtar vilayətdən heç bir adam qarşımda belə bir məsələ qoymamışdı ki, DQMV Azərbaycanın tərkibindən çıxarılmalı və Ermənistana verilməlidir. Ermənistanda ayrı-ayrı millətçilik əhval-ruhiyyəsinə rast gəlinirdi, orada bəziləri bu cür planlar hazırlayırdı, lakin onlar DQMV əhalisi tərəfindən dəstəklənmirdi."

Heydər Əliyev kimi nəhəng bir şəxsiyyət başa düşürdü ki, ermənilər Qarabağ iddiasından əl çəkmə-yəcəklər. Odur ki, ermənilərin bəhanəsinin kəsil- məsi, diyarın sosial-mədəni inkişafı üçün əlindən gələni edirdi.

1982-ci ilin başlanğıcında Şuşada böyük Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsinin açılışında şəxsən iştirak etməsi də bu qəbildən idi. Heydər Əliyev məqbərəni tikdirib açılışını keçirməklə ermənilərə mesaj verirdi ki, başa düşün, bura mənim vətənim, Azərbaycan torpağıdır, bu yerlərin sahibi Azərbaycan xalqıdır.

# HEYDƏR ƏLİYEVİN ŞUŞAYA SƏFƏRİ

*Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir. Onun ölkəmiz, Vətənimiz üçün xüsusi, vacib yeri vardır. Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur.*

*Heydər Əliyev*

Xatırlayaq ki, Heydər Əliyev 1970-ci illərdə Qarabağa, xüsusilə Şuşaya səfərləri zamanı Molla Pənah Vaqifin Məqbərəsinin inşa olunması ilə əlaqədar göstəriş vermişdi. Muzey-məqbərənin kompleksinin tikilməsinə memarlar-V. Salamzadə və E. Kanukovun layihəsi əsasında 1977-ci ildə başlandı.

1977-ci ildə Ağdam-Xan kəndi dəmir yolunun açılışı zamanı Şuşaya gələn Heydər Əliyev aparılan işlərlə yaxından tanış oldu və əlavə lazımi tapşırıqlarını verdi.

Şuşalı, tanınmış ziyalı, "Şuşa" qəzetinin və "Şuşa" nəşriyyatının redaktoru Vasif Quliyev bu hadisəni xatırlayaraq yazır: "Molla Pənah Vaqifin məqbərəsinin təntənəli açılışı gününü şuşalılar hələ də unutmayıblar. 1982-ci il yanvarayının 14-nü

səbirsizliklə gözləyən minlərlə insan xalqımızın böyük oğlu Heydər Əliyevi layiqincə qarşılamaq və yerləşdirmək üçün böyük hazırlıq işləri görmüşdü. Bu da səbəbsiz deyildi. Axı, o, Şuşanı həmişə özünə doğma saymışdı. O zaman Ulu Öndər Vaqifin məqbərəsinin açılışında iştirak etmək üçün Bakıdan Şuşaya Mərkəzi Komitənin üzvlərini, ədəbiyyat və incəsənət xadimlərindən ibarət böyük bir heyəti də özü ilə gətirmişdi.

Həmin gün Şuşa "qar çiçəklərinə" bələnmişdi. Lopa-lopa yağan qar şəhərə xüsusi bir gözəllik vermişdi. Buz bağlamış yollar maşınların gediş- gəlişinə imkan vermirdi. Bunu görən yerli camaat Heydər Əliyevin əyləşdiyi maşını "Xan qızı bulağı"ndan əlləri üstə qaldırıb "Güllü bağ"ın qarşısına çıxarmışdılar. Şuşadakı qarlı havaya baxmayaraq bayram yüksək səviyyədə keçmişdi. Ölməz Səməd Vurğunun

**Qalxacaq, şairim, bir gün heykəlin,**
**Bizim Qarabağın Cıdır düzündə,**
**Vaqif canlanacaq onun üzündə.**

misraları yazılmış lövhə məqbərənin görümlü yerindən asılmışdı.

Alqış səsləri altında dahi Üzeyir Hacıbəylinin "Koroğlu" operasının üvertürası dağlarda, daşlarda, dərələrdə əks-səda vermişdi. Böyük rəhbər Heydər Əliyev məqbərənin qarşısındakı qırmızı lenti kəsmiş,



sonra nitq söyləmiş və dərin məzmunlu çıxışının sonunda əlavə etmişdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir abidədir. Şuşanı çox sevirəm... Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı hər şeyi qorumaq, qədim tikililəri bərpa etmək lazımdır."

Sonra Heydər Əliyev bildirmişdi ki, bu qarlı havada şəhəri maşınsız, piyada gəzəcək. Elə də olmuşdu.O, bir neçə obyektin, o cümlədən, poeziya evinin açılışında da iştirak etmiş, "Vaqif çeşməsi" ədəbi birliyinin üzvləri ilə görüşmüş, onların şeirlərini dinləmişdi. Elə oradaca gənc yazarlar hər il Şuşada Vaqif poeziya günlərinin keçirilməsini təklif etmişdilər. Bu təklfi diqqətlə qarşılayan Heydər Əliyev yanındakı yazıçılara-Mirzə



İbrahimova və İsmayıl Şıxlıya tövsiyə etmişdi ki, şuşalı gənclərin bu arzusunu nəzərə almaq və bu ənənəni hər il davam etdirmək lazımdır. Hər il Şuşada Vaqif poeziya günləri keçirilməlidir. Sonra əlavə etdi ki, mən özüm də gəlib iştirak edəcəyəm."

O gündən başlayaraq Şuşada hər il Vaqif poeziya günləri böyük sənət bayramı kimi keçirildi. Lakin 1982-ci ilin payızında Heydər Əliyev Sovet İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olundu və bir daha Şuşaya gələ bilmədi.

# SSRİ NAZİRLƏR SOVETİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ

*Heydər Əliyevin qətiyyətli iştirakı və şəxsi əməyi olmasaydı, Azərbaycanın nailiyyətləri də olmazdı.*

*Emoməli Rəhmanov,*
*Tacikistan Respublikasının Prezidenti*

Moskvada işlədiyi illərdə Heydər Əliyevin daha böyük potensialı üzə çıxdı. O, öz yaradıcı fəaliyyəti



ilə nəinki SSRİ xalqlarının, eyni zamanda xarici qonaqların da məhəbbətini qazandı. Moskvada işlədiyi müddətdə özünü əsl türk kimi apardı, daim Azərbaycanı unutmadığı kimi, qardaş türk xalqlarının mənafelərinə töhfə verdi. Həmin illərdə Bolqarıstan türklərinin acınacaqlı vəziyyəti onu ciddi narahat edirdi. Orada türklər sıxışdırılır, təzyiqlərə, diskriminasiyaya məruz qoyulurdular. Hakimiyyətin göstərişi ilə türklərin adları, soyadları zorla dəyişdirilir, buna etiraz edənlər tutulub həbsxanalara atılır, işgəncə verilirdi. Məqsəd türkləri assimilyasiyaya uğradıb bolqarlaşdırmaq, "əritmək", yox etmək idi.

Həmin ərəfədə Bolqarıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Todor Jivkov Moskvaya işgüzar səfərə gəlmişdi. Kremldə Todor Jivkovla Heydər Əliyev qarşılaşanda o, bu məsələni açmış, Jivkova barmaq silkələyərək bu əməllərə son qoymasını tələb etmiş, "Buna görə cavab verəcəksən" demişdi. Heydər Əliyevin bu sözlərin- dən sonra geri qayıdan Jivkov türklərin sıxışdı- rılmasının dayandırılmasını tapşırmışdı. Bu alicənablığı ilə Azərbaycanın böyük oğlu türk xalqları tərəfindən dərin hörmət və sevgi qazanmışdı.

Ancaq Heydər Əliyevi Moskvada gözü götürməyənlərin sayı da az deyildi. Onların arasında

ermənilər daha çoxluq təşkil edirdilər. Onlar Heydər Əliyevi rişxəndlə “Kremldə türk paşası” adlandırırdılar. Heydər Əliyev sanki bir ox olaraq onların gözlərinə batırdı. Ancaq dediyimiz kimi, onu sevənlər, şəxsiyyətinə böyük hörmət və rəğbət bəsləyənlər də az deyildi. Onlardan biri tanınmış ingilis yazıçısı, diplomat, Qafqaz üzrə mütəxəssis Tomas de Vaal idi.



***İngilis yazıçısı Tomas de Vaal***

Tomas de Vaal DQMV-nin yaranmasının 50-ci ildönümü münasibətilə Bakıya gələrək Qarabağa getmiş, orada bayram tədbirlərində iştirak etmişdi.

Yazıçı xatırlayır ki, həmin tədbirlərdən birində Heydər Əliyev çıxış edərək "DQMV Azərbaycanın ayrılmaz hissəsidir və əbədi olaraq belə qalacaqdır" dedi. Bunu eşidən erməni millətçiləri Heydər Əliyevi özlərinin ən böyük düşməni hesab etdilər və bu sözünə görə onu bağışlamadılar.

"Qara bağ" kitabını yazan Tomas de Vaal bildirirdi ki, Heydər Əliyevin 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyində tutduğu vəzifələrindən uzaqlaşdırılmasından sonra erməni millətçiləri dərindən nəfəs aldılar. Bununla əlaqədar onlara rəhbərlik edənlərdən biri şadyanalıqla bildirmişdi ki, işin yarısını görməyə nail olduq. "İş" deyəndə o, Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsini nəzərdə tuturdu. Yazıçının fikrincə erməni millətçilərinin Heydər Əliyevin istefası ilə birbaşa əlaqəsi vardı. Onlar istefa məsələsində Mixail Qorbaçova güclü təsir edə bilmişdilər. Qorbaçovun arvadı Raisa Qorbaçovaya bağışlanan çox qiymətli brilyantlar və qızıl əşyalar öz rolunu oynamışdı.

"Qara bağ" kitabında müəllif yazır: "Onlar, azərbaycanlı patriarx Heydər Əliyevin nüfuzdan salınması üçün kampaniya başlatmağı düşündülər. Onların fikrincə, Heydər Əliyev Qarabağın Azərbaycandan ayrılması fikrinin əsas əleyhdarı ola və bütün prosesi dayandıra bilərdi."

Heydər Əliyev müsahibələrinin birində xatırlayırdı ki, 1987-ci ildə Qarabağ hərəkatında canfəşanlıq göstərənlərdən biri olan İqor Muradyandan hədələr və təhqirlərlə dolu bir məktub almışdı. Həddini aşmış Muradyan məktubunda Heydər Əliyevi Qarabağın Ermənistana birləşdirilməsinə mane olmaqda günahlandırıdı. Sonra o, ermənilər tərəfindən qətlə yetirilən türk və Azərbaycan diplomatlarının, dövlət xadimlərinin siyahısını yazmışdı. Dolayısı ilə bildirmək istəmişdi ki, ermənilərə qarşı çıxanların aqibəti belə olur və bu aqıbət səni də gözləyir. Təbiətən qorxaq olan ermənilər elə düşünürdülər ki, hədələri ilə Heydər Əliyevi qorxutmaqla tutduğu yoldan, əqidəsindən döndərə bilərlər. Ancaq Heydər Əliyev polad iradəyə malik idi və onu öz yolundan heç bir təsirlə döndərmək mümkün deyildi.

Bu, Muradyanın birinci hədəsi deyildi. 1987-ci ilin martında da Sovet İKP Mərkəzi Komitəsinin katibi, Mərkəzi Komitə Siyasi Bürosunun üzvü, SSRİ-də yenidənqurmanın ideoloqlarından biri A. Yakovlevin adına məktub göndərərək Heydər Əliyevi Şərqi Ermənistanın – ermənilər DQMV-nin və Naxçıvanın ərazisini belə adlandırırdılar, bölünməsini kökündən həll etməkdə aşkarca ittiham edirdi. Muradyan cızmaqarasında vurğulayırdı ki, SSRİ Ali Məhkəməsinə Heydər Əliyevə qarşı iddia ərizəsi göndərilib və bu iş üzrə 600 səhifəlik material toplanaraq təqdim olunub.

Millətçi Muradyanın başından böyük danışması SSRİ Nazirlər Soveti Sədrinin birinci müavininə, Siyasi Büronun üzvünə hədə-qorxu gəlməsi, onu təhdid etməsi ağır cinayət sayılırdı. Bu, ona dəlalət edirdi ki, Qorbaçov hakimiyyət başına keçəndən sonra ermənilərə o qədər yazılmamış geniş imtiyaz- lar vermişdi ki, onlar hətta Sovet imperiyasının rəhbərlərindən birini hədələməkdən, onu təhdid etməkdən də çəkinmirdilər. Qorbaçovun yaxın ətrafı ermənilərlə dolu idi və SSRİ-də onlara hər məsələnin həllində "yaşıl işıq" yandırılırdı. Ermənilər Moskvada özlərini balıq suda hiss etdiyi kimi hiss edirdilər.

1988-ci il başlayan kimi İrəvanda və Xan kəndində Qarabağın Ermənistana birləşdirilməsi məsələsinə start verildi. Fevralın 13-də Xan kəndidə böyük etiraz mitinqləri keçirildi və bu, davamlı şəkil aldı. Ermənilər mitinqlərdə "miatsum", (yəni ana vətənə birləşmək) və "artsax" deyə bağırırdılar. Bir qədər sonra minlərlə erməni Əsgəran rayonu ərazisinə yürüş etdilər, Orada azərbaycanlılarla toqquşmada Əli və Bəxtiyar adlı iki azərbaycanlı gənc qətlə yetirildi. Bütün bunları kənardan müşahidəçi rolunda olan Sovet dövlətinin başçıları sadəcə seyr etdilər. Erməniləri dayandırmaq əvəzinə Qorbaçov hökuməti onları daha da həvəsləndirdi və əlaltdan silah-sursatla təmin etdi. Artıq vəziyyət



***İki dəfə Sosialist Əməyi Qəhrəmanı H.Əliyev***

nəzarətdən çıxırdı və bu, rəsmi Mokvanı nəinki narahat edirdi, əksinə, dediyimiz kimi, ermənilər daha ruhlandırılırdılar. Aparılan danışıqlar, yazışmalar heç bir əhəmiyyət kəsb etmirdi, ermənilər öz işlərində idilər.

## DOĞMA YURDA DÖNÜŞ

*İnsan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz VƏTƏNDİR!*
*Heydər Əliyev*

1990-cı ilin yayında Moskvada yaşamağın mümkün olmadığını görən Heydər Əliyev əvvəlcə Bakıya, sonra Naxçıvana getdi. Naxçıvanda onu böyük ümidlərlə, sevinclə qarşıladılar, qurbanlar kəsdilər. Sonralar Heydər Əliyev demişdi ki, muxtar respublika əhalisinin bu cür qarşılaması mənə çəkdiyim iztirabları unutdurdu.

Naxçıvanda 30 sentyabr 1990-cı ildə Azərbaycan SSR və yerli xalq deputatları sovetlərinə seçkilər keçirilirdi. Xalq öz sevimli, əvəzedilməz oğluna yüksək etimadını göstərdi. Heydər Əliyev Babək rayonunun 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Məclisinə deputat seçildi. Orada işlədiyi dövrdə fədakar fəaliyyət göstərən Heydər Əliyev Naxçıvan parlamentində yalnız muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən qərarların qəbul edilməsinə nail oldu.

Həmin il noyabrın 17-də xalq deputatı Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirildi. Sessiya

Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, “Sovet Sosialist” sözlərini çıxararaq Naxçıvan Muxtar Respublikası, Naxçıvan MSSR Ali Sovetinin adını dəyişərək Naxçıvan MR Ali Məclisi adlandırdı, ilk Azərbaycan Respublikasının rəmzi olan üçrəngli Dövlət bayrağı bərpa edildi. Beləliklə, Azərbaycanın üçrəngli bayrağı ilk dəfə Naxçıvan Ali Məclisi binasının üstündə dalğalandı.




***Naxçıvan əhalisi Ulu Öndəri qarşılayır***

Böyük siyasi lider Heydər Əliyevin Naxçıvanda yenidən siyasətə qayıtması Azərbaycanı bir dövlət kimi dağıtmaq istəyində olan daxili və xarici düşmənləri ciddi təşvişə salmışdı. İqtidar Naxçıvanı iqtisadi və informasiya blokadasında saxlamaqla Heydər Əliyevin əleyhinə hər cür yaramaz təbliğatı qızışdırır, yaltaq, ikiüzlü deputatların vasitəsilə onu Azərbaycan parlamentində iştirakdan və ölkədə cərəyan edən siyasi hadisələrdən uzaqda saxlamağa çalışırdılar. Lakin alınmırdı, çünki heç bir təbliğat xalqı Heydər Əliyev sevgisindən təcrid etməyə qadir deyildi. Hamı onun hakimiyyət başına keçəcəyi günü səbirsizliklə gözləyir və tələb edirdi.

Azərbaycanda gərgin vəziyyət yarandığı, hadisələrin düzgün qiymətləndirilmədiyi, siyasi proseslərin getdikcə milli dövlətçilik və xalq üçün təhlükəli xarakter aldığı bir vaxtda, 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sessiyası yekdillik nümunəsi göstərərək Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi məsələsini müzakirə etdi. Sessiyada Heydər Əliyev dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə dərin minnətdarlığını bildirdi və təkidlə xahiş etdi ki, onun namizədliyini səsə qoymasınlar. Bu zaman sessiya keçirilən binanın qarşısına toplaşan yüz min nəfərlik bir izdiham



***Heydər Əliyev Naxçıvanda***

qətiyyətlə tələb etdi ki, Heydər Əliyev Muxtar Respublikanın rəhbərliyinə öz razılığını versin.

Uzun və qızğın müzakirələrdən sonra deputatların və əhalinin təkidli tələbləri ilə sessiya yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Naxçıvan MR Ali Məclisinin sədri seçdi. Beləliklə, Heydər Əliyev yenidən böyük siyasətə qayıtdı. Həmişə xalqının səsini eşidən böyük siyasi xadim xalqın tələbi və iradəsi ilə hakimiyyətə gəlməyə razılıq verdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə

vəziyyətində, çətin dövründə, üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm”.

Heydər Əliyevin Naxçıvanda hakimiyyətə gəlişi xəbəri dünyaya yayıldı. O çətin blokada illərində Naxçıvanda yaranmış olduqca ağır, böhranlı vəziyyəti aradan qaldırmaq, Muxtar Respublikanın sərhədlərində hərbi əməliyyatları zəiflətmək, özünün yenicə yaratdığı Müdafiə Komitəsinin fəaliyyətini gücləndirmək, əhalinin ağır iqtisadi, sosial vəziyyətinə, ərzaq, enerji, yanacaq təminatına kömək etmək kimi həyati məsələlərin öhdəsindən məhz Heydər Əliyev kimi zəngin təcrübəyə malik bir rəhbər, mahir siyasətçi gələ bilərdi. Bu missiyanı o, böyük bacarıqla yerinə yetirdi.

Ağır blokadada boğulan Naxçıvanın sərhəd kəndlərinə Ermənistan silahlı qüvvələrinin hücumları davam edirdi. Naxçıvan ölüm-dirim döyüşlərində şəhidlər verirdi. Heydər Əliyevin rəhbərliyi altında oğullarımız vuruşmalarda qəhrəmanlıq göstərirdilər. Heydər Əliyev informasiya vasitələri ilə Ermənistanın təcavüzü barədə dünya ölkələrinə bəyanatlar verdi. Naxçıvana erməni təcavüzü və burada gedən demokratik proseslərin səs-sədası dünya ölkələrinə yayıldı. Bu, SSRİ rəhbərləri üçün gözlənilməz bir sürpriz oldu, çünki Azərbaycanın blokadasını onlar



hazırlamışdılar. Məqsəd Azərbaycan həqiqətlərinin dünyadan gizli saxlanması, heç bir informasiyanın Sovet düşərgəsindən kənara çıxmasına imkan verməmək idi.

Ali Məclisdə muxtar respublikanın dövlət quruculuğu, müdafiə və hərbi quruculuq məsələləri, hakimiyyət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, iqtisadi və siyasi böhranın aradan qaldırılması, iqtisadi islahatların keçirilməsi, xarici iqtisadi əlaqələrin yaradılması, həmsərhəd xarici dövlətlərlə – Türkiyə və İranla mehriban qonşuluq münasibətlərinin qurulması və kütləvi tədbirlərə aid məsələlər müzakirə edildi, müvafiq qərarlar qəbul olundu. Zərərlə işləyən kolxoz və sovxozlar milliləşdirildi. Əhalinin ərzaq məhsulları ilə təchiz

edilməsi, Naxçıvanda yanacaq çatışmazlığının aradan qaldırılması, iş vaxtından səmərəli istifadə edilməsi, əmək intizamının möhkəmləndirilməsi, Naxçıvan aeroportunun, Sədərək-Türkiyə yolunun tikintisinin sürətlənməsi, Araz dəryaçasında və digər yerlərdə balıq məhsullarının tutulub əhaliyə satılması işləri yaxşılaşdırıldı.

Ali Məclisdə Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyaların iclaslarında o vaxt Naxçıvanda və respublikada baş verən mürəkkəb siyasi hadisələr və müdafiə barədə mühüm tarixi qərarlar qəbul edildi. Böyük rəhbər zamanın tələblərini və zərurəti vaxtında görür və çatışmazlıqları aradan qaldırırdı. Ayaz Mütəllibov hökumətindən heç bir kömək veril- məyən Naxçıvan rəhbəri qonşu Türkiyənin qardaşlıq yardımından istifadə etməyə çalışırdı. 1992-ci il mart ayının 24-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Ankarada əməkdaşlıq haqqında protokol imzaladılar. Heydər Əliyev ilə görüş zamanı Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl dedi ki, Naxçıvan bizim qonşumuz və qardaşımızdır. Türkiyə Respublikası lazım gələrsə, yəni Naxçıvan Muxtar Respublikasına ciddi təhlükə olarsa, Qars müqaviləsinə əsasən öz sözünü deyəcək. Heydər Əliyev görüşdəki çıxışında xüsusi vurğuladı ki, Naxçıvanın xüsusi bir

statusunun olması, Türkiyənin Naxçıvan üçün zamin bir dövlət olması 70 il bundan əvvəl bağlanmış müqavilələrdə öz əksinin tapıb.




***“Dostluq”, “Nicat” körpüsünün açılışı Süleyman Dəmirəllə***

Türkiyə ilə əlaqələr və imzalanmış sənədlər muxtar respublikada ictimai-siyasi vəziyyətin sabitləşməsinə və mürəkkəb sosial-iqtisadi məsələlərin həllinə şərait yaratdı. Ermənistanla həmsərhəd rayon və kəndlərdə hərbi təcavüzə son qoyuldu, diyarda əmin-amanlıq yarandı, siyasi tarazlığın pozulmasına yönəldilən niyyətlər aradan qaldıldı. Ali Məclisdə

belə mühüm məsələlərin müzakirəsi və qərarların qəbul edilməsindən sonra görülən müvafiq tədbirlər nəticəsində muxtar respublikanın müdafiəsi möhkəmləndirildi, Naxçıvan-Türkiyə arasında dostluq körpüsü salındı. Həmin körpünün açılışı böyük qardaşlıq bayramına çevrildi.



Türkiyə Naxçıvana yardım məqsədilə 100 milyon dollar kredit ayırdı, Naxçıvanı Bakı ilə birləşdirən yeganə nəqliyyat yolu – Naxçıvan hava limanı yenidən quruldu. Türkiyədən, İrandan Naxçıvana ərzaq yardımları gəldi. Heydər Əliyev Türkiyədə və İranda rəsmi səfərlərdə oldu. Dövlət başçıları ilə görüşdü, əməkdaşlıq protokolları imzalandı. Danı-

şıqların nəticəsi olaraq Türkiyədən, İrandan Naxçıvana elektrik enerjisi verildi. Naxçıvanda Türkiyənin və İranın konsulluqları açıldı. Ameri- kadan Naxçıvana bir milyon dollar dəyərində humanitar yardım göndərildi. Naxçıvanda tam sabitlik yarandı. Bütün bunlar Heydər Əliyev zəkasının və nüfuzunun nəticəsində mümkün oldu. Beləliklə, muxtar respublikanı sıxan ağır blokada yarılmış oldu.

Naxçıvan əhalisi görürdü ki, hər gün gecə yarıdan keçsə də Ali Məclis binasının ikinci mərtəbəsində Heydər Əliyevin iş otağının işığı gecələr də sönmür. Şaxtalı günlərdə, elektrik enerjisi kəsiləndə isə bu böyük şəxsiyyət neft lampasının işığında soyuqda oturub işləyirdi. Adamlar pəncərədən gələn həmin işığa böyük ümidlərlə baxırdılar. Bilirdilər ki, Heydər Əliyev onların təhlükəsiz həyatının təminatı və dolanışıqlarının yaxşılaşdırılması barədə düşünür və yollar axtarır. Bu düşüncələr onları xeyli rahatlandırırdı. Naxçıvanlılar Heydər Əliyevə özlərinin nicatı kimi baxır, onun arxasında möhkəm dururdular. Onlar öz rəhbərlərini hər bir təhlükədən qorumaq üçün canlarından belə keçməyə hazır idilər.

Həmin ərəfədə Azərbaycanın bütün şəhər, rayon, kəndlərindən Heydər Əliyevə on minlərlə adamın imzaladığı teleqramlar, məktublar, müraciətlər axışıb gəlirdi. Azərbaycanın tanınmış elm adamları,



şair və yazıçılar, jurnalistlər, ictimai xadimlər Naxçıvana, Heydər Əliyevin yanına gəlir, onu Azərbaycanda hakimiyyətə gəlməyə çağırırdılar. Bütün bunlar dünyada tanınan böyük siyasi xadim Heydər Əliyevə xalq məhəbbətinin, xalq inamının böyüklüyünün miqyasını göstərirdi. Xalq Azərbaycanın bu böyük oğlunun siyasi uzaqgörənliyinə, təcrübəsinə, qabiliyyətinə, iradəsinə, biliyinə inanır və onu qiymətləndirirdi. Xalq inamının, ümidinin itdiyi bir vaxtda yalnız Heydər Əliyevə güvənc yeri kimi baxırdı. Ölkənin düçar edildiyi belə ağır məqamda onun kimi rəhbərə xalqın böyük ehtiyacı olduğunu bildirir, dünya şöhrətli siyasətçidən xahiş edirdilər ki, prezident seçkilərində namizədliyini irəli sürsün.



**Sədərək döyüşləri**

1992-ci il oktyabrın 16-da Azərbaycan ziyalılarının böyük bir qrupu Heydər Əliyevə müraciət edərək ondan yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsini xahiş etdilər. Səkkiz gün sonra mətbuatda Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavab verən "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubu dərc olundu. 1992-ci il 5 noyabr tarixdə respublika ziyalılarının YAP təşkilat komitəsinin yığıncağı keçirildi. Heydər Əliyev yekdilliklə təşkilat komitəsinin sədri seçildi. 1992-ci il noyabrın 21-də isə Naxçıvan şəhərində YAP-ın

təsis konfransı keçirildi və Heydər Əliyev açıq səs-vermə yolu ilə partiyanın sədri seçildi.

## QURTULUŞA GEDƏN YOL

*Azərbaycanın belə bir dalğın vəziyyətində, parçalanan vəziyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam. Azərbaycanı bu fəlakətdən xilas edim, parcalanmaqdan xilas edim. Mən öz üzərimə, dediyim kimi, böyük məsuliyyət götürmüşəm. Məsuliyyətdə ondan ibarətdir ki, dövlətimizi möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim.*

*Heydər Əliyev*

Qarşıdan daha çətin, daha doğrusu, dəhşətli bir il gəlirdi. Hakimiyyətə gəlmiş Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri hadisələrdən baş çıxara bilmir, ölkəni uçuruma aparırdılar. Bir tərəfdən Ermənis- tanın dərinləşən işğalı, digər tərəfdən xarici ölkələrə casusluq edənlər ölkədə qarşısıalınmaz böhran və xaos yaratmışdılar. 1993-cü ilin iyun ayında ölkədə yaranmış vəziyyətə görə gənc müstəqil dövlət parçalanma və məhv olma təhlükəsi ilə üzləşdi.

Gəncədə Surət Hüseynov üsyan qaldıraraq dövlətə qarşı çıxdı. Bir neçə ağsaqqal Surət Hüseynovla danışıq aparmaq üçün Gəncəyə getdi. Belə bir təklif olundu ki, Naxçıvan MR Ali Məclisi bu hadisəyə öz münasibətini bildirsin.

1993-cü il iunun 7-də Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabinetinin birgə iclası oldu. Ali Məclisin sədri Heydər Əliyev iclasda çıxış edərək bildirdi ki, Gəncədə baş vermiş hadisələrə Naxçıvan MR Ali Məclisi münasibət bildirməli və bəyanat qəbul olunmalıdır. Bizim bəyanatımız xalq birliyinə, sülhə və barışığa yönəlməlidir. Bu cinayətkarlığın təşkilatçıları məsuliyyətə cəlb olunmalıdır. Biz bu bəyanatda hadisələrə siyasi qiymət verməliyik. Xalq faciə – vətəndaş müharibəsi qarşısındadır. Buna heç cür yol vermək olmaz, əgər buna yol verilsə, onda bu, Azərbaycanın acınacaqlı sonu olar.

Bakıya gələn Heydər Əliyev İyunun 13-14-də Gəncə şəhərində oldu. O zaman Heydər Əliyev haki- miyyətə qayıdışı ilə yaranan vətəndaş müharibəsinin qarşısını almaqla, Azərbaycanı bölünmək, yox olmaq təhlükəsindən bir daha qorudu. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə seçildi.

Həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın iradəsi hər şeyə üstün gəldi və müstəqil Azərbaycan öz nicat yolunu seçdi və



görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışına dəstək verdi. Xalqı yeni bəladan-vətəndaş müharibəsindən yeganə qurtuluş yolunu müəyyən edən Heydər Əliyevin olduğunu zaman özü göstərdi. Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışı necə deyərlər, Azərbaycanı Azərbaycana qaytardı. O gün bütün Azərbaycan xalqı dərindən nəfəs aldı, nəhayət, illərdir arzusunda olduğu sevimli rəhbərinə qovuşmuşdu. Ancaq xalq onu özünün prezidenti kimi görmək istəyirdi. Çünki Əbülfəz Elçibəyin istefa vermədən Ordubadın Kələki kəndinə köçməsi ağır dövrdə Azərbaycanı başsız qoymuşdu. Ona görə də prezident seçkiləri keçirilməli oldu.



***1993-cü il H.Əliyevin Bakıya gəlişi, qurtuluş illəri***

1993-cü il oktyabr ayının 3-də Azərbaycan Respublikasında Prezident seçkiləri keçirildi. Mərkəzi Seçki Komissiyasının məlumatına görə Heydər Əlirza oğlu Əliyevin lehinə 98,8 faiz səs verilərək Azərbaycan prezidenti seçildi.

Dərin zəkası, xalq sevgisi və fövqəladə bacarığı və dərin siyasəti onu yenidən hakimiyyətin olimpinə yüksəltdi. Oktyabrın 10-da Respublika Sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirildi. Azərbaycan dövlətini məhv olmaq və parçalanmaq təhlükəsindən xilas edən Heydər Əliyevin müdrik rəhbərliyi ilə ölkədə əsaslı islahatlar yolu ilə uğurlu daxili və xarici siyasət xəttinin həyata keçirilməsi qısa müddətdə özünü aydın hiss etdirdi.



Heydər Əliyev Vətənin dar günündə yenə də onun yükünü öz çiyinlərinə götürdü. O, başa düşürdü ki, ilk növbədə irəliləyən Ermənistan ordularının hücumları müvəqqəti olsa da dayandırılmalı, ölkəni sarmış social, siyasi-iqtisadi böhranlar aradan qaldırılmalı, bütün sahələrdə islahatlar aparılmalı, daxili nizam-intizam yaradılmalı, qanunsuz hərbi hissələr ləğv edilməli, əvəzində nizami ordu yaradılmalıdır. Bunları etmədən Ermənistanın işğalının qarşısının alınması mümkün deyil, dahi Heydər Əliyev belə hesab edirdi. Həm də bu ağır problemlərin hamısı vaxt itirilmədən, çox qısa vaxtda həll olunmalı idi. Belə çətin və keçilməz məsələlərin zamanında həlli isə Heydər Əliyev qüdrəti



və siyasəti nəticəsində mümkün ola bilərdi və oldu da. Cəbhədə hərbi əməliyyatların dayandırılması üçün Azərbaycan Ordusu Ermənistan Silahlı Qüvvələrinə elə bir dərs verməli idi ki, işğalçı dövlətin rəhbərləri təşvişə salsın və onlar atəşkəsə məcbur olsunlar. Heydər Əliyev belə düşünürdü... Buna görə də qorxmaz rəhbər özü səngərlərimizə getdi, əsgər və zabitlərimizlə görüşərək onlarla söhbət etdi. Bir nəfər igid döyüşçüyə zabit rütbəsi verdi, digərlərinə isə hədiyyə olaraq saat bağışladı. Sevimli rəhbərin səngərlərə gəlməsi, pulemyotun arxasına keçib düşmən tərəfi müşahidə etməsi qoşunlarda döyüş əhval-ruhiyyəsini daha da yüksəltdi. Bir qədər sonra tərtib edilmiş planın işə salınmasına əmr verildi və yaxşı hazırlanmış qoşunlar hücuma keçdilər.

1993-ci ilin dekabrından başlayan və 1994-cü il yanvarın 6-na kimi davam edən irimiqyaslı döyüşlər

aparılan döyüşlərin biri idi. Ağır vuruşmalar nəticəsində Horadiz qəsəbəsi və 20 kənd işğaldan azad edildi. Qızğın döyüşlərdə fərqlənən 8 nəfər hərbi qulluqçu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. İlk dəfə olaraq Ermənistan ordusunun məğlubedilməzliyi barədə yaradılan süni mif dağıdıldı. Azərbaycan Ordusunda isə ruh yüksəkliyi hakim oldu. Gözlənilməz məğlubiyyətdən sonra vəziyyətin ağırlaşdığını görən Ermənistan rəhbərləri tərəflərin atəşkəs rejiminə əməl etməsini istədilər.

Ermənistanla aparılan gərgin danışıqlardan sonra 1994-cü il mayın 12-də atəşkəs razılığı əldə olundu. Bununla digər problemlərin həllinə əlverişli şərait yarandı. Düzdür, bəzi yerlərdə xırda məhəlli döyüş əməliyyatları aparılsa da, demək olar ki, irimiqyaslı hücumlar əsasən dayandırıldı.

Heydər Əliyev bundan məharətlə istifadə edərək olduqca qısa müddətdə ölkəni siyasi-iqtisadi böhranların cəngindən xilas etdi. İlk növbədə ölkədə taxıl və çörək çatışmazlığı aradan qaldırıldı, adamlar axşamdan səhərə qədər çörək növbəsində durmadılar. Qanunsuz silahlı dəstələr ləğv edildi, polis orqanları gücləndirildi, tüğyan edən cinayət- karlığın qarşısı alındı, hakimiyyətə silahlı çevriliş- lərlə, təhlükəli və qeyri-demokratik vasitələrlə gəlmək ənənələrinə birdəfəlik son qoyuldu.

Xarici ölkələrin alətinə çevrilərək Azərbaycanda gərgin vəziyyət yaradan Surət Hüseynov, Əlikram Hümbətov, Rəhim Qazıyev ifşa olunaraq cəzalandırıldılar, ölkəni parçalamaq niyyəti olan avantürist “Sadval” təşkilatı ləğv edildi. Xarici qüvvələrin təsiri ilə Bakıda, 8-ci kilometr adlanan yerdə silahlı qiyam qaldırmış polkovnik Rövşən Cavadov döyüşdə öldürüldü. Bundan sonra qarşıda yalnız Qarabağ problemi qaldı. Heydər Əliyev dünya dövlətlərinin dəstəyini qazanmaq üçün Qarabağ problemini Azərbaycanın xaricinə çıxar- mağa cəhd etdi və buna nail oldu. O, xarici ölkələrə səfərlərində həmin ölkələrdə yaşayan azərbaycanlılarla, jurnalistlərlə, dövlət və ictimai-siyasi xadimlərlə görüşlərində xəritə önündə dayanaraq Qarabağ həqiqətlərini özünəməxsus səbr və təmkinlə onlara çatdırırdı.

Daim narahat olan Ümummilli Liderimiz yeni yollar arayır, bütün siyasi, diplomatik gediışlərdən istifadə edərək Qarabağ münaqişəsini həll etməyə çalışırdı. Görkəmli siyasətçi və dövlət xadimi yaxşı bilirdi "Qarabağ düyünü"nün açarı Moskvadadır. Ancaq Kremldə yuva salmış ermənilər və erməni- pərəstlər orada keçilməz maneə yaradıblar. Heydər Əliyev çəkinmədən maneənin üstünə getməyi planlaşdırdı. O, həm də Boris Yeltsinlə danışıqlar aparmağı məsləhət bildi.

1995-ci il oktyabr ayının 22-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Nyu-Yorkda Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin ilə görüşdü. Söhbət zamanı prezidentlər ölkələri arasındakı münasibətlərin inkişaf etdi- rilməsi, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması, ATƏT-in Minsk qrupunun fəaliyyəti, münaqişənin həllində Rusiyanın oynaya biləcəyi rol barədə məsələləri müzakirə etdilər.

Azərbaycan Prezidenti ABŞ-a yola düşməzdən bir gün əvvəl Rusiya və Finlandiya prezidentlərinin birgə imzaladıqları məktubu böyük məmnuniyyətlə aldığını qeyd etdi. Məktuba görə təşəkkürünü bildi- rən Azərbaycan rəhbəri bunu müsbət addım kimi qarşıladığını söylədi.

Prezident Boris Yeltsin münaqişənin sülh yolu ilə həllinə Rusiyanın da maraqlı olduğunu bildirdi. On yeddi aydan bəri davam edən atəşkəsin böyük nailiyyət olduğunu vurğulayan Rusiya Prezidenti uzunmüddətli sülh əldə edilənə qədər atəşkəs rejiminin qorunub saxlanılmasının vacibliyini xüsusi qeyd etdi. Sonra Prezident Yeltsin münaqişə edən tərəflər arasında birbaşa dialoq aparılmasının mühümlüyünü vurğuladı. O, göndərdikləri məktuba Heydər Əliyevdən cavab gözləyəcəklərini və bundan sonra növbəti addımlar atmaq barədə düşünəcəklə- rini söylədi.

Prezident Heydər Əliyev danışıqlarda prezident- lərə Azərbaycanın konstruktiv mövqe tutduğunu, münaqişənin həll olunması naminə bir sıra güzəştlərə gedə biləcəyini də vurğuladı. Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunmasının, həmin ərazilərdən didərgin düşmüş bir milyondan çox azərbaycanlı köçkün və qaçqının öz yurdlarına qayıtmasının, Azərbaycanın ərazi bütövlüyünü, dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sərhədlərinin toxunulmazlığının təmin edilməsinin Azərbaycan üçün əsas prinsiplər olduğunu vurğulayan Prezident Heydər Əliyev Azərbaycanın atəşkəs rejiminə bundan sonra da əməl edəcəyini söylədi.

Görüşdə prezidentlərə mütləq cavab məktubu yazacağını söyləyən Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, bölgədə sülhün bərqərar olunması üçün Rusiya öz nüfuzundan istifadə edəcək və səylərini davam etdirəcəkdir. Lakin alkoqollu içkilərdən başı daim dumanlı olan Boris Yeltsinin Azərbaycana isti münasibəti olmadığından və erməni "qardaşlarının" təsirindən uzaqlaşa bilmədiyindən Nyu-Yorkda danışılanlar elə söz olaraq qaldı. Rusiya kimi nəhəng bir dövlətin başçısı ermənilərin çirkin məqsədlərinə görə şəxsiyyətinə ləkə gətirdi və yalan danışdı, verdiyi vədlərə əməl etmədi.

Heydər Əliyev hesab edirdi ki, məhz Rusiya Azərbaycanı informasiya blokadasında saxlamaqla ona böyük zərbə vurmuşdur. Bir çox dünya ölkələrində insanlar Azərbaycanı günahkar, erməniləri isə əzilən, torpağı əlindən alınmış, zülmlərə məruz qoyulmuş millət kimi tanıyırdılar. Bu, Sovet hakimiyyətinin köməyi ilə erməni diasporunun xarici ölkələrdə apardığı çirkin təbliğatın acı nəticəsi idi. Polad iradəli rəhbər erməni təbliğat maşınını sındırmaqla, əsl həqiqətlərin dünya xalqlarına çatdırılmasında böyük əhəmiyyətə malik işlər gördü. Bunun üçün o, ölkələrdə Azərbaycan diasporunun formalaşmasını və qüvvətlənməsini vacib saydı.

1994-cü il sentyabrın 29-da Azərbaycan rəhbəri Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından istifadə etmək imkanından maksimum dərəcədə yararlandı. Belə bir mötəbər kürsüdən edilən çıxış bütün dünyanın diqqətində oldu və böyük effekt verdi. Aşağıda Ulu Öndərin həmin çıxışı heç bir müdaxilə edilmədən oxucuların diqqətinə çatdırılır.

BMT Baş Məclisinin 49-cu sessiyasinda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı-Nyu-York, 29 sentyabr 1994-cü il.

Hörmətli cənab sədr!

Hörmətli cənab baş katib!



***Heydər Əliyevin BMT-də çıxışı***

Xanımlar və cənablar!

Hər şeydən əvvəl icazə verin, BMT Baş Məclisi 49-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə Amar Essi cənablarını təbrik edim və ona fəaliyyətində uğurlar arzulayım. Həmçinin ötən sessiyanın sədri cənab İnsanelliyə də gördüyü işə görə təşəkkürümü bildirmək istəyirəm.

BMT-nin baş katibi, zati-aliləri Butros Qali cənablarına bütün dünyada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş yorulmaz səylərinə görə təşəkkürümü bildirirəm.

Mən öz tarixinin çətin dövrünü yaşayan gənc dövlətimizin problemlərinə diqqətlə yanaşdığına görə ona xüsusən minnətdaram.

Xanımlar və cənablar!

Ən mötəbər beynəlxalq məclisin tribunasından sizin qarşınızda həyəcan və qürur hissi ilə çıxış edirəm. İlk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti Dünya Birliyi tərəfindən tanınmış və bərqərar hüquqlarla onun tərkibinə daxil olmuş öz ölkəsini Dünya Birliyinə təqdim edir.

Azərbaycan xalqı əsrlərlə azadlığa can atmışdır. Sovet İttifaqı dağıldıqdan sonra o, milli müstəqillik qazanmışdır. Bizim respublikamız qətiyyətlə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur. Bütün bunlar mürəkkəb prosesdir, bir günün işi deyil, lakin biz qarşıya qoyulmuş məqsədə doğru ardıcıl surətdə irəliləyirik və qısa bir dövr ərzində çox işlər görülmüşdür, hüquqi demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər.

Siyasi dəyişikliklər ölkənin demokratikləşdirilməsi, bazar münasibətlərinə keçidi təmin edən dərin iqtisadi islahatlar aparılması üçün şərait yaratmışdır. Biz sərbəst sahibkarlığın inkişafını, şəxsi təşəb- büskarlığı hər vasitə ilə təşviq edirik, ümumbəşəri sərvətlərə əsaslanan dünya təcrübəsindən, sivili- zasiyalı, çiçəklənən demokratik cəmiyyət quruculu- ğunda böyük uğurlara nail olmuş qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə edərək geniş- miqyaslı özəlləşdirmə proqramının həyata keçiril- məsinə başlayırıq.

Biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə – Avropa və Asiyanın mühüm coğrafi-siyasi qovuşuğunda yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə döğru yönəldilmiş bu strateji xətti aparırıq. Bu gün mən bu yüksək tribunadan qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz və biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq.

Bizim nikbinliyimiz dünyada baş verən tarixi proseslərlə, beynəlxalq münasibətlər sistemindəki ciddi dəyişikliklərlə də bağlıdır. Şübhəsiz ki, artıq hərbi cəbhələşməni və ideoloji qarşıdurmanı əvəz

etməkdə olan bərabərhüquqlu dünya qaydası beynəlxalq münasibətlər sisteminin gələcək əsasını təşkil edəcəkdir. Beynəlxalq hüquqa, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə və müddəalarına uyğun olaraq tərəfdaşlıq, möhkəm sülh və hamı üçün təhlükəsizlik yeni dünya qaydasının fundamental prinsiplərinə çevrilir. Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünya- sından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq.

Lakin bəşəriyyət qarşısında duran təhlükələr hələ heç də tamamilə aradan qaldırılmamışdır. Hələ də köhnə stereotiplər mövcuddur, on illərlə davam etmiş qarşıdurma dövrü ərzində yığılıb qalmış çoxsaylı problemlər, xüsusən tərksilah, kütləvi qırğın silahının məhv edilməsi sahəsindəki prob- lemlər aradan qaldırılmamışdır. İqtisadi imkanları müxtəlif olan dövlətlərin münasibətləri də əvvəlki kimi, yenə də keçmişin bəlalarına düçar olmuşdur. Zaman ekoloji təhlükələr, əhali və inkişaf prob- lemləri ilə əlaqədar bizi yeni-yeni sınaqlara çəkir.

Köhnə dünya qaydasının pozulmasının real- lıqlarına çevrilmiş azğın millətçilik və separatçılıq Qafqazı, Balkan yarımadasını, Yer kürəsinin başqa

nöqtələrini od-alova və qana bürüyən münaqişələr doğurmuşdur. Bu münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmlən- məmiş demokratik cəmiyyətlərin varlığı üçün birbaşa təhlükə doğurur, həm də bütün dünyada sülh və təhlükəsizlik üçün qorxu yaradır.

Buna görə də cəbhələşmədən sonrakı dünyada nüfuzlu beynəlxalq təşkilatların, böyük dövlətlərin üzərinə xüsusi məsuliyyət düşür. Onlar öz siyasi sanbalından, iqtisadi, maliyyə və hərbi imkanlarından istifadə edərək münaqişələrin aradan qaldırılmasına, Yer üzünün bütün guşələrində sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə öz potensialını daha fəal yönəltməlidirlər. Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq göstərməlidir. Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir.

Biz Baş Məclisin roluna böyük əhəmiyyət veririk. Bu rolu hər şeydən əvvəl onda görürük ki, qarşılıqlı güzəştlərə və mənafelərin tarazlığına əsaslanan qərarlar qəbul edilərkən dövlətlərin ən sıx qarşılıqlı fəaliyyəti təmin edilsin.

İndiki şəraitdə BMT baş katibinin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, habelə beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində baş katib ilə birlikdə məsuliyyət daşıyan üzv dövlətlərin ona göstərməli olduqları köməyin əhəmiyyəti də artır.

Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmaq əzmindədir.

Hörmətli xanımlar və cənablar!

Sizin bir çoxunuza "müharibə", "silahlı münaqişə" məfhumları xoşbəxtlikdən, tarixi və ya evinizdən uzaqda baş verən hadisələri xatırladırsa, mənim xalqım üçün bu, amansız reallıq, qanlı-qadalı adi günlərdir.

Altı ildir ki, Azərbaycan torpağını müharibə alovu bürüyüb. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik qrupunun öz müqəddəratını təyin etmək

hüququnu reallaşdırması bəhanəsi ilə dövlətimizin ərazilərinin ilhaqı, onun dövlət sərhədlərinin zorakılıqla dəyişdirilməsi və azərbaycanlı əhalinin öz doğma ev-eşiyindən qovulması planlarını açıq- aşkar həyata keçirir.

Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür yozulması dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd amansız münaqişələrə gətirib çıxarır. Biz regionumuzda və planetimizin başqa guşələrində bunun şahidi olmuşuq.

BMT-nin baş katibi cənab Butros Qali də bu məsələ ilə əlaqədar öz narahatlığını bildirmişdir. "Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır".

Mən hörmətli Butros Qalinin belə bir fikri ilə də tam şərikəm ki, "təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və

müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birinə ziddiyyət təşkil etməsinə yol vermək olmaz".

Regionumuzda baş verən hadisələr haqqında dünya ictimaiyyətinin kifayət qədər məlumatlı olmadığını, bəzi hallarda işə birtərəfli məlumatı olduğunu bilərək sizi real vəziyyətlə qısaca tanış etmək istərdim. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində qoşun qruplaşması yaradaraq respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır. Şuşa şəhəri və Laçın rayonu işğal edildikdən sonra Dağlıq Qarabağın ilhaqı başa çatdırılmış, Dağlıq Qarabağda yaşayan təxminən 50 min azərbaycanlı oradan qovulmuşdur. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ platsdarmından istifadə edərək bundan sonra hücumun gedişində Azərbaycanın digər altı rayonunu – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından Laçın rayonu kimi kənarda olan və sahəsi keçmiş vilayətin sahəsindən dörd dəfə cox olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal etmişlər.

Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Mən Azərbaycan tərəfinin dəhşətli itkilərini sizə deməliyəm: 20 mindən cox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir

düşmüşdür, bir milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır. Onlar öz vətənində evsiz-eşiksiz qalmışlar, yayın istisindən, qışın soyuğundan, epidemiyalardan əzab çəkirlər, ən zəruri şeylərə ehtiyac duyurlar. Azərbaycanın işğal edilmiş ərazilərində 700 şəhər və kənd dağıdılmışdır. Həmin şəhər və kəndlərdə demək olar, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və talan edilmiş, qədim mədəniyyət abidələri məhv edilmişdir.

Zənnimcə, sübut etməyə ehtiyac yoxdur ki, belə bir vəziyyətdə biz "öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi" ilə deyil, beynəlxalq hüququn kobudcasına pozulması ilə, BMT üzvü olan dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı təcavüzlə qarşılaşmışıq.

Müharibə xalqımı dözülməz vəziyyətə salır, sosial gərginliyi gücləndirir, Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsinə yönəldilmiş iqtisadi və siyasi islahatların həyata keçirilməsinə mane olur.

Müharibə nəticəsində Azərbaycan xalqına milyardlarla Amerika dolları məbləğində çox böyük maddi ziyan vurulmuşdur. İnsan talelərinə vurulmuş mənəvi ziyan, xalqın dərd-bəlası isə heç nə ilə ölçülməzdir.

Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar

müharibə gedən yerlərdə baş verən faciəli hadisələrə biganə qalmamalıdırlar. Silahlı münaqişələrin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasına nail olmaq üçün kollektiv səylərlə hər şey etmək lazımdır.

Xanımlar və cənablar!

Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir.

Bütün qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiq edir, ərazi ələ keçirmək üçün zor tətbiq edilməsinin yolverilməzliyini qeyd edir, Azərbaycanın işğal edilmiş bütün rayonlarından bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd- şərtsiz çıxarılmasını, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasını qətiyyətlə tələb edir.

Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur. Bundan əlavə o, Azərbaycanın işğal edilmiş ərazilərində öz hərbi qüvvələrini artırmaqda davam edir.

Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret

halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?

Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər.

Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlərlə möhkəmləndirildikdə müvəffəqiyyət gətirir.

Beynəlxalq hüquq normalarını kobud surətdə pozan dövlət barəsində təsirli tədbirlər çox nüfuzlu beynəlxalq təşkilatın Dünya birliyi qarşısında borcudur.

Ermənistan – Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün göstərilən səylərdə biz ATƏM kimi nüfuzlu təşkilata da bel bağlayırıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏM-in yaratdığı Minsk qrupu da işğal edilmiş bütün ərazilərin azad olunması və işğalçı qüvvələrin Azərbaycanın hüdudlarından tamamilə çıxarılması, onun suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət edilməsi zəruriliyinə əsaslanır.

Lakin ATƏM-in müvafiq mexanizmləri olmadığından onun çoxsaylı vasitəçilik səyləri, təəssüf ki, indiyədək hər hansı bir nəzərəçarpacaq konkret nəticələrə gətirib çıxarmamışdır. Bu gün biz yalnız bir müsbət nəticə əldə etmişik: Rusiya Federasiyasının və ATƏM-in Minsk qrupunun çox böyük səyləri bahasına və fəal vasitəçilik missiyası sayəsində münaqişə zonasında atəşkəs əldə olunmuşdur.

Dörd aydan çoxdur ki, atəş səsləri eşidilmir, qan tökülmür. Bütün bunları biz yüksək qiymətləndiririk. Lakin vəziyyət hər halda son dərəcə mürəkkəb olaraq qalır, atəşkəs isə olduqca kövrəkdir.

Ermənistan Respublikası Azərbaycanın işğal edilmiş ərazilərinin bir hissəsini Azərbaycan Respub- likasının Dağlıq Qarabağ regionunun müstəqillik statusu ilə dəyişdirmək kimi əsassız şərtlər irəli sürür. O, Azərbaycanın bu regionunda öz hərbi qüvvələrinin qalmasını və Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu üzərində nəzarətinin saxlanmasını tələb edir ki, bu da əslində ərazilərimizin ilhaqının təsbit edilməsi deməkdir.

Ermənistan münaqişənin başlanmasınadək Dağlıq Qarabağda mövcud olmuş demoqrafik vəziyyətin bərpasını və azərbaycanlı əhalinin oraya qaytarılmasını, o cümlədən Azərbaycan mədəniyyətinin ən qədim mərkəzlərindən biri olan Şuşaya qaytarılmasını tamamilə istisna edir.

Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədən, bu şərtlərlə beynəlxalq aralayıcı qüvvələri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunun perimetri boyunca yerləşdirməyi təklif edərək onları vəziyyətin konservasiyası alətinə, öz ilhaqçı siyasətinin girovuna çevirməyə cəhd göstərir.

Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni təhlükəsizliyinə zəmanət verməyə hazırıq. Biz regionda kommunikasiyaların, o cümlədən Dağlıq Qarabağ ilə Ermənistan Res- publikası arasında humanitar dəhlizin normal işini qarşılıqlı əsasda bərpa etmək tərəfdarıyıq. Biz, lazım gələrsə, münaqişə zonasında beynəlxalq sülhpərvər qüvvələrin yerləşdirilməsinə razıyıq. Biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu da müzakirə etməyə hazırıq.

Lakin bizim üçün sarsılmaz normalar və prinsiplər də var, bu, Azərbaycanın suverenliyi və ərazi bütövlüyüdür, işğal olunmuş bütün ərazilərin azad edilməsidir, qaçqınların və məcburi köçkünlərin öz doğma ocaqlarına, Yuxarı Qarabağa – öz vətəninə qaytarılmasıdır.

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldıraraq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə sabit və əməli danışıq prosesi aparmaq olar.

Həm də biz beynəlxalq normalara uyğun olaraq sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində Dünya Birliyinin köməyinə ümid bəsləyirik.

Biz atəşin kəsilməsi haqqında əldə edilmiş razılığı yüksək qiymətləndirərək başa düşürük ki, bu hələ sülh demək deyil, lakin atəşkəs tezliklə sülh əldə edilməsi üçün lazımi şərait yaradır. Biz sülh sazişi əldə edilənədək və silahlı münaqişəyə tamamilə son qoyulanadək atəşkəs rejiminə əməl etmək əzmində olduğumuzu dəfələrlə bildirmişik. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından bunu bir daha bəyan edirəm.

Biz ATƏM-in Minsk qrupunun və Rusiya Federasiyasının sülhpərvər fəaliyyətini müdafiə edərək onların səylərinin birləşdirilməsinə tərəfdarıq, münaqişənin aradan qaldırılmasında birincilik uğrunda hər hansı bəhsləşmənin əleyhinə çıxırıq. Belə

bəhsləşmə Azərbaycan və Ermənistan xalqlarının eyni dərəcədə ehtiyac duyduqları sülhün əldə edilməsini yalnız çətinləşdirə bilər.

Azərbaycanın işğal olunmuş ərazilərinin tamamilə azad edilməsi barədə tələblərimiz hüquqa uyğun tələblərdir, onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tamamilə uyğundur. Hər hansı bir rayonun ilhaqına cəhd göstərilməsi bizim üçün məqbul deyil və beynəlxalq hüquq normalarına ziddir.

Müharibəyə cəlb olunmağımız nəticəsində respublikada son dərəcə ağır humanitar vəziyyət yaranmışdır. Qaçqınlar və köçkünlər misilsiz məhrumiyyətlərə düçar olaraq çadır düşərgələrində yaşayırlar. Amansız qış şəraiti, kifayət qədər qida, dava-dərman olmaması əhalinin ən imkansız olan bu qrupu arasında epidemiya və aclıq təhlükəsi yaratmışdır. Qaçqınlar ilə əlaqədar ekstremal vəziyyətin aradan qaldırılması Azərbaycan dövlətinin başlıca qayğılarından birinə çevrilmişdir.

Respublikamızın təcili çağırışına beynəlxalq təşkilatlar, bir sıra dövlətlər səs verdilər və biz Azərbaycana humanitar yardım göstərilməsində BMT proqramlarının ən iri donorları olan İsveç, Böyük Britaniya, Almaniya, Yaponiya, İsveçrə, Niderland, Danimarka hökumətlərinə ən səmimi minnətdarlığımızı bildiririk.

Biz, həmçinin ikitərəfli əlaqələr xətti ilə Azərbaycana xeyli humanitar yardım göstərən Türkiyənin, İranın, Səudiyyə Ərəbistanının və digər ölkələrin hökumətlərinə də minnətdarıq.

Biz Azərbaycanda qaçqınlara və köçkünlərə mühüm kömək göstərmiş BMT-nin qaçqınların işi üzrə ali komissarı idarəsinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə, BMT-nin uşaq fonduna, "Həkimlər sərhəd tanımır" təşkilatına, çoxsaylı qeyri-hökumət təşkilatlarına da minnətdarıq.

Hörmətli xanımlar və cənablar!

Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir.

Məhz öz xüsusiyyətlərimizi başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq.

Azərbaycan Respublikası beynəlxalq miqyasda tanındığı vaxtdan etibarən biz əksər ölkələrlə bərabərhüquqlu, tarazlaşdırılmış münasibətlər yaratmış və bir çöx ümumdünya və regional təşkilatlara daxil olmuş, beynəlxalq münasibət- lərimizin genişləndirilməsi, müəyyən səbəblər

üzündən itirilmiş əlaqələrin bərpa edilməsi üçün ciddi səylər göstərmişik.

Biz keçmiş SSRİ-nin ərazisində yaranmış müstəqil dövlətlərlə tarixi, coğrafi, iqtisadi və humanitar əlaqələrə xüsusi əhəmiyyət verərək, istər ikitərəfli münasibətlər əsasında, istərsə də Müstəqil Dövlətlər Birliyi çərçivəsində onlarla, xüsusən Rusiya ilə bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdar çıxırıq.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya Birləşmiş Krallığı, Fransa, Çin ilə Azərbaycanın dostluq əlaqələri müvəffəqiyyətlə inkişaf edir. Regionumuzun və yaxın regionların Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan kimi ölkələri ilə bizi sıx, mehriban qonşuluq telləri birləşdirir. Bu ölkələrlə biz İslam Konfransı Təşkilatı çərçivəsində də sıx əməkdaşlıq edirik.

Bu ilin mayında NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına Azərbaycanın qoşulması onun siyasi həyatında mühüm hadisə oldu. Bu proqramda bizi ümumi təhlükəsizlik mənafeyi naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət cəlb edir. Mən Varşava müqaviləsinin keçmiş üzvlərinin bu proqrama qoşulmasını alqışlayıram. Bu, bütün Avrasiya qitəsində ümid yaradır ki, gələcəkdə onu sülh şəraitində əməkdaşlıq gözləyir və bu əməkdaşlıq bütün xalqların təhlükəsizliyini, inkişafını və

tərəqqisini təmin edəcək, yeni cəbhələşmə bloklarının yaranması imkanını həmişəlik aradan qaldıracaqdır. Biz ümid edirik ki, NATO proqramında iştirak Avropada təhlükəsizliyin yeni binasının yaradılmasında ölkəmizin rolunu artıracaqdır.

Bu il Azərbaycan Respublikasına bloklara qoşulmamaq hərəkatında müşahidəçi statusu verilmişdir ki, bu da müxtəlif sahələrdə ikitərəfli əlaqələri qaydaya salmaq və həmin hərəkatın üzvləri olan ölkələrlə mövqelərimizi yaxınlaşdırmaq üçün qarşımızda geniş imkanlar açır.

1992-ci ilin yanvarında gənc Azərbaycan dövlətinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv qəbul edilməsi onun təşəkkülü prosesində mühüm mərhələ oldu. BMT-yə daxil olan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlığımızın miqyası həmin vaxtdan etibarən artır. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə qarşılıqlı fəaliyyətimiz bizim üçün xüsusən dəyərlidir. Dünyanın bu ən iri maliyyə təsisatları mütəxəssislərinin Azərbaycandakı əməli işi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət daşıyan konkret layihələr müəyyənləşdirilmişdir.

Güman edirik ki, beynəlxalq maliyyə təsisatları ilə səmərəli əməkdaşlığımız üçün böyük imkanlar vardır. Biz Azərbaycan Respublikasının düçar olduğu faktiki

müharibə vəziyyəti ilə əlaqədar Beynəlxalq Valyuta Fondunun və Ümumdünya Bankının rəhbərlərinin ehtiyat etdiyini və narahatlıq keçirdiyini başa düşürük. Lakin eyni zamanda, Beynəlxalq Valyuta Fondu bizimlə müharibə aparan Ermənistana sabitləşdirmə krediti vermişdir. Belə hesab edirik ki, ədalət bu məsələdə heç olmasa simmetrik münasibət tələb edir.

Biz bazar iqtisadiyyatı infrastrukturunun təşəkkül tapması, ölkənin müasir idarəetmə səviyyəsinə çıxarılması, qabaqcıl texnologiyaların tətbiqi sahəsində milli proqramların hazırlanmasına texniki yardım göstərilməsi işində BMT-nin ətraf mühitə dair proqramından çöx şey gözləyirik.

Biz beynəlxalq iqtisadi əməkdaşlığa xüsusi əhəmiyyət veririk və mən böyük məmnuniyyət hissi ilə sizə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı sahəsində bir sıra iri dünya şirkətlərinin konsorsiumu ilə 30 illik müqavilə imzalamışdır. Bu, uzun sürən çətin danışıqların yekunudur.

Bu iri iqtisadi tədbir dünya üçün açıq olmaq siyasətimizin, iqtisadiyyatın sərbəstləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi siyasətimizin sübutudur. Belə bir nadir müqavilənin imzalanması əməkdaşlığın möhkəmləndirilməsinə, onun həyata

keçirilməsində iştirak edən Azərbaycanın, ABŞ-ın, Rusiyanın, Böyük Britaniya Krallığının, Türkiyənin, Norveçin, Səudiyyə Ərəbistanının xalqlarının və ölkələrinin yaxınlaşmasına kömək edəcəkdir. Bu barədə danışarkən mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Dünya Birliyi ilə tamhüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir. Buna görə də onun siyasəti sülhə əsaslanır və biz buna nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyirik.

Hörmətli xanımlar və cənablar!

Azərbaycan xalqı məni özünün gənc müstəqil dövlətinin prezidenti seçərək mənə çox böyük etimad göstərmişdir və bu gün mən onun ən xoş arzu və diləklərini sizə çatdırmaq şərəfinə nail oldum.

BMT Baş Məclisinin bu yüksək tribunasını belə bir ümidlə tərk edirəm ki, siz xalqımın səsini eşidəcəksiniz, xalqımın səsi ürəklərinizə yol tapacaqdır."

Heydər Əliyevin BMT-nin tribunasından etdiyi bu tarixi çıxış sessiyada iştirak edən dövlətlərin başçılarında və beynəlxalq təşkilatların təmsilçilə- rində Azərbaycan həqiqətləri barədə dərin təəssürat yaratdı. Azərbaycan rəhbəri orada bildirdi ki, biz Ermənistanla danışıqların tərəfdarıyıq. Əgər lazım gəlsə güzəştlərə də getməyə hazırıq. Dağlıq

Qarabağın statusuna yenidən baxılmasına razıyıq. Ona görə ki, Yuxarı Qarabağdan və Qərbi Azərbaycandan (indiki Ermənistan) qovulmuş bir milyona qədər qaçqın və məcburi köçkün düşmüş əhalimizin öz dogma yurdlarına qayıtmasını istəyirik. Ancaq bununla bərabər bizim toxunulmayan dəyərlərimiz də var. Biz heç vaxt ərazimizdə ikinci erməni dövləti yaradılmasını qəbul edə bilmərik. Bu, bizim müqəddəs və keçilməz səddimizdir. Çıxışının sonunda Heydər Əliyev tələb etdi ki, beynəlxalq təşkilatlar dövlətlər qarşısında götürdükləri öhdəlikləri yerinə yetirməli, ikili standartlara yol verilməməli, ədalət prinsipi pozulmamalı və onlara olan inamı özləri qırmamalıdırlar. Ermənistanın işğalçı hərəkətlərinin qarşısı alınmalı və məcbur edilməlidir ki, hamının birləşdiyi beynəlxalq təşkilatın qərarlarına hörmət etsin, əks halda bütün dünyada xaos yarana bilər. Təəssüf ki, Ermənistan öz nümunəsində artıq buna doğru addım atıb. O, hətta BMT kimi təşkilatın qərarlarını da yerinə yetirmir.

BMT sessiyasından iki il sonra, 1996-cı il dekabrın 24-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı keçirildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişə- sinin nizama salınmasının baza formulu ilk dəfə məhz bu görüşdə müəyyən edildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çevik və

dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına nail oldu. Ermənistan Respublikası istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu prinsiplər aşağıdakılardır: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaradıldı və vasitəçilərin vəzifələri müəyyən olundu.

Heydər Əliyevin son dərəcə ölçülü-biçili siyasəti Azərbaycana siyasi dividentlər qazandırırdı. Ermənistan prezidenti Levon Ter-Petrosyan Heydər Əliyevin təklifləri ilə əsasən razılaşsa da ancaq xarici təsirlərdən yaxa qurtara bilmirdi. Moskvadan idarə olunan və Ermənistanda yüksək vəzifələr tutan Qarabağ erməniləri Lissabon sammitində əldə olunmuş razılaşmaları pozmaq məqsədilə onun əleyhinə çıxdılar. Çünki onlar münaqişənin bitməsini qətiyyən istəmirdilər. Siyasi ədəbiyyatlarda deyil- diynə görə onlar bunu öz başları ilə deyil, kənar



qüvvələrin təsiri və təzyiqi ilə edirdilər. Əvəzində ağaları onlara yaxın vaxtda hakimiyyətə gətiriləcəklərini vəd vermişdilər. Beləliklə, münaqişəni uzatmadan həll etmək fikrində olan Levon Ter-Petrosyan istefaya məcbur edildi.

3 fevral 1998-ci ildə Levon Ter-Petrosyan baş nazir Robert Koçaryan, müdafiə naziri Vazqen Sarkisyan, daxili işlər və milli təhlükəsizlik naziri olan Serjik Sarkisyanla Qarabağ münaqişəsinin həlli ilə əlaqədar yaranmış narazılığa görə sonuncular tərəfindən istefa verməyə məcbur edildi. Belə ki, Levon Ter-Petrosyan Minsk qrupunun təklif etdiyi "Mərhələli həll" variantının Ermənistan üçün məqbul ola biləcəyini düşünürdü. Sonradan tale göstərdi ki, Ter-Petrosyan

öz fıkrində haqlı imiş. Lakin radikal mövqe tutan, əslən Qarabağdan olan güc nazirləri və baş nazir buna qarşı idilər. O zaman bunun səbəbi yalnız çox məhdud dairədə olan yüksək vəzifəli şəxslərə məlum idi.

Həmin ilin mart ayında yeni prezident Qarabağ ermənisi Pobert Koçaryan oldu. Bununla da Ermənistan "Qarabağ klanı"nın əlinə keçdi və onlar hakimiyyətdə qalmaq üçün Qarabağ münaqişəsinin həllini mümkün qədər uzatmağa çalışdılar. Avantüristlər belə hesab edirdilər ki, Qarabağ münaqişəsini onillərlə uzatmaqla onu əbədi etmək lazımdır. Azərbaycan isə nə vaxtsa bezərək bu məsələni yaddan çıxarar. Ancaq hər şey onların düşündükləri kimi olmadı.

Zaman keçdikcə Azərbaycan istər hərbi, istər informasiya, istərsə də siyasi sahələrdə Ermənistanı üstələdi, dünya Azərbaycan həqiqətlərini gördü. Uzaqgörən siyasətçi Heydər Əliyev 1994-cü ildə neft strategiyasını həyata keçirməklə dünyanın nəhəng dövlətlərində ölkəmizə rəğbət qazandırdı. Həmin il sentyabrın 20-də ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, İtaliya, Rusiya, Yaponiya və digər böyük dövlətlərin başçılarının iştirakı ilə "Əsrin neft kontraktları" adlandıılan müqavilə imzalandı. Bu müqavilə Azərbaycanın təhükəsizliyi üçün çox böyük əhəmiyyət kəsb etdi. Çünki müqaviləni imzalayan nüfuzlu dövlətlər Azərbaycana hər hansı təzyiqin

əleyhinə çıxırdılar. Digər tərəfdən, erməni dias- porunun Azərbaycan haqqında yaydığı informa- siyaların tamamilə yalan olduğu sübut olundu.

Heç bir dövət, o cümlədən Ermənistanın özü qondarma Dağlıq Qarabağ Respublikasını tanımadı. Hamı Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirdi, təkcə Ermənistandan başqa. BMT-nin Təhlükəsizlik Şurası Qarabağ münaqişəsinə görə 4 qətnamə qəbul etdi və onların hər birində Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi kimi qəbul olundu. Qətnamələrdə Ermənistandan tələb olunurdu ki, öz qoşunlarını suveren Azərbaycan Respublikasının ərazisindən dərhal və heç bir qeyd-şərt olmadan çıxarsın. Buna baxmayaraq Ermənistan rəhbərləri inad göstərərək işğalı davam etdirir, beynəlxalq təşkilatların tələblərini qulaqardına vururdular. İşğalçı qoşunların əsgər və zabitləri Azərbaycanın şəhərlərini, kənd və qəsəbələrini talan edərək Ermənistana aparır, daşıya bilmədiklərini yandırıb külə döndərir, qəbiristanlıqları, qiymətli maddi-mədəniyyət, dini və tarixi abidələri dağıdıb yerlə-yeksan edirdilər. Tək-tək salamat saxladıqları və müvəqqəti yaşadıqları kəndlərin ad göstəricilərini çıxarıb atır, onlara əcaib erməni adları qoyurdular. Əvvəllər çox qorxduqları ağdamlılardan qisas almaq üçün ermənilər Ağdam şəhərini tamamilə dağıtmış və daşı daş üstdə qoymamışdılar. Ağdam işğaldan azad ediləndən sonra şəhərin tükürpədici və qandonduran mənzərəsini seyr

edən xarici jurnalistlərdən biri heyrətə gələrək şəhəri "Qafqazın Xirosiması" adlandırmışdı. Şəhərdəki məscidlər və dini ibadət yerləri, ziyarətgahlar dağıdılaraq torpaqla bərabərləşdirilmişdi.

Rayonlardakı alban kilsələrini isə erməni kilsəsinə çevirmək üçün onların daş-divarlarına xaçlar və digər erməni rəmzləri yerləşdirir, uydurma tarix yazaraq erməniləşdirirdilər. Kəlbəcər rayonunun Xudavəng kəndində yaşı təxminən 1200 ilə çatan qədim alban kilsəsində isə erməni keşişləri əyləşdirilmişdi. Kəlbəcər azad olunandan sonra məlum oldu ki, İrəvanda bu işlərlə məşğul olan xüsusi emalatxana var. Orada Azərbaycan abidələrinin erməniləş- dirilməsi işləri aparılır. Həmin emalatxanada daş xaçkarlar hazırlanır, daş kitabələr və mətnlər yazılır, daş üzərində saxta tarixlər yazılıb Azərbaycan və alban abidələrinə qoyulur. Bütün bunlardan əsas məqsəd həmin ərazilərdə Azərbaycanın varlığına aid olan hər şeyi sıradan məhv etməklə onun izini tamamilə itirib erməniləşdirmək və sonra dünyaya öz abidələri kimi göstərməkdir. Bundan isə baslıca məqsəd erməniləri bu yerlərin qədim sahibləri kimi dünyaya tanıtmaq və inandırmaqdır. Hesab edirdilər ki, bu "əməliyyatlar" həmin yerlərin işğalına haqq verər. Guya dünya inanar ki, Azərbaycan "yazıq", "əzabkeş" ermənilərin vətənlərini əllərindən alıb, onlara zülm edib.

Görürsünüzmü? Bu qədər alçaq niyyətli, vəhşi və vandal ermənilər Azərbaycan ərazilərində hansı hoqqalardan çıxıblar. Sivil dünya hələ belə vəhşilik, qəddarlıq və barbarlıq görməyib. Bunları işğaldan sonra həmin rayonlara və kəndlərə səyahət edən xarici diplomatlar, alimlər, yazıçılar və səfirliklərin hərbi attaşeləri də ifadə ediblər. Onlar gördükləri mənzərələrdən dəhşətə gəliblər insanın insanlığa nifrəti, qəddarlığı bu qədər olarmı? Əlbəttə, olmaz. İnsan düşmənçiliyi də normalar çərçivəsində aparmalıdır. O normalar ayaq altına atılanda bu, artıq vəhşilik deməkdir. İyirmi birinci əsrdə görünməmiş vəhşilik!

Lakin bu vəhşilər tamamilə özbaşına deyildilər. Onların qarşısında başda əzəmətini hiss etdikləri Heydər Əliyevin komandanlığı altında qeyrətli Azərbaycan oğulları durmuşdular. Ermənilər həmişə bizimlə təkbətək vuruşmada məğlub olublar. Ona görə də üstümüzə tək gəlməyə cəsarətləri çatmayıb. Birinci Qarabağ müharibəsində Rusiyanın hərtərəfli köməyi ilə qalib gələrək torpaqlarımızı başqalarının köməyi ilə işğal altında saxlayıblar.

# HEYDƏR ƏLİYEVİN KƏLBƏCƏRİN MƏCBURİ KÖÇKÜNLƏRİ İLƏ GÖRÜŞÜ

*Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar.*

*Heydər Əliyev*

Böyük rəhbərin böyük və həssas ürəyi vardı, vaxtı nə qədər məhdud olsa da yurd-yuvalarından didərgin salınmış qaçqın və köçkün ailələrinin social vəziyyətlərinin yaxşılaşdırılması üçün lazımi tədbirlər görməkdə davam edir, çadır şəhərciklərinə onlarla görüşə gedir, arzu və çatışmazlıqlarını öyrənir, onların yerinə yetirilməsi üçün respublikanın aidiyyəti təşkilatlarına tapşırıqlar verirdi. Belə səfərlərindən birində o, məcburi



***Kəlbəcərin məcburi köçkünləri***

köçkün düşmüş iki gəncin toy məclisində iştirak edərək onları təbrik etmiş, toy hədiyyəsi bağış- lamışdı.

Heydər Əliyevin həmin toyda iştirak etməsi şənliyi daha da rövnəqləndirmiş və əhalinin ruh yüksəkliyini xeyli yüksəltmişdi. Ümumiyyətlə, Ulu Öndər xalqın arasında olmağı çox istəyirdi və imkan olan kimi sadə vətəndaşlarla canlı təmasa üstünlük verirdi. Belə görüşlərdən biri 1996-cı ildə Kəlbəcər sakinləri ilə oldu. Aşağıda həmin görüş haqqında Azərtac İnformasiya Agentliyinin rəsmi dövlət qəzetlərində dərc edilmiş materialını olduğu kimi diqqətinizə çatdırmağı lazım bildik:

**1996-cı il aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşmüşdür. Görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev giriş nitqi söylədi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş nitqi.**

Kəlbəcər rayonu əhalisinin nümayəndələri ilə mənim bugünkü görüşümün məqsədi birinci növbədə respublikanın ayrı-ayrı yerlərində məskunlaşmış bu rayonun sakinlərinin vəziyyəti ilə tanış olmaqdan ibarətdir. Kəlbəcər rayonu üç il bundan əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğuna görə Kəlbəcərin sakinləri yerlərindən, yurdlarından didərgin düşüblər və respublikanın müxtəlif şəhərlərində, rayonlarında yaşayırlar. Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq Azərbaycana qarşı etdikləri hərbi təcavüz respublikamıza çox böyük zərbələr vurubdur. Təəssüflər olsun ki, həmin müddətdə ərazimizin bir qismi işğal olunmuş və orada yaşayanlar, o torpaqların sahibləri didərgin düşüblər. İşğal olunmuş rayonlardan biri də Kəlbəcərdir. Kəlbəcərin işğalından üç il keçir. İnsanlar adətən bayram günlərini, müsbət hadisələri qeyd etmək

üçün görüşürlər, eyni zamanda milli ənənələrimizə görə tariximizdə olan bəzi faciəvi halların da ildönümünü, yaxud həmin günləri qeyd etmək üçün görüşürlər. Ona görə bizim bu görüşümüz də birinci növbədə, Kəlbəcər rayonu sakinlərinin vəziyyəti ilə mənim şəxsən tanış olmağım məqsədini daşıyır.



***Məcburi köçkünlərin çadır şəhərciyi***

Siz üç ildir ki, yerinizdən-yurdunuzdan olmu- sunuz, didərgin düşmüsünüz. Bu günü xatırlamaq lazımdır. Bu görüş həm də bu faciədən nəticə çıxarıb işğal olunmuş torpaqlarımızdan işğalçı qüvvələrin çıxarılması, torpaqlarımızın azad olunması uğrunda mübarizəmizi daha da gücləndirmək üçün,

Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün fikir mübadiləsi aparmaq məqsədi daşıyır. Kəlbəcər rayonu Azərbaycanın gözəl guşələrindən biridir. Onun çox zəngin təbiəti, tarixi abidələri vardır. Kəlbəcər Azərbaycanın qədim dövrlərdən ibarət öz tarixini qəlbində, sinəsində, qoynunda saxlayan ərazilərindən biridir. Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikamızda həmişə çox hörmətə, ehtirama layiq olubdur.

Azərbaycanın çox yerlərindən, o cümlədən paytaxtımız Bakıdan da insanlar həmişə Kəlbəcərə ziyarətə gediblər. O dağların, meşələrin gözəlliyindən müəyyən qədər bəhrələnmək üçün, eyni zamanda bu gözəlliyi seyr edib ölkəmizin nə qədər gözəl bir məmləkət, diyar olduğunu bir daha dərk etmək üçün ziyarət ediblər. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar. Doğrudur, bu üç il müddətində Kəlbəcərə böyük ziyan vurulubdur, zərbələr dəyibdir. Ermənistan işğalçıları o qədər vəhşidirlər, qəddardırlar, insani keyfiyyətlərdən o qədər uzaqdırlar ki, onlar işğal olunmuş torpaqlarda,

o cümlədən Kəlbəcərdə də nəinki insaniyyətə xas olmayan, hətta insaniyyətə zidd, yabançı hərəkətlər edirlər. Ancaq bunların heç birisi Kəlbəcərin o məğrur dağlarını, qayalarını, meşələrini, çeşmə- lərini, bulaqlarını heç vaxt endirə bilməz, əyə bilməz, sındıra bilməz, eləcə də güman edirəm ki, kəlbəcərlilərin iradəsini sındıra bilməz. Ona görə də mən əminəm ki, vaxt gələcək, bunlar hamısı tarixdə qalacaq, Kəlbəcər işğaldan azad olacaq, kəlbəcərlilər tezliklə doğma rayonda öz həyatlarını quracaq, öz yerlərini, yurdlarını, evlərini, obalarını bərpa edəcəklər. Mən buna əminəm. Mən bilirəm ki, sizin və ümumiyyətlə işğal olunmuş ərazilərimizdən didərgin düşmüş bütün vətəndaşlarımızın vəziyyəti bu gün çox çətindir, ağırdır. Bu vəziyyəti müəyyən qədər yüngülləşdirmək üçün biz bütün imkanlardan istifadə edirik, buna çalışırıq və bundan sonra da çalışacağıq.

Ümidvaram ki, indi bizim apardığımız siyasət Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə gətirib çıxaracaqdır və işğal olunmuş torpaqlarımız azad olunacaqdır. Eyni zamanda ümidvaram ki, respublikamız bu ağır sosialiqtisadi böhrandan çıxacaq, ölkəmizin böyük sərvətləri, təbii, intellektual sərvətləri xalqımızın rifahına xidmət edəcəkdir, xalqımızın rifah halı günü-gündən yaxşılaşacaqdır. Mən buna əminəm. Ona görə

əminəm ki, apardığımız siyasət bizi, şübhəsiz, bu səviyyəyə gətirib çıxaracaq. Əminəm ona görə ki, bizim işimiz haqq işidir. Biz Azərbaycan Respub- likasının müstəqilliyini qoruyuruq. Azərbaycanda hüquqi demokratik dövlət qururuq. Müstəqil Azər- baycanın ərazisinin bərpa olunmasına çalışırıq. Bu, ədalətli işdir, haqq işidir. Biz buna nail olacağıq.



***İstisu qəsəbəsindən mənzərə***

Hörmətli bacılar və qardaşlar, mən sizi salamlayıram. Sizin simanızda Kəlbəcər rayonunun bütün vətəndaşlarını salamlayıram. Əlbəttə, mən istərdim elə bir imkan yaransın ki, Kəlbəcər rayonu sakinlərinin hamısı ilə görüşmək mümkün olsun.

Sizin hamınızla birlikdə, bir yerdə, yaxud da ayrı- ayrı görüşməyə mənim çox böyük istəyim, arzum var. Güman edirəm, gün gələcək, bu da olacaqdır. Amma bu gün isə sizin vasitənizlə bütün kəlbəcərlilərə öz salamımı, hörmət və ehtiramımı, xoş arzularımı və ümidlərimi çatdırıram. O ümidlərimi ki, biz bu vəziyyətdən çıxacağıq və Kəlbəcər yenə də öz keçmiş, gözəl dövrünə qayıdacaq və gələcəkdə ondan da gözəl olacaqdır. O gün həm kəlbəcərlilər üçün, həm də bizim üçün əziz olacaqdır. Mən sizi salamlayıram. Sizlərdən kimsə danışmaq üçün söz istəyirsə, buyursun."

Daha sonra Prezident Heydər Əliyev yekun nitqi söylədi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun nitqi.

– Güman edirəm ki, biz bu gün ətraflı söhbət etdik. Həm sizin – kəlbəcərlilərin problemləri ilə daha yaxından tanış olduq, həm də üç il bundan öncə Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasının səbəbləri, bu işğalın günahkarları haqqında ətraflı fikir mübadiləsi apardıq. Sizin çıxışlarınız, dediyiniz sözlər, fikirləriniz çox əhəmiyyətlidir. Birinci növbədə xalqımızın, ölkəmizin, respublikamızın tarixinin düzgün əks olunması üçün çox əhəmiyyətlidir. İkincisi də gələcək sizin burada şərh etdiyiniz fikirlər, işlərimiz üçün, müstəqil Azərbaycanın torpaqlarını qorumaq,

müdafiə etmək, işğal olunmuş torpaqların azad edilməsinə nail olmaq üçün sizin fikirləriniz çox əhəmiyyətlidir. Burada bəzi təkliflər irəli sürdünüz: kəlbəcərlilərin vəziyyətinə qayğı, ayrı-ayrı fərdi xahişlər. Mən burada iştirak edən müvafiq rəhbər şəxslərə, xüsusən İcra Aparatının başçısına tapşırıram ki, bu təkliflərin hamısı cəmləşdirilsin və mənim adımdan icraçılara çatdırılsın ki, burada irəli sürülən məsələlər həll olunsun. Ancaq sizinlə birlikdə bizim hamımızın bu gün burada danışılan sözlərdən meydana gələn fikrimiz bundan ibarətdir ki, Azərbaycan Respublikasının Ermənistan tərə- findən işğal olunmuş torpaqları azad edilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalı və müstəqil dövlət kimi Azərbaycan bütün ərazisinin sahibi olmalıdır, bütün ərazisinə, öz sərhədlərinə tam nəzarət etmək hüququna nail olmalıdır. Bu, qarşımızda duran ən böyük, eyni zamanda deyə bilərəm ki, ən çətin vəzifədir. 1988-ci ildən indiyə qədər 8 ildir Azərbaycanın həyatında baş vermiş hadisələr, bir respublika kimi ölkəmizin, xalqımızın başına gələn bəlalar, faciələr Azərbaycan xalqının tarixinin çox ağır səhifələridir. Bu səhifələrdə qəhrəmanlıq, rəşadət nümunələri də var. Bizim igid oğlanlarımız, Azərbaycanın övladları müqəddəs torpağımızın qorunması, müdafiəsi uğrunda, Azərbaycanın istiqlaliyyəti, azadlığı uğrunda şəhid

olublar, özlərini qurban veriblər. Belələri çoxdur və bu şəhidlərin, Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daim yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır. Bizim bu 8 illik tariximizdə belə qəhrəmanlıq səhifələri çoxdur. Ancaq eyni zamanda bu 8 ildə, yəni Azərbaycana qarşı təcavüz başlanandan indiyə qədər tariximizdə qara səhifələr də çoxdur, həddindən artıq çoxdur. Ayrı-ayrı şəxslərin, ayrı-ayrı qrupların, vəzifə sahiblərinin xalq, millət, Vətən, torpaq qarşısında xəyanət- karlığını əks etdirən səhifələr də çoxdur, həddindən artıq çoxdur. Ermənistanın ölkəmizə qarşı təcavüzünün davam etdiyi bu illərdə Azərbaycanın qayğısına qalan insanlar, Azərbaycanın rəhbər- liyində olan şəxslər bunları düşünə bilsəydilər, öz vəzifələrini, borclarını dərk edə bilsəydilər, şübhəsiz ki, bunların qarşısı alına bilərdi. Təcavüzün də qarşısı alına bilərdi, heç onun başlanmasına, münaqişənin meydana çıxmasına yol verilməzdi. Əgər belə bir hadisənin meydana gəlməsinin qarşısı alınmadısa, onda gərək respublikamız, xalqımız, millətimiz və onun başında duranlar torpaqlarımızın qorunmasını təmin edəydilər. Təəssüf ki, bu, olmayıbdır. Bilirsiniz, bu, hər bir azərbaycanlıda daim vicdan əzabı doğurur. Mən bunu dəfələrlə demişəm, bizim millətimiz aciz millət deyil,

xalqımız aciz xalq deyildir. Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, Vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir. Ancaq bu dəfə, təəssüflər olsun ki, bu keyfiyyətləri nümayiş etdirmək mümkün olmayıbdır. Ona görə yox ki, xalqımızda bu keyfiyyətlər yoxdur. Ona görə ki, əgər lap qədim keçmişlərdən desək, hər bir tayfanın, ordunun, dəstənin, hər bir millətin başında duranlar, sərkərdəlik edənlər çox şeyi həll edirlər. Təəssüf ki, o illər xalqımızda böyük çatışmazlıq olubdur, qıtlıq olubdur. Bu çatışmazlıq, bu qıtlıq da xalqımıza böyük faciələr, bəlalar gətiribdir. Bilirsiniz, Kəlbəcəri müdafiə etmək bəlkə də çətin məsələ idi. Burada rəqəmlər söylədilər ki, nə qədər insan həlak oldu, itkin düşdü. Həlak olanlara Allah rəhmət eləsin, itkin düşənləri də axtarıb tapıb Vətənimizə qaytarmaq bizim borcumuzdur. Məsələn, burada deyildi ki, hansısa gəlin o dəhşətə, erməninin təcavüzünə dözə bilmədi, özünü qayadan atdı. Bu, böyük bir əfsanədir. Bu, millətimizin ən böyük keyfiyyətini nümayiş etdirən bir haldır. Mən hesab edirəm ki, bu gün də olmasa, vaxt gələcək, biz həmin gəlinin o faciəvi qəhrəmanlığına elə həmin qayanın başında böyük abidə ucaldacağıq. Bunu mütləq edəcəyik. Ancaq bununla yanaşı, nə qədər satqınlıq, xəyanətkarlıq oldu, nə qədər insanlar şəxsi həyatlarını torpağın,

Vətənin, xalqın mənafeyindən üstün tutdular. Beləliklə, torpaqlarımız işğal olundu. Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz, heç vaxt. Amma millətimizi bu cür pəhləvan etmək bir-iki adamın işi deyildir. Bu, xalqın hamısının birlikdə işidir və xalqa rəhbərlik, başçılıq, sərkərdəlik edən adamların işidir. Xalqımızda bu qüdrət, cürət, qəhrəmanlıq keyfiyyətləri var. Ona görə də deyirəm ki, o vaxt Kəlbəcəri qoruyub saxlamaq olardı. Burada danışanların hamısı bunu dedi. O vaxt – Kəlbəcərin işğal olunması dövründə mən buradan çox uzaqda idim, o qədər məlumatım yox idi. Mənim məlumatını buraya gələndən sonra ayrı-ayrı yazılardan, belə söhbətlərdən, sənədlərdən toplanıbdır və bu gün sizin dediklərinizin əsasında öz fikrimi söyləyirəm. Sizin bu fikirlərinizi, sözlərinizi cəmləyərkən bir nəticə çıxır ki, şübhəsiz torpaqlarımızın hamısını, o cümlədən Kəlbəcəri də müdafiə etmək mümkün idi. Əgər vaxtilə bunu edə bilməmişiksə, bu, xalqın, millətin günahı deyildir, xalqa xəyanət edənlərin günahıdır. Burada cürbəcür ifadələr işlədildi: səriştəsiz rəhbərlər, qorxaqlar – hamısı olubdur. Təkcə Kəlbəcərin işğalı zamanı yox, bu 8 il müddətində bütün başqa hallarda, təəssüf ki, hamısı olubdur. Bu, bizi faciəli vəziyyətə gətirib çıxarıb, ağır vəziyyətə salıbdır. Torpaqlarımızın

20 faizi işğal olunub, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Amma sülh danışıqları aparanda da bir bizim vəziyyətimizə baxın, bir də tərəf-müqabilimizin vəziyyətinə baxın. Onlar torpaqlarımızı işğal ediblər, öz şərtlərini diqtə edirlər. Bizim torpaqlarımız işğal altındadır, biz də şərtlərimizi deyirik, amma vəziyyətimiz bərabər deyildir. Bəs bizi, xalqımızı bu günə salanlar kimlərdir? Həmin o satqınlar, xəyanətkarlar, həmin o səriştəsizlər, qorxaqlar, mənəviyyatca pozulmuş insanlardır. Dərd də burasındadır. 1988-ci ildə Ermənistan Azərbaycana qarşı təcavüzə başlayarkən xalqımız gərək yumruq kimi birləşəydi. Bütün daxili ixtilafları, çəkişmələri, cürbəcür narazılıqları bir kənara qoyaraq yumruq kimi birləşib gərək torpağı qoruyaydı. Amma əslində nə oldu? Əslində, bu fürsətdən, şəraitdən hərə özü üçün istifadə etməyə çalışdı. Xalqımızın faciəsi də bundan ibarətdir ki, bu müddətdə biri orada vəzifə almaq istəyib, biri burada hakimiyyətə gəlmək istəyib. Bəs bu adamlar düşünməyiblər ki, ölkə belə vəziyyətə düşəndən sonra, lap vəzifəyə də gəlsən, sən nə edəcəksən? Sizin burada dediklərinizlə tamamilə razıyam. Doğrudan da Kəlbəcər öz coğrafi mövqeyinə görə elə bir yerdir ki, oranı işğal etmək sadəcə olaraq mümkün deyildir. Təsadüfi deyil ki, Ermənistanın

işğalçı dəstələri Azərbaycana 1988-ci ildən hücum etmiş, Kəlbəcər isə 1993-cü il martın sonunda işğal olunubdur. O vaxt Azərbaycanın bir çox başqa bölgələri, o cümlədən bütünlükdə Dağlıq Qarabağ, Kəlbəcərlə qonşu olan Laçın rayonu işğal edilmişdi. Amma Kəlbəcər bir ada kimi qalmışdı. Bir tərəfdən, doğrudan da coğrafi mövqeyinə görə, ikinci tərəfdən isə kəlbəcərlilərin özlərinin qəhrəmanlığına görə. Demək, onu saxlamaq, qorumaq mümkün idi və Ermənistanın işğalçı qüvvələrini Azərbaycanın zəbt edilmiş torpaqlarından, o cümlədən Dağlıq Qarabağdan, Laçından, başqa yerlərdən çıxarmaq üçün, şübhəsiz ki, Kəlbəcəri strateji nöqteyi- nəzərdən qoruyub saxlamaq lazım idi. Bu, bir nömrəli vəzifə idi. Ancaq təəssüf ki, o vaxt bunu etməyiblər. Nəinki etməyiblər, mən sizin dedik- ləriniz əsasında bu nəticəyə gəlirəm, əgər bunu etməyə sadəcə imkan olmasaydı, bunu anlamaq mümkün idi. Müharibədə irəli getmək də, geri çəkilmək də olar. Bu, müharibənin təbii qanunudur. Ancaq Kəlbəcəri müdafiə etməyiblər. Ona görə ki, doğrudan da xəyanət, satqınlıq, ayrı-ayrı məqsədlər olubdur. Eldar Həsənov çox düzgün və doğru dedi: 1988-ci ildən bəri Azərbaycanın başına gələn bəlalar ayrı-ayrı şəxslərin, qrupların bir-biri ilə toqquşması və nəhayət, Kəlbəcərin süqutu həm o vaxtkı Azərbaycan rəhbərliyinin nəinki səriştəsizliyinin,

eləcə də qətiyyətsizliyinin, bacarıqsızlığının, fəaliyyətsizliyinin, eyni zamanda həmin o quldurların, oğruların – Rəhim Qazıyev, Surət Hüseynov kimi adamların öz şəxsi məqsədlərinə nail olmaq üçün satqınlıq hərəkətlərinin nəticəsidir. O vaxt Azərbaycana rəhbərlik edən şəxslər – prezident Əbülfəz Elçibəy, Ali Sovetin sədri İsa Qəmbərov, baş nazir Pənah Hüseynov bunların qarşısını ala bilmədilər və bilməzdilər də, çünki bunun üçün onların nə iradəsi, nə də bacarığı yox idi və onlarla toqquşan digər qüvvələr Azərbaycanın torpaqlarını qurban verdilər ki, nə var-nə var, görək kim-kimi yıxa bilər. Onlar bunları, bunlar da onları yıxmaq istədilər, axırda Azərbaycan bədbəxt oldu. Kəlbəcərin işğalı bizim üçün böyük itkidir. Kəlbəcərin zənginliyi, təbii sərvətləri haqqında burada danışıldı. Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına, qayalarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər yataqlarına, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir. O vaxtlar, keçmişdə biz Kəlbəcərin inkişafı üçün çox səylər göstərmişdik. İstisuda böyük kompleks tikilmişdi. Bu, neçə-neçə nəsillərin yaratdığı abidələr, yaşayış binaları idi. Təəssüf ki, vaxtilə qızıl yataqlarından istifadə

edilməsi ilə məşğul olmamışdılar. Hələ o sakit dövrdə ermənilər gəlib bizim qızıl yataqlarımızı zəbt etmək istəyirdilər. Xatirimdədir, biz o barədə çox ciddi tədbirlər gördük. Dağ rayonu kimi Kəlbəcərin inkişafı üçün xüsusi qərarlar qəbul olunmuşdu və bunların həyata keçirilməsindən Kəlbəcərin əhalisi, hesab edirəm, çox bəhrələnmişdir. Xatirimdədir, biz Kəlbəcərdə tütün əkməyə başladıq. Kəlbəcərlilərin yadındadır, təxminən 1975-ci ilə qədər orada tütün əkilmirdi. Raykomun birinci katibi Nadirov mənim yanıma gəldi. Göstəriş verdim ki, tütün əkilsin. İki-üç ildə kəlbəcərlilər tütündən xeyli gəlir götürdülər. Xatirinizdədirmi, min tondan artıq tütün istehsal olunurdu. Bu, o vaxt Kəlbəcər üçün, işsiz adamlar üçün nə qədər böyük hadisə idi! Tütünçülük o vaxtlar kəlbəcərlilərə çox gəlir gətirdi. Dağ rayonlarından, o cümlədən Kəlbəcərdən olan uşaqların institutlara daxil olmaları üçün güzəştlər etmişdik. Bu yolla ali məktəblərə nə qədər kəlbəcərli daxil oldu. Bilirsiniz, keçmişdə belə bir əhval- ruhiyyə vardı ki, guya bizim dağ rayonlarımız geridə qalmışdır, orada camaatın mədəni, yaxud bilik səviyyəsi o qədər də yüksək deyildir. Amma siz də görmüsünüz ki, həmin o illərdə aparılan işlər ölkəmizin cürbəcür bölgələrində olan əhalinin həm elm, bilik səviyyəsini, həm də mədəni səviyyəsini, eyni vəziyyətə qaldırdı. İndi mən burada görürəm,

kəlbəcərlilərdən nə qədər şair var. Hər çıxış edən şeir oxuyur, özü də başqasının yox, özünün yazdığı şeiri oxuyur. Elə bunun özü kəlbəcərlilərin həm nə qədər istedadlı olduğunu, həm də mədəniyyətə, ədəbiyyata nə qədər qovuşduğunu göstərir. Kəlbəcərdən nə qədər böyük alimlər, ziyalılar var. Yəni keçmişdə bəzən belə əhval-ruhiyyə vardı ki, dağda yaşayanlar guya dağ adamlarıdır. Bəzən şəhərdə onlara bir az kəc baxır, yaxud başqa cür yanaşırdılar. Bunlar hamısı qısa bir müddətdə keçdi getdi. Ona görə ki, insanların daxilində, genlərində olan fitri istedad eynidir. Şəhərdə və ya dağda doğulmağın fərqi yoxdur. İnsanın anadangəlmə fitri istedadı varsa, bu, onun şəhərdə, dağda, yaxud aranda doğulmasından asılı deyildir. Ancaq hər bir fitri istedadın meydana çıxması üçün ona şərait yaratmaq lazımdır. O şərait də həmin illərdə yarandı, insanlar öz daxilində olan potensialı büruzə verə, nümayiş etdirə, hərəkətə gətirə bildilər. Beləliklə də Kəlbəcər, necə deyərlər, həm də ki, çox fədakar insanlar diyarıdır. Bu, tamamilə aydın məsələdir. Çıxış edənlərdən kimsə dedi ki, bəzən burada danışırlar: qaçqınlar, yerazlar...

Bilirsiniz, mən bunu deyən insanlara nifrət edirəm. Bəli, 1988-ci ildə bizim soydaşlarımızı, azərbaycanlıları ermənilər zorla, silah gücünə Ermənistandan çıxarandan sonra buraya köçmüş

adamlara burada ad qoydular: yerazlar. Bu adı mənfi nöqteyi-nəzərlə qoydular. Kimlər qoydu bu adı? Vəzirov kimi alçaq adamlar, onun şaykasında olan adamlar, Mütəllibov kimi alçaq adamlar, onun şaykasında olan adamlar. Anadan olduğu yerdən asılı olmayaraq, azərbaycanlı hər yerdə dəyərli insandır. Kəlbəcərdə, Laçında, ya da Zəngəzurda, yaxud Göyçə mahalında anadan olub, ya da Borçalıda, Bakıda, Maştağada anadan olub, fərqi yoxdur, hamısı bir millətin adamlarıdır, azərbaycanlılardır. Millətimizin, xalqımızın içindən bunları təbəqələrə bölənlər, bir-birindən ayıranlar Azərbaycan xalqına, millətimizə ən böyük xəyanət edən adamlardır. Yerindən– yurdundan didərgin düşmüş adamlara, yaxud Ermənistandan zorla sürülüb çıxarılmış adamlara mənfi münasibət göstərmək, yaxud mənfi ad qoymaq, onlara belə təkəbbürlü yanaşmaq ən böyük cinayətdir və deyə bilərəm ki, ədəbsizlik, mənəviyyatsızlıq, tərbiyəsizlikdir. 1988-ci ildən bəri belə tərbiyəsiz adamlar gəlib Azərbaycanın başına bu bəlaları gətirdilər. Ədəbsiz adamlar kəlbəcər- lilərin arasında da var. Kəlbəcərdən burada oturan ziyalılar, alimlər, şairlər, gözəl adamlar da var, İsgəndər Həmidov kimi alçaq adamlar da var. Beləsi hər yerdə var. Ermənistanlı azərbaycanlılardan da, naxçıvanlılardan da, qarabağlılardan da, gəncə- lilərdən, bakılılardan, şəkililərdən də – hamısından

var, hər yerdə var. Yaxşısı da var, pisi də var. Ancaq yerlərə görə, yaxud müəyyən qruplara görə insanların hamısına mənfi münasibət göstərmək olmaz, yaxud kimi isə xüsusi bir dəstə kimi çox mötəbər hesab etmək olmaz. Bu, bizim mənəviyyatımıza zidd olan bir amildir. Mən bunu pisləyir və yenə də deyirəm: xalqımızın arasında ayrı-seçkilik salmaq istəyən, onu, ayrı-ayrı qruplara, dəstələrə bölmək istəyən, hansısa mənfi münasibət göstərmək istəyən adamlara nifrət edirəm. Belə adamların, belə halların qarşısı alınmalıdır. Yenə Kəlbəcərin keçmişinə qayıdıram. Onun çox gözəl keçmişi olubdur və güman edirəm ki, çox gözəl də gələcəyi var. Burada çıxışlar bir-birindən fərqli olsa da, hamısında bu fikir eyni idi: işğal edilmiş torpaqlar, o cümlədən Kəlbəcər sülh yolu ilə azad olunmalıdır. Əgər bu, mümkün olmasa, – burada bacılarımız da dedi, qardaşlarımız da dedi, yaşlılar da, cavanlar da dedi, – bütün imkanlarımızdan, gücümüzdən istifadə edib Kəlbəcəri azad edəcəyik, işğal olunmuş bütün torpaqlarımızı azad edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. Biz qoymayacağıq ki, torpağımızın bir qarışı da qəsbkarların əlində qalsın. Bir qarışını da qoymayacağıq. Ancaq yenə də deyirəm, işğalçıları çıxarmaq o torpaqları müdafiə etməkdən qat-qat çətin məsələdir. Torpaqları müdafiə etmək olardı və hərə öz yerində qalardı. Ola

bilərdi çox qurban verək, ola bilərdi Kəlbəcərdə də əlli-yüz adam yox, min adam həlak olsun, əlli min adamdan mini, iki mini həlak olsun. Sağ qalan adamlar özünü qayadan atan o gəlindən də qiymətli deyil ki. Hər bir insanın özünə görə qiyməti var, hər kəs atası-anası, qardaşı-bacısı üçün, ailəsi üçün ən qiymətlidir. Bizim heç birimiz həlak olanlardan qiymətli deyilik, o cümlədən mən də. Ona görə də Kəlbəcəri, başqa torpaqlarımızı da müdafiə etmək lazım idi. Bəlkə də beş dəfə, on dəfə artıq qurban vermək lazım idi, ancaq müdafiə edib öz torpağımızda alnıaçıq, üzüağ oturmaq lazım idi. Ola bilər, yarımız qırılaydıq, amma yarımız öz torpağımızda qalardıq. İndi nə olsun ki, əksəriyyəti çıxıb gəlib, qaçqın düşübdür. Torpaqlarımız da, burada düz dedilər, yağıların əlindədir. Güman edirəm ki, biz bundan sonra bütün işlərimizə, həyatımıza, hökumətimizə, dövlətimizə, respub- likamıza, torpaqlarımıza əsl vətənpərvər kimi münasibət göstərməliyik. Buradakı çıxışlarda Kəlbəcərin süqutunda, onun təslim edilməsində günahkarlar haqqında deyildi. Baş prokuror Eldar Həsənov özü də kəlbəcərlidir, güman edirəm ki, Azərbaycanın hər bir guşəsi onun üçün əzizdir, amma öz doğma yurdunu xəyanətkarcasına təslim edən adamlar haqqında qəti qərar qəbul olunmalıdır, buna şübhə olmasın. Ancaq iş təkcə iki-üç adamda

deyil. Burada Qənizadənin, ya başqasının adı çəkildi. Hesab edirəm ki, bir var məhkəmənin hökmü, bir də var xalqın hökmü. Kəlbəcərlilər özləri yığışmalıdır, – sizin aranızda alim də, şair də, yazıçı da, hüquqşünas da, jurnalist, hamısı var, – və siyasi hökm çıxarmalıdır.

Üç il keçibdir, bütün materiallar var, hər şey sizə məlumdur. Özünüz bu işlərin şahidisiniz, hansı kənd nə cür getdi, erməni silahlı qüvvələri haradan, nə təhər girdilər, nə cür oldu ki, adamlar qaçdı, onları çıxardılar, – hamısı sizə məlumdur. Sizə tövsiyəm, hətta deyərəm, xahişim bundan ibarətdir. Mən bunu arzu edirəm. Bilirsiniz, sizin özünüzün çıxartdığınız hökm ən ədalətli hökm olacaqdır. Özünüz bir komissiya düzəldin, yığışın, müzakirə eyləyin, hər bir cümləni, sətri ələkdən-süzgəcdən keçirin ki, düzgün, ədalətli olsun. Amma bir siyasi hökm olmalıdır. Burada bu söhbəti apararkən bu fikir beynimə gəldi. Hesab edirəm, bunu bütün başqa rayonlarımız üçün də etməliyik. Mən bu təklifi verirəm. Belə bir hökm hazırlayın, bir prezident kimi mənə də təqdim edərsiniz, mənim əlimdə də siyasi sənəd olar. Onu mətbuatda da dərc edərik. Bu, tarix üçün, gələcək üçün də lazımdır. O ki qaldı istintaqa, mən hesab edirəm ki, baş prokuror daha geniş istintaq aparmalı, Ali Məhkəmə də bu işə ədalətlə yanaşmalı və cinayətkarlar öz cəzalarını

almalıdırlar. Onların öz cəzalarını almaları təkcə ona görə deyil ki, cinayətkar gedib on il, on beş il həbsxanada otursun. Hər bir cinayətə görə cəza vermək eyni zamanda başqalarını cinayətdən xilas etməkdir, profilaktikadır. Gərək insan bilsin ki, cinayət etmək olmaz, bilsin ki, bu cür cinayət etmək olmaz. Həmin o Qənizadə orada qoşunu ilə Kəlbəcəri qoruyaraq şəhid olsaydı, onun adı əsrlər boyu yaşayacaqdır. Amma indi görürsünüz, burada hər çıxış edən Qənizadənin adını nifrətlə çəkir. Bilirsiniz, dünyada heç kəs daimi deyil, insan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşayan insan əbədi olacaqdı. Amma səkkiz ildir Azərbaycanın başına cürbəcür bəlalar gətirən nadürüst, cinayətkar adamlar, vəzifə hərisləri, – hansılar ki, bu gün də Azərbaycanda qarışıqlıq salmaq istəyirlər, – belə adamların heç birisi yaşamayacaqdır. Ola bilər, fiziki cəhətdən ömrü çox olsun, amma mənəvi cəhətdən ömrü olmayacaqdır. Biz isə, əgər Allahın kəlamına, Qurani-Kərimin kəlamına da, ulu babalarımızın vəsiyyətinə də istinad etmiş olsaq, mənəviyyat üçün yaşamalıyıq.

Hesab edirəm ki, bu gün bizim danışığımız çox səmərəli oldu. Bir tərəfdən Kəlbəcərin faciəsini xatirimizə saldıq. Bu faciəni heç vaxt unutmaq olmaz. Faciə bizə nə qədər qəm-qüssə, kədər gətirsə

də, onu daim yaşatmaq lazımdır ki, bu faciədən hərə özü üçün ibrət dərsi götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin – Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları, quldurları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bu cür bəlalar gətiriblər. Ona görə bunu yaşatmaq lazımdır, unutmaq olmaz, nəsillərdən-nəsillərə ötürmək lazımdır. Bu baxımdan bugünkü görüşümüz çox əhəmiyyətlidir. Amma bu görüşün əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, biz Kəlbəcərin işğaldan azad olunması üçün özümüzü daha da səfərbər edirik. Mən çox məmnunam ki, bu gün burada çıxış edənlərin hamısı yekdildir ki, əgər Kəlbəcər, eləcə də işğal olunmuş digər torpaqlarımız sülh yolu ilə azad edilməsə, biz gərək özümüzü hazırlayaq və torpaqlarımızı nəyin bahasına olursa- olsun azad edək. Bu barədə fikrim qətidir. Mən bu yolun yolçusuyam, bu yoldan dönməyəcəyəm. Sağ olun."

Göründüyü kimi, öz xalqını dərin məhəbbətlə sevən dahi rəhbər onun sevincinə şərik olduğu kimi, dərdlərinə də şərik idi. Bütün çıxışlarında onun mübtədası dogma xalqı idi. O, dərin ağlı, kəskin zəkası ilə sanki dəryada təlatümə düşmüş gəmini məharətlə idarə edərək onu sahilə sağ-salamat çatdıran gəminin kapitanına bənzəyirdi.

Bu gün o acı günləri yaşamış insanların bir çoxu qeyd edirlər ki, qaçqın və məcburi köçkünlərin sosial problemləri Heydər Əliyevi daim narahat edirdi. Ulu öndər dəfələrlə çadır şəhərciklərində qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti ilə tanış olmuşdu. Onun bu şəhərciklərə hər gəlişi əsl bayram olardı. Heydər Əliyevin hakimiyyəti illərində qaçqın və məcburi köçkünlər beynəlxalq humanitar yardım alır, onların məişət şəraitinin yaxşılaşdırılması üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilirdi. Çıxışlarının birində Ümummilli Lider demişdi: “Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir”.

Göründüyü kimi, bu dahi şəxsiyyət insanların ağrılarını dərindən duyur, gecəli-gündüzlü onların xilası yollarını axtarırdı. Heydər Əliyev işğal altında olan torpaqların azad edilməsi üçün bütün imkanlardan səmərə ilə istifadə etməyə çalışırdı. Qarabağ münaqişəsinin həllinə hər gün bir töhfə verir, səbr və təmkinlə onu yaxınlaşdırırdı. Çünki bu "yaranın kökü" çox dərinə işləmişdi... ”Qara

yara”nın sağalması üçün uzun illər və gərgin əmək tələb edirdi.

Ancaq həmin ərəfələrdə Ermənistanda vəziyyət qəsdən qarışdırılır, Dağlıq Qarabağ münaqişənin həlli biləräkdən uzaqlaşdırılırdı. Erməni strateqləri və onlara ağıl verənlər elə düşünürdülər ki, aranı qarışdırıb Qarabağ münaqişəsini konservləşdirməklə nəhayət, son məqsədlərinə çatacaqlar. Onlar Azərbaycanın təzyiqləri altında geri çəkilməmək, problemin həllinə imkan verməmək üçün gah seçki, gah hansısa bir tədbiri ortaya ataraq vaxtı maksimum uzatmağı ənənə halına salmışdılar. Bunlar bitəndə isə terror aktlarına əl atır, yenə də münaqişənin həllindən baş qaçırırdılar. Belə terror aktlarından biri daha qanlı oldu. Sanki bu olaylar ölkə xaricindən hansısa “görünməz əl” vasitəsi ilə təşkil edilirdi.

1999-cu ilin oktyabrın 27-də bir qrup əlisilahlı şəxs Ermənistan parlamentinə daxil olaraq qanlı siyasi terror aktı həyata keçirdi. Yada salaq ki, Livandan gəlmiş təcrübəli siyasətçi Levon Ter- Petrosyan hakimiyyətdən uzaqlaşdırılandan sonra Ermənistanda ayrı-ayrı şəxslər növbəti seçkilərdə prezident olmaq həvəsinə düşdülər. Elə düşünürdülər ki, dövləti idarə etmək çətin deyil. Əlbəttə, Nikol Paşinyana qədərki erməni liderləri belə düşünürdülər. Ancaq həqiqətdə də belə idi.



***Ermənistan parlamentində terror***

Onlar səhv etmirdilər, çünki çətinə düşəndə Moskvadakı dəstəkçiləri lazım olan hər köməyi göstərir, sonra necə hərəkət etməyi, hansı addımları nə vaxt atmağı öyrədirdilər. Bu səbəbdən iki yüz il idi ki, Rusiyanın razılığı olmadan bir kimsə hakimiyyətə gələ bilmirdi. Hakimiyyətə gələnlər isə kreml sahibinin əmrlərini müəllimin "ev tapşırığı" kimi yerinə yetirirdilər. Qısa desək, Ermənistan Rusiyanın vassalı və ya əlaltısı idi. Ermənistanda kimsə müstəqilliyə, Rusiyadan ayrılmağa, onunla münasibətləri azacıq da olsa pozmağa cəsarət edə bilməzdi.

Livandan gəlmiş Levon Ter-Petrosyan “qayda”nı pozmuşdu, ona görə də məhz Moskvanın cızdığı dairədən kənara addım atmaq istəyəndə dərhal sərt cəzalandırıldı. 1998-cil fevralın 3-də şovinist baş nazir Robert Koçaryan Kremlin razılığı ilə prezident vəzifəsinə gətirildi. Pobert Koçaryan isə daim Rusiyaya sədaqətini nümayiş etdirir, təhlükə gətirə bilən qərarlar, mərkəzdənqaçma meyilləri barədə düşünməyi belə xəyalına da gətirmirdi. Bir sözlə, Kremlin himayəsində onun mövqeyi möhkəm idi və kimsə onu sarsıda bilməzdi. Ancaq Koçaryana məlumat vermişdilər ki, növbəti seçkilərdə onun postuna göz dikənlər var. Həmin şəxslər məxfi surətdə özlərinin təbliğatını aparır, əhalinin böyük qisminin rəyini almaq üçün əhali arasında gecə- gündüz təbliğat və digər lazımi hazırlıq işləri görürlər. Adları hallanan şəxslər isə xariclə möhkəm əlaqələri olan və Ermənistan cəmiyyətində kifayət qədər tanınmış və müəyyən nüfuz sahibləri idilər. Yəni, onlar Koçaryanla müqayisədə daha samballı idilər. Pobert Koçaryan bu həqiqəti dərk etsə də qəbul edə bilmirdi. Çünki onun hamıdan böyük üstünlüyü hazırda hakimiyyət başında olması və Rusiyaya söykənməsi idi ki, bundan da başqa bir çıxış yolu yox idi. Əlində külli-ixtiyar sahibi olan Koçaryan da həmin üstünlükdən istifadə etdi.

Cərəyan edən hadisələr kulminasiya nöqtəsinə yüksəlirdi.

Nairi Humanyanın başçılıq etdiyi 5 nəfər silahlı şəxsin 1999-cu il oktyabrın 27-də parlamentə hücum zamanı o dövrdə Ermənistanda de-fakto qərarların qəbul edilməsində xüsusi rolu olan baş nazir Vazgen Sarkisyan və spiker Karen Dəmirçiyan daxil olmaqla 8 nəfəri güllələnib öldürüldü. Gülləbaran zamanı 30-dan çox deputat və digər şəxslər yaralandılar.

Xatırladaq ki, Levon Ter-Petrosyanın devrilməsindən sonra Vazgen Sarkisyan və Karen Dəmirçiyanın islahata meylli koalisiyası həmin ilin mayında keçirilən parlament seçkilərində səs çoxluğu qazanaraq faktiki olaraq prezident Robert Koçaryanı siyasi səhnədən kənarlaşdırmaq üzrə idi. Başqa sözlə, əslində Ermənistandakı “Qarabağ klanı” deyilən komandanın hakimiyyəti zəbt etməsinin qarşısı daha əvvəl alına bilərdi. Amma parlamentin gülləbaran edilməsi Ermənistanda siyasi mənzərəni dəyişdi. Ölkədə revanşist meyllər daha da gücləndi və Qarabağdakı separatçıların İrəvanda hakimiyyəti mənimsəməsi və uzun illər öz əllərində saxlamalarına səbəb oldu.

Parlamentdə törədilən vəhşi terror nəticəsində o dövdəki baş nazir Vazgen Sarkisyan, spiker Karen Dəmirçiyan, vitse-spikerlər Yuri Baxısyan və Ruben Murovyan, nazir Leonard Petrosyan, deputatlar

Henrix Abrahamyan, Armenak Armenakyan və Mixail Kotanyan öldürüldülər.

2003-cü ildə terror aktının beş əsas təqsirkarı-Nairi Hunanyan, kiçik qardaşı Karen Hunanyan, dayısı Vram Qalustyan, Derenik Esanyan və Eduard Qriqoryan Ali Məhkəmə tərəfindən ömürlük həbs cəzasına məhkum edildi. Amma erməni cəmiyyətində o zamanda belə şübhələr var idi ki, terror aktının arxasında o zamankı prezident Robert Koçaryan durur... Əlbəttə, sifarişçi Koçaryan idi. Çünki qarşısında keçilməz sədd kimi duran koalisiyanı sivil yolla məğlub edə bilməzdi. Bir də ki, terrorçuluq qədimdən ermənilərin sağ əlindən gələn işdir.

## Kİ-UEST SƏFƏRİ

*Prezident Klintonun Prezident Əliyevlə görüşündən məmnunam. Bu vəzifədə olduğum müddətdə ABŞ-da Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu səfər edən ikinci president görməmişəm.*

*Madlen Olbrayt,*
*ABŞ-nın dövlət katibi*

Qətldən təxminən il yarım sonra-2001-ci il 3 aprel tarixində ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində ilk dəfə olaraq ABŞ-ın dövlət katibi Kolin Pauellin

vasitəçiliyi ilə ATƏT-in Minsk qrupunun həmsədrləri, Azərbaycan Prezidenti Heydər Əliyev, Ermənistan Prezidenti Robert Koçaryanın birgə görüşü oldu.



Prezident Heydər Əliyevin Birləşmiş Ştatlara işgüzar səfəri 14 gün (1-14 aprel) davam etdi. Bu səfər çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fasiləsiz olaraq 4 gün (3-6 aprel) danışıqlar keçirildi. O cümlədən, Prezident Heydər Əliyev, Kolin Pauell və Robert Köçəryanın üçtərəfli görüşü aprelin 3-də baş tutdu.

Harri Trumen adına "Kiçik Ağ ev"də aprelin 3-də, səhər saatlarında start götürən görüşdə çıxış edən

Prezident Heydər Əliyev bu görüşün ATƏT-in Minsk qrupunun həmsədrləri, Azərbaycan və Ermənistan prezidentlərinin birgə keçirdikləri ilk görüş olduğu üçün qiymətləndirərək əlamətdar hadisə olduğunu vurğuladı.

Münaqişənin tarixi barəsində ətraflı məlumat verən Heydər Əliyev Azərbaycan torpaqlarının hələ də təcavüz altında olduğunu xatırladaraq, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin həyata keçirilmədiyini söylədi. Minsk qrupunun münaqişənin tənzimləməsinə dair verdiyi üç təklifin hər birinin Azərbaycanın mənafeyinə zidd olsa da təkliflərdən birinin Azərbaycan, digər ikisinin isə Ermənistan Respublikası tərəfindən qəbul olunmadığını qeyd etdi. Azərbaycan tərəfindən qəbul olunmayan "ümumi dövlət" təklifinin beynəlxalq hüququn prinsip və normalarına tamamilə zidd olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirdiyini bildirdi: "Biz həmsədrlərin "ümumi dövlət" təklifini qəbul etmədik. Heç bir beynəlxalq hüquqi bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti verir. Bu təklif beynəlxalq prinsip və normalarına tamamilə ziddir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki

olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirir".

Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət verilə biləcəyini dedi: "Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarə statusu verilə bilər".

Görüşdə iştirak edənlər qarşılarında dünya miqyaslı siyasətçinin keçilməz olduğunu, onu qorxutmağın, aldatmağın mümkün olmadığını bir daha gördülər.

Azərbaycanın hər bir zaman sülh tərəfdarı olduğunu və 1994-cü ilin may ayında əldə edilmiş atəşkəs rejiminə sadiq olduğunu bildirən Heydər Əliyev, Ermənistan ilə Azərbaycan arasında münaqişənin bütövlükdə Cənubi Qafqazda sabitliyi pozduğunu qeyd edib. Azərbaycan Prezidenti ATƏT- in Minsk qrupunun daha fəal səy göstərəcəyinə və Ermənistanın daha konstruktiv mövqe tutacağına ümid etdiyini vurğuladı: "Biz hesab edirik ki, ATƏT- in Minsk qrupunun həmsədrləri beynəlxalq hüququn prinsiplərini rəhbər tutaraq danışıqlar prosesinə daha səmərəli təsir göstərməli, münaqişənin tezliklə tənzimlənməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasına səy göstərməli idilər.

Təəssüf ki, həmsədrlər əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq, danışıqlar prosesinə beynəlxalq hüquq normalarına müvafiq surətdə lazımi təsir göstərməmişlər. Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticələri vermir. Təəssüf ki, bizim görüşlərimizdən arxayınlaşaraq ATƏT-in Minsk qrupunun həmsədrləri passiv gözləmə mövqeyi tutmuşlar və onlar öz fəaliyyətini "Prezidenlər nə barədə razılığa gəlsələr, bu, ATƏT üçün məqbul olacaqdır" prinsipi ilə məhdudlaşdırmışlar. Biz isə hesab edirik ki, prezidentlərin görüşü ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini əvəz etmir. Əksinə, bunlar bir-birini qarşılıqlı surətdə tamalayaraq, münaqişənin qəti həlli üçün danışıqlar prosesinin irəliləyişini təmin etməlidir".

Bəli, ətrafını sarmış düşmənlər başa düşdülər ki, onların ağlı, düşüncəsi, siyasi mövqeləri Azərbaycan rəhbərinin səviyyəsinə çatmır, çox aşağıdır.

Heydər Əliyev daha sonra Robert Koçaryanın danışıqlar prosesində oynadığı mənfi rolla bağlı tənqidlərini birbaşa onun üzünə dedi: "1999-cu ilin aprelindən Vaşinqtonda ABŞ hökumətinin təşəbbüsü ilə Ermənistan və Azərbaycan Prezidentləri arasında birbaşa görüşlər başlanıbdır. Ötən dövr ərzində biz prezident Koçaryan ilə Cenevrədə, Moskvada,

İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, habelə respublikalarımızın sərhədində çoxsaylı görüşlər keçirmişik. Ermənistan prezidenti ilə dialoqumuz zamanı biz əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı surətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşuq. Qeyd etmək istəyirəm ki, 1999-cu ilin axırlarında biz kompromis əldə etməyə yaxın idik. Lakin tezliklə Ermənistan əldə olunmuş razılaşmalardan geri çəkildi.

Çətin danışıqlar gedişində aydın göründü ki, Ermənistan tərəfi həmişə qeyri-konstryktiv mövqe tutmuşdur və bu gün də bu mövqedə qalır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etdiyinə və danışıqlarda bu üstünlükdən istifadə etdiyinə görə, biz Ermənistanla razılığa gələ bilmirik. Ermənistan hər vəchlə Azərbaycanın əra- zisinin bir hissəsini qoparmağa, özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır".

Beləliklə, bir çoxlarının sülh razılaşması üçün ən real fürsət olduğunu düşündüyü, danışıqlar prosesində yeni mərhələ kimi səciyyələndirdiyi Ki- Vest danışıqları məhz Ermənistan rəhbərliyinin növbəti dəfə qeyri-konstruktiv mövqe sərgiləməsi üzündən nəticəsiz qaldı. Düzdür, bu görüşdən sonra

ümumən proses tezləşdi. Lakin münaqişə 2020-ciilədək həll olunmamış qaldı. Belə ki, işğalçı ilə işğala məruz qalan tərəf arasında fərq qoyulmaması və destruktiv mövqe tutan Ermənistana sonrakı dövrdə təzyiq göstərilməməsi 44 günlük Vətən müharibəsinə gətirib çıxardı və Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etdi.

## ƏBƏDİYAŞAR LİDER

*Bu gün dünya Heydər Əliyevi tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyaya yüksəldən qanuni liderdir.*

*İslam Kərimov,*
*Özbəkistan Prezidenti.*

Ancaq hələlik o günlər heç üfüqdə də görünmür- dü....

Ulu Öndər Heydər Əliyev bunu görürdü. 1999-cu ildə Azərbaycan prezidenti Heydər Əliyev Ermə- nistan prezidenti Robert Koçaryanla Naxçıvanın Ermənistanla sərhədində görüşərək Dağlıq Qarabağ problemini müzakirə etdilər. Görüş ayaqüstü və cəmi bir neçə dəqiqə çəkdi. Belə məhdud vaxtda tanınmış siyasi xadim Heydər Əliyev problemin məğzini açdı və ondan çıxış yollarını da göstərdi. Görüş televiziya



kanalları ilə yayımlanırdı. Açıq hiss olunurdu ki, Koçaryan qarşısındakının siyasət dünyasının nəhəngi Heydər Əliyev olduğunu dərk edir, ona görə də özünü yığışıqlı aparır, az danışmağa çalışır və çəkinirdi. Heydər Əliyev isə sərbəst danışır, özünü heç də məğlub tərəf kimi göstərmirdi. Əksinə, görüşün ilk dəqiqəsindəcə dayandıqları yeri göstərib “Bura Azərbaycan ərazisidir” dedi. Qısa söhbətdən sonra prezidentlər ayrılıb gedəndə Heydər Əliyev üzündə təbəssüm “Biz bu yerə qayıdacağıq” dedi.

Koçaryan bu ifadəyə də etiraz cavabı verə bilmədi və sadəcə əlini mənasızcasına yelləyib uzaqlaşdı. Ümumiyyətlə, sonrakı bir neçə görüşdə Ermənistanın

başçıları Azərbaycan rəhbərinin qarşısında duruş gətirə bilməyərək yayınırdılar. Yəqin Serjik Sarkisyanın Azərbaycanın təkliflərindən yayınmaq və suallarına cavab verməmək üçün biabırcasına ayaqyoluna qaçdığı hamının yaddaşında qalıb. Bəli, ermənilər artıq sübut ediblər ki, öz məqsədlərinə çatmaq üçün hər alçaqlığa getməyə hazırdırlar.

## AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ

*Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını, böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz Heydər Əliyev siyasətinin nəticəsidir.*

*Jak Şirak,*
*Fransa Respublikasının Prezidenti.*

Yaşının keçməsinə, səhhətində yaranmış problemlərə baxmayaraq Heydər Əliyev o illərdə də yorulmadan çalışır, Azərbaycanı işıqlı gələcəyə aparan yolda əlindən gələni əsirgəmirdi. İkinci

hakimiyyəti illərində ABŞ prezidentləri Corc Buşla, Bill Klintonla, ABŞ-ın dövlət katibi Madlen Olbraytla, Fransa prezidenti Jak Şirakla, Türkiyənin Baş naziri Süleyman Dəmirəllə, Ukrayna prezidenti Leonid Kuçma ilə, Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə, Gürcüstan prezidenti Eduard Şevardnadze ilə, Pakistanın Baş naziri Bənəzir Bhutto ilə və dünyanın bir çox başqa dövlətlərinin başçıları ilə görüşlər keçirir, onların diqqətini Qarabağ münaqişəsinin həllinə yönəldirdi.

Dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-nin Baş katibləri Butros Qali və Kofi Annanla görüşlərində Azərbaycan rəhbəri öz ölkəsinin tələblərini irəli sürür, onları işğalçı Ermənistana təsir göstərməyə, beynəlxalq qanunlara, konvensiyalara əməl etməsinə məcbur etməyə çağırırdı.

Özünün də dediyi kimi Azərbaycan daim onun ürəyində idi. Azərbaycanın azadlığı, ərazi bütövlüyü, müstəqil dövlət kimi dünya birliyinə layiqli yer tutması onun ən başlıca amalı idi. O, inanırdı ki, Azərbaycan dünyaya Günəş kimi doğacaq. Uzaqgörən lider bu müqəddəs amal üçün lazımi təməli qoymuşdu. Lakin səhhətində yaranan ciddi problemlər bu işi axıra çatdırmağa aman vermədi. Dahi rəhbər vəsiyyətində bildirdi ki, yarımçıq qalan vəzifələri İlham Əliyev axıra

çatdıracaqdır. Əziz rəhbərimiz necə demişdisə, o cür də oldu.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bütün lazımi hazırlıq işləri başa çatandan sonra 2020-ci il sentyabrın 27-də Silahlı Qüvvələrimizə "İrəli!" əmri verdi. Cəmi 44 gün çəkən müharibədə Ermənistan odrusu darmadağın edildi, canlı qüvvəsinin 30 faizini, hərbi texnikasının 80 faizini itirən düşmən noyabrın 10-da təslim olduğu barədə bəyanat verdi. Bununla da 28 il düşmən tapdağında qalan ərazilərimiz azad olundu.



***Fizuli-dağıdılmış şəhər***

Hazırda ermənilər tərəfindən dağıdılmış şəhər və kəndərimizdə böyük tikinti, bərpa və yenidənqurma işləri aparılır. İşlərin sürəti deməyə əsas verir ki, xalqımız və dövlətimiz bu qədər böyük miqyasda

dağıntının nəticələrini 40-50 ilə deyil, cəmi 9-10 ilə aradan qaldıra bilər. Çünki işğal ərazilərində vandal ermənilər qədimdən indiyədək tikilən, qurulan nə varsa hamısını məhv ediblər.

Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil, azad Azərbaycan Prezident İlham Əliyevin ağıllı və son dərəcə düşünülmüş siyasəti ilə dünyanın varlı, abad və xoşbəxt ölkələrindən birinə çevriləcəkdir. Ulu Öndər Heydər Əliyevin məşhur kəlamı həqiqətə çevriləcəkdir: “Azərbaycan dünyaya Günəş kimi doğacaqdır!”



***Əsrin neft kontraktları***

Hörmətli oxucular, gördüyünüz kimi, sizə təqdim etdiyimiz bu kitabda Ümummilli Lider Heydər

Əliyevin geniş fəaliyyətinin yalnız bir istiqaməti barədə az da olsa məlumat vermişik. Təkrar edirik ki, onun zəngin fəaliyyəti cildlərlə kitaba sığmaz. Azərbaycan xalqı qarşısında göstərilən bu əvəzsiz fəaliyyət bizim tərəfimizdən yüksək qiymətlən- dirildiyi kimi, dünyanın bir çox böyük dövlətlərinin başçılarının, görkəmli siyasətçilərinin, dövlət xadimlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin diqqətini cəlb etmiş, onlar tərəfindən də yüksək dəyər verilmişdir.



Onların böyük hörmət və rəğbətlə səsləndirdikləri fikirlərdə Ümummilli Liderimiz öz xalqının və Vətəninin xoşbəxt gələcəyi yolunda canından belə keçməyə hazır olan millət, xalq rəhbərinin əzəmətli obrazı canlanır. Onların aforizmə çevrilmiş ifadə-

lərində belə bir ümumi fikir formalaşır: Heydər Əliyev kimi dahi rəhbəri olan bir xalq xoşbəxtdir. Hakimiyyətinin birinci dönəmində kasıb və aqrar bir respublika olan Azərbaycanı tarix üçün qısa müddətdə, cəmi on dörd il ərzində Sovet İttifaqının inkişaf etmiş respublikaları sırasına qaldırmış, Azərbaycanı dünyaya tanıtmışdır. Hakimiyyətinin ikinci mərhələsində isə yenicə müstəqillik qazanmış ölkəsini xarici və daxili düşmənlərin cəngindən xilas etmişdir. Tarixdə belə tale yaşamış dövlət başçı- larının sayı çox deyil. Heydər Əliyev seçilmişlərin arasında yer tutmuşdur.

Azərbaycan xalqının Ümummili Lideri və Ulu Öndəri olmaq onun halal haqqıdır. O, bu haqqı ölçüyəgəlməz fəaliyyəti, dərin ağlı, geniş zəkası, son dərəcə düşünülmüş siyasəti və yüksək idarəetmə qabiliyyəti ilə qazanıb.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.”Azərbaycan qəzeti”, 2 aprel 1996

2. “Heydər Əliyev: Müstəqil azərbaycan dövlə- tinin qurucusu”. Bakı, “Azərbaycan” nəşriyyatı, 2003. Kollektiv müəlliflər

3. Heydər Əliyev: Dövlət xalq üçündür. Bakı, “Adiloğlu “nəşriyyatı, 2008

4. Hüseynov Y. Qarabağ. Bakı, “Afpoliqraf” nəşriyyatı, 2018

5. Xalqa bağışlanan ömür. Bakı, “Şəms”, 2006

6.İbrahimov Z. Heydər Əliyev fondu: Şəxsiyyətin fenomeni və milli– mənəvi
dəyərlərimiz. Bakı,” Çirak “nəşriyyatı, 2013

7.İlyasov V.” Tərtər mənim qalamdır” Bakı, ?

8. Qarabağnamələr. I-II kitablar. Bakı: “Yazıçı”, 1989-1991.

9. Quliyev V. “Ötən günlərimi qaytaraydılar” .Bakı, Şuşa nəşriyyatı, 2001

10. Marxuliya Q. Ermənilər Ermənistan axtarışında. Bakı, “Radius”, 2019

11. Məmmədova H.Qarabağ general qubernatorluğunun erməni təcavüzünə qarşı
mübarizəsi tarixindən səhifələr. Bakı, “Şirvannəşr” .1999

12. Məmmədova H.Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət.

Erməni terrorizmin güclənməsi.(1918-1920).Bakı, “Nağıl evi”, 2006

13. Məmmədova H. Azərbaycan Respublikasının xarıcı siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi.Bakı,”Elm” 2009

14. Məmmədova H. Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi-siyasi aspektləri və tənzimlənməsi prosesi. Bakı, “Şirvannəşr” . 2017

15. Mirzəzadə A. Qarabağ düyünü. Bakı, “Azərbaycan” nəşriyyatı, 2012

16. Ürəklərdə ucalan abidə. III kitab. Bakı,”Vektor”, 2005.

17. Андриянов В, Мираламов Г. «Гейдар Алиев». Москва, «Молодая гвардия» 2012

18. Карабах. Истоия в контексте конфликта. «Вестник», Санкт-Петербург, 2014.

## Mündəricat

El bilir ki, sən mənimsən..........................................3
Qarabağda millətçilik necə baş qaldırdı ....................8
Şovinistlərin hərəkətə gəlməsi................................ 14
Qorxmaz general ..................................................... 28
Azərbaycanın yeni rəhbəri ...................................... 41
Heydər Əliyevin idarəçilik məktəbi........................ 45
Heydər Əliyevin Şuşaya səfəri ............................... 85
SSRİ Nazirlər Soveti sədrinin birinci müavini ..... 89
Doğma yurda dönüş ................................................. 96
Qurtuluşa gedən yol............................................... 108
Heydər Əliyevin Kəlbəcərin məcburi
köçkünləri ilə görüşü ............................................. 146
Ki-Uest səfəri ......................................................... 174
Əbədiyaşar lider .................................................... 180
Azərbaycanın ümummilli liderei .......................... 182
İstifadə edilmiş ədəbiyyat ..................................... 190